**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 38 (6081) 4 oktyabr 2024-cü il | Qiyməti 40 qəpik

# PREZİDENT VƏ XANIMI CƏBRAYIL VƏ ZƏNGİLANA SƏFƏR ETDİ



Bax:səh-2

## Vilayət Eyvazov Gəncədə vətəndaşları qəbul edəcək



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 2024-cü il oktyabr ayının 10-da Gəncə Şəhər Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Goranboy, Naftalan, Göygöl, Samux, Kəlbəcər, Xocalı şəhər və rayonlarının sakinlərinin qəbulu keçirəcək.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 09.10.2024-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər. Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

## "QARAGİLƏ" MAHNISI YENİ ORANJEMANDA

**Musiqisi:** Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi
**Sözləri:** Yerüstü Nəqliyyat Agentliyi
**Xorda oxuyur:** Şəhərimizin sakinləri

*Bakının küçələri tıxacbatıxac, qaragiləm, tıxacbatıxac.*
*Sən ki tıxacı sevmirsən, get ayrı şəhər tap, qaragiləm*
*QAİ olaydım, yolda duraydım*
*Sən gələn yollarda tıxacı açaydım, qaragiləm.*

## "HİZBULLAH"IN YENİ LİDERİ NƏ QƏDƏR YAŞAYA BİLƏCƏK?





**İsrail "Həmas"ın lideri Haniyəni Tehranın düz ortasında öldürdü. Bu günlərdə də "Hizbullah"ın lideri Həsən Nəsrullahı Livandakı öz ofisində aviazərbələrlə partlatdı. İndi 60 yaşlı Haşim Safiuddini "Hizbullah"a yeni lider seçdilər. Görək İsrail bu yeni liderə yaşamaq üçün nə qədər vaxt verəcək?**

## BİR YOL DA MAŞINLAR ÜÇÜN ÇƏKSƏYDİLƏR YAXŞI OLARDI





**Deməli, küçələrdə velosipedçilər üçün yol ayırdılar, avtobuslar üçün də yol ayırdılar. Yaxşı olar ki, bir yol da maşınlar üçün ayıraydılar, camaat tıxacda stress keçirməzdi.**

Deyəcəksiz Londonda da tıxac olur, "Qarabağ" komandası da iki saat yarım tıxacda qalıb.

Əslində Londondakı həmin tıxac qəsdən yaradılmışdı ki, "Qarabağ"ın futbolçuları oyundan qabaq stress keçirsinlər. Biz hər gün tıxacda keçirdiyimiz stressdən xəbərdar olduğumuza görə, görün onda "Qarabağ"ın oyunçuları nə çəkib?

## *CAMAAT STADİONA FUTBOLA GÖRƏ GƏLMİR EY...*



**Azərbaycan çempionatının demək olar ki, bütün oyunlarını izləyirəm. "Turan" Tovuzun stadionundan başqa bütün stadionlarda tribunalar boş. Hər klubun əlli, yüz, iki yüz fanatı var, vəssalam. Hətta "Qarabağ"ın oyunlarında da tribunaların yarısı boşdur.**

Mənə elə gəlir ki, camaat stadiona futbol izləməyə görə yox, 44-cü dəqiqədə "Şəhidlər ölməz, Vətən bölünməz!" sloqanını hayqırmaq üçün gəlir. Şəhidlərə hörmət əlaməti olaraq gəlir. Çünki klublarımız məhlə komandaları kimi oynayırlar. Bir-iki oyunu çıxmaq şərtilə, heç bir həyəcan yox, oyundan ləzzət almaq da yox.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## AŞIQ ƏLƏSGƏRİN HEYKƏLİ



*Şəhərdə Aşıq Ələsgərə bir heykəl, bir abidə ucaldılıb. Maraqlı bir heykəldi. Bundan əvvəl olduğu kimi bu cür heykəllər Rəşid Behbudova, Bülbülə, Müslüm Maqomayevə, Ələğa Vahidə və Hacı Zeynalabdin Tağıyevə də ucaldılıb.*

*Bu heykəltəraşlığın yeni bir növüdür və dünyanın bir çox şəhərlərində sənətkarlara, filosoflara belə abidələr ucaldılıb.*

*Bundan əvvəl Bakıda saydığımız sənət adamlarına ucalan abidələr belə səs-küy salmamışdı. İndi nədən Aşıq Ələsgər belə səs-küylü müzakirələrə səbəb olub?*

*Uzatmıram, biri sosial şəbəkədə yazıb ki, elə bil Aşıq Ələsgər bu dəqiqə əlindəki sazı kiminsə təpəsinə çırpacaq.*

*Çırpacaq, dostum, ermənilərin təpəsinə çırpacaq. Və bir gün doğulduğu Göyçə mahalında da Aşıq Ələsgərin elə bu gözəllikdə maraqlı bir heykəlini ucaldacağıq.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı Universitetdə imtahan verir. Proffessor ona sual veri:

**- Bax, qoyunun qabağına bir vedrə su və bir vedrə araq qoysalar qoyun hansını içər?**



Vəli Xramçaylı:
**- Suyu içər.**
Professor:
**- Niyə?**
Vəli:
**- Ona görə ki, qoyundu...**

# PREZİDENT VƏ XANIMI CƏBRAYIL VƏ ZƏNGİLANA SƏFƏR ETDİ



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma kənddə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün tikilən 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. İnşa olunan evlər iki, üç, dörd və beş otaqdan ibarətdir. Həmçinin burada məktəb binası, uşaq bağçası və digər iaşə obyektlərinin tikintisi davam etdirilir. Diqqətə çatdırıldı ki, kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənddə hazır evlərə baxdılar.

***

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına tam orta məktəbin binasının açılışında iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində "Azərsun Holding" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməlini qoyub.

***

Prezident İlham Əliyev Cəbrayıl rayonunun Soltanlı kəndində damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub.

***

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda Litvanın "Dominari" şirkətinin mebel klasterinin təməlqoyma mərasimində iştirak ediblər.

***

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda "Karabakh Stone" MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak ediblər.

***

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda "Prestij-Kimya" MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak ediblər.

***

Prezident İlham Əliyev Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

***

Prezident İlham Əliyev Zəngilan şəhərində beşinci və altıncı yaşayış komplekslərinin təməllərini qoyub.

***

Prezident İlham Əliyev Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub.

***

Prezident İlham Əliyev Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub.

***

Prezident İlham Əliyev Zəngilan rayonunda "Sarıqışlar" Su Elektrik Stansiyasının açılışında iştirak edib.

# ***DTX rəisi:*** "Azərbaycan sülhün və birgə yaşayışın bərpasının tərəfdarıdır"

**"Azərbaycan Respublikası postmüharibə dövründə Cənubi Qafqazda sülhün, mehriban qonşuluq prinsiplərinə əsaslanan birgə yaşayışın, nəqliyyat və iqtisadi əlaqələrin bərpasının tərəfdarıdır".**

Adalet.az xəbər verir ki, bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi" mövzusunda beynəlxalq konfransda çıxışında deyib.



O bildirib ki, dünyadakı bir sıra güc mərkəzləri hazırda bölgədə gərginliyin artırılmasında, o cümlədən Ermənistanı silahlandıraraq revanşizmin və separatizmin yenidən qızışdırılmasında maraqlıdır və buna açıq dəstək verməkdən çəkinmirlər:

"Görünən budur ki, belə qüvvələri hər şeydən öncə bu bölgədə baş vermiş və hazırda dünyada davam edən silahlı münaqişələr nəticəsində həyatını itirmiş, qaçqına, məcburi köçkünə çevrilmiş və itkin düşmüş yüz minlərlə insanının acı taleyi düşündürmür".

Komissiya sədri diqqətə çatdırıb ki, eyni zamanda, biz beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, bütün dövlətlərlə sosial-iqtisadi, siyasi, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq etmək əzmindəyik. Eyni prinsiplər əsasında Azərbaycan dövləti Ermənistanla qısa vaxt ərzində sülh müqaviləsi imzalamağa hazırdır:

"Bundan ötrü rəsmi İrəvan Azərbaycana qarşı ərazi iddialarını şərtləndirən Konstitusiyasında və digər milli qanunvericilik aktlarında dəyişiklik etməlidir. Bu gün bağlanan sülh müqaviləsi yenidən nə vaxtsa ərazi iddiaları irəli sürməyi tamamilə istisna etməlidir. Yalnız Azərbaycan üçün deyil, qlobal mahiyyət daşıyan itkin düşmüş şəxslər problemi aidiyyəti beynəlxalq təşkilatları və beynəlxalq siyasi dairələri ciddi düşündürməlidir. Xüsusi ilə Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Qızıl Xaç Komitəsi və digər aidiyyəti qurumlar bu məsələyə diqqət ayırmalı, zorakı itkindüşmələrin qarşısının alınması üçün təcili və təxirəsalınmaz tədbirlər görməlidirlər".

# *XİN rəsmisi: Ermənistanın cinayətləri ABŞ tərəfindən tam sükutla qarşılanıb*



**ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Dafna Randın Varşava İnsan Ölçüsü Konfransında ABŞ tərəfinin "Dağlıq Qarabağda beynəlxalq humanitar hüququn və insan hüquqlarının iddia edilən pozuntularının nəzərdən keçirməkdə davam etdiyi" barədə fikirlərinin əks olunduğu 1 oktyabr tarixli bəyanatı təəccüb doğurur.**

Adalet.az xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisinin 1 oktyabr tarixində Varşava İnsan Ölçüsü Konfransındakı bəyanatına dair şərhində bildirib.

Maraqlıdır ki, Azərbaycan ərazilərinin hərbi işğalı zamanı Ermənistan tərəfindən törədilmiş bəşəriyyətə qarşı irimiqyaslı cinayətlər və azərbaycanlılara qarşı qırğınlara baxmayaraq, ABŞ tərəfi beynəlxalq humanitar hüququn pozulması hallarının aradan qaldırılmasının vacibliyinə yalnız indi istinad edir.

30 ilə yaxın müddətdə Ermənistanın bu cinayətləri ABŞ tərəfindən tam sükutla qarşılanıb.

Əgər ABŞ tərəfi qərəzsizlik və ədalətli mövqe nümayiş etdirmək istəyirsə, ilk növbədə Ermənistanın indiyədək törətdiyi çoxsaylı cinayətlərin araşdırılmasını, günahkarların qanun qarşısında cavab verməsini tələb etməlidir.

Əks halda, bu, beynəlxalq ictimaiyyəti çaşdırmaq, Ermənistanın təcüvüzü zamanı yüz minlərlə azərbaycanlının əsas insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasından diqqət yayındırmaq məqsədi güdən erməni təbliğatı nəticəsində verilən birtərəfli bəyanatdan başqa bir şey deyil.

Aqil ABBAS

# AŞIQ ƏLƏSGƏRİN HEYKƏLİ

*Şəhərdə Aşıq Ələsgərə bir heykəl, bir abidə ucaldılıb. Maraqlı bir heykəldi. Bundan əvvəl olduğu kimi bu cür heykəllər Rəşid Behbudova, Bülbülə, Müslüm Maqomayevə, Əlağa Vahidə və Hacı Zeynalabdin Tağıyevə də ucaldılıb.*

*Bu heykəltəraşlığın yeni bir növüdür və dünyanın bir çox şəhərlərində sənətkarlara, filosoflara belə abidələr ucaldılıb.*

*Bundan əvvəl Bakıda saydığımız sənət adamlarına ucalan abidələr belə səs-küy salmamışdı. İndi nədən Aşıq Ələsgər belə səs-küylü müzakirələrə səbəb olub?*



*Uzatmıram, biri sosial şəbəkədə yazıb ki, elə bil Aşıq Ələsgər bu dəqiqə əlindəki sazı kiminsə təpəsinə çırpacaq.*

*Çırpacaq, dostum, ermənilərin təpəsinə çırpacaq. Və bir gün doğulduğu Göyçə mahalında da Aşıq Ələsgərin elə bu gözəllikdə maraqlı bir heykəlini ucaldacağıq.*

*Heykəlin müəllifinə uğurlar arzulayırıq. Bəxtiyar Vahabzadə bizə dərs verəndə bir qəribə ifadə işlədəndə belə deyərdi: "Gedin bunun çortuna, görün nə görürsüz".*

*İndi siz də gedin bu heykəlin çortuna, görün nələr görərsiz.*

*Hər dəfə dəniz kənarına gedəndə görürəm ki, müxtəlif insanlar yığışıb Müslüm Maqomayevin heykəlinin ətrafına, orda quraşdırılmış kompüterdə dahi ifaçının mahnılarına qulaq asırlar.*

*Mən də təklif edirəm ki, Aşıq Ələsgərin də heykəlinin yanında belə bir kompüter quraşdırılsın və saz havaları eşitmək istəyənlər gedib orda saz havalarına qulaq assınlar.*

*Bir dəfə azıb gedib çıxmışdım Varşavaya. Orda böyük bir bağda Şopenin ev muzeyi var və bağda hansı ağacın altında oturursansa xəfif səslə 24 saat Şopenin əsərlərini eşidə bilərsən.*

*Ağcabədidə Üzeyir Hacıbəyovun adına Muğam Mərkəzi tikiləndə, o da böyük bir bağın içində tikilib, mən təklif etdim ki, burda da ağaclarda dinamiklər quraşdırılsın və insanlar istədiyi vaxt gəlib Üzeyir Hacıbəyovun əsərlərini və muğamlarımızı dinləsinlər.*

*Ağcabədinin o vaxtkı icra başçısı Şahin Məmmədov təklifimi yüksək qarşıladı və indi kim istəyirsə axşamlar gedib "Xanəndə Mütəllim əminin bağı" adlanan həmin bağda muğamlarımızı və Bəyin əsərlərini dinləyə bilərlər.*

# *Ağdam şəhərinə ilk köç bu tarixdə planlaşdırılır*

**Ağdam şəhərinə ilk köç gələn ilin payızında planlaşdırılır.**

Adalet.az xəbər verir ki, bunu Report-a açıqlamasında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

O qeyd edib ki, azad edilən ərazilərə köçürülən vətəndaşlar üçün dövlət hər cür şərait yaradıb:

"Bu işlər Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində plana uyğun davam edir. Məşğulluq və infrastruktur məsələlərini düzgün ardıcıllığını planlayaraq bunu edirik".

O qeyd edib ki, hazırda Ağdamda 3 kənddə quruculuq işləri davam edir:

"Prezident İlham Əliyev sonuncu dəfə Ağdama səfər etmişdi. Orada hazırda 3 kənddə - Kəngərli, Xıdırlı, Sarıcalıda bərpa-quruculuq işləri davam edir. Baş Qərvənd kəndində də slovakiyalı mütəxəssislərlə birgə kəndin bərpası üzrə işlər gedir.

Ağdam rayonunda digər kəndlər üzrə layihələndirmə işləri aparılır.

Şəhərin özündə 5 məhəllə nəzərdə tutulur. Hazırda 2-ci məhəllədə 66 binanın tikinti işlər başlayıb. Ağdam şəhərinə gəən ilin payızında ilk köç planlaşdırılır. Bundan sonra paralel olaraq digər məhəllələrdə də tikinti işləri yekunlaşdıqdan köç başlayacaq".

# Hikmət Hacıyev dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşdü

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb.**



Adalet.az xəbər verir ki, görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev də iştirak edib. Onlar dövlət rəhbərliyinin ölkənin intellektual potensialının inkişafına yönəlik atdığı addımları, eləcə də "Yüksəliş" müsabiqəsinin bacarıqlı kadrların şəxsi və peşəkar inkişafına göstərdiyi dəstəyi xüsusi vurğulayıblar. H.Hacıyev qalibləri təbrik edərək, onların müsabiqədəki uğurlu nəticələrini Azərbaycan dövlətinin müasir idarəetmə sistemi və ölkənin inkişaf strategiyası üçün dəyərli töhfə adlandırıb. Hikmət Hacıyev müsabiqənin mentorluq proqramında əldə edilən uğurları vurğulayaraq qaliblərin qarşılıqlı təcrübə əsasında liderlik qabiliyyətlərinin daha da gücləndiyini dilə gətirib. O, mentorluq proqramı çərçivəsində baş tutacaq növbəti görüşlərin qaliblərə böyük fayda verəcəyinə əmin olduğunu qeyd edib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev "Yüksəliş" müsabiqəsinin mentorudur.

"Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər.

**Sayca dördüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 25 dekabr 2023-cü il tarixində müvafiq Sərəncam imzalanıb.**

# *Dəfələrlə bayrağımıza təhqirin bədəlini ödəyiblər, yenə dərs olmadı...*

**Bildiyiniz kimi, bu gün 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ müharibəsində həyatını itirən şəhidlərin xatirəsinin anılması günüdür. Anım Günü hər il müharibənin başlandığı gün sentyabrın 27-də keçirilir.**

Qarabağın işğaldan tamamilə azad olması prosesinin başlandığı həmin gündən antiterror əməliyyatı bitən günə qədər canını vətən üçün qurban vermiş bütün şəhidlərimiz anılır.

Bu müqəddəs və ədalətli müharibənin sayəsində Qarabağda bir nəfər olsun erməni separatçı, terrorçu qalmadı. Özünü Qarabağa layiq bilməyənlər, Qarabağın əbədi sahibləri ilə yaşamağa utanan ermənilər könüllü şəkildə Ermənistana köç etdi.

Azərbaycanın bu uğuru təbii ki, bizə bütün dönəmlərdə düşmənçilik etmiş erməniləri kədərə qərq edib.



Gecə saatlarında bir qrup revanşist və nifrət dolu xislətli ermənilər İrəvanın mərkəzi meydanı olan respublika meydanına toplaşaraq nifrət nitqləri söyləmiş , avtomobillərinin arxasına Azərbaycan və Türkiyə bayraqlarını bağlayaraq yerlə sürüyərək Yerablur hərbi pantenonuna yürüş ediblər.

Xatırlayırsınızsa, ötən ilin aprelində İrəvanda Ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində bayraqların paradı oldu. Azərbaycan üçüncü ölkə elan edildi. Azərbaycan bayrağı zala gətirildikdən sonra azarkeşlərdən biri səhnəyə qaçaraq qızın əlindən milli simvolumuzu götürərək yandırdı və zaldan.

Azərbaycan dövləti və Azərbaycan ordusu bu rəzilliyi ermənilərə bağışlamadı. Bu hadisədən bir neçə ay sonra - 19 sentyabrda anriterror əməliyyatı elə bu rəzilliyə ətraflı cavab oldu. Uzun sözün qısası, bir ölkənin dövlət atributları ilə oynamaq böyük risqdir. Hələ bunu başqasına edən məğlub ölkədirsə, "fiacəniz lap yaxındadır" deməkdir

Sosial şəbəklərdə paylaşılan həmin məqamları diqqətinizə çatdırırıq.

**Əntiqə Rəşid**

# Ermənistanı dollara qərq edən USAİD: «Bu ölkədə söz azadlığı da yüksək səviyyədədir»

**ABŞ Beynəlxalq İnkişaf Agentliyi "sevimli" Ermənistanında söz azadlığı və media istehlakı ilə bağlı illik sorğunun nəticələrini dərc edib.**

Adalet.az erməni mediasına istinadən xəbər verir ki, guya 2023-cü ildə olduğu kimi, 2024-cü ildə də respondentlərin əksəriyyətinin fikrincə, Ermənistanda həm cəmiyyət, həm də media üçün söz azadlığı yüksək səviyyədədir.

Respondentlərin 75 faizi insanların ifadə azadlığını tam və ya müəyyən qədər azad hesab edir, medianı nəzərə alsaq, bu göstərici 72 faizdir.

Qeyd edək ki, ötən ay ABŞ Ermənistanda patrul polisinin formalaşdırılmasına 16 milyon dollara yaxın vəsait ayırdı. Maraqlıdır Ermənistanda söz azadlığının belə "möhtəşəm" həddə olduğunu düşünən ABŞ niyə məhz hazırki hökuməti qoruyan polisə maliyyə yatırır. Bəlkə, bölgələrdə iqtisadiyyatın inkişafı yüksək həddədir? Bəlkə kənd təsərrüfatında yerli əhali milyonçu olmaq ərəfəsindədir? Niyə ABŞ maliyyəni iqtisadiyyata deyil, polisə ayırır...? Söz azadlığı?

Xatırladaq ki, ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Amerika Birləşmiş Ştatları hökumətinin müstəqil agentliyidir, əsasən mülki xarici yardım və inkişaf köməyin idarə edilməsinə cavabdehdir. 27 milyard dollardan çox büdcə ilə USAID dünyanın ən böyük rəsmi yardım agentliklərindən biridir və ABŞ-nin bütün xarici yardımının yarısından çoxunu təşkil edir - mütləq dollar ifadəsində dünyada ən yüksəkdir.

Ötən ayın sonunda ABŞ Konqresi, Dövlət Departamenti və Beynəlxalq İnkişaf Agentliyi (USAID) Ermənistana 20 milyon dollar məbləğində maliyyə yardımının ayrılması məsələsini müzakirə edir.

**Bundan əvvəl USAID Ermənistana maliyyə yardımını iki dəfədən çox artıraraq 120 milyon dollardan 250 milyon dollara çatdıracağı ilə bağlı məlumat yaymışdı.**

**Ə. Rəşid**

Səxavət Məmməd



# *İran-İsrail savaşı: Azərbaycanı gözləyən təhdidlər*

## *Hərbi müdaxilə, qaçqın seli...*

**"Hizbullah" lideri Həsən Nəsrullahın öldürülməsi Yaxın Şərqdəki prosesləri daha da sürətləndirdi. Belə ki, İran prezidenti Məsud Pezeşkianın ABŞ və Qərblə münasibətləri qurmaq yönündə addımlar atacağı, sanksiyalardan qurtulmağa çalışacağı iddia edilirdi. "Hizbullah" liderinin öldürülməsi həm İranın fərqli addımlar atacağının qarşısını kəsdi, həm də rəsmi Tehranı birbaşa oyunların mərkəzinə gətirmiş oldu.**

**İsrailin Yaxın Şərqdə planlarının baş tutmasında qarşısında duran əsas əngəl İrandır. Yəni, İranla İsrail arasındakı düşmənçiliyin əsas səbəbi Yaxın Şərqdir. Çünki hər iki ölkənin strateji maraqları içərisində birinci hədəf Yaxın Şərqə tam nəzarət etməkdir. Din, milli kimlik bəhanələrdən başqa bir şey deyil. Düzdür, Yaxın Şərq Türkiyənin strateji hədəflərini içərisindədir. Məsələ ondadır ki, İran bu yöndə Türkiyədən xeyli irəlidədir. İranın proksi qüvvələri dövlət halına gəldiyi halda, Türkiyə bu yöndə hələ çox geridə qalır. Bundan əlavə, PKK, PYD kimi terror təşkilatları da Türkiyənin başını sərhədlərindən kənara çıxarmağa imkan vermirdi.**

**İranın İsrailə zərbələr endirəcəyi gözlənilən idi. Həsən Nəsrullah öldürüləndə bu iddianı ortaya atmışdım. Çünki İran yenə səbr nümayiş etdirsə, diş göstərməzsə, nəinki "Hizbullah"ı, bir neçə təşkilatı itirə bilərdi. Ən azı o təşkilatlar arasında İrana inam azalacaqdı. Həsən Nəsrullahın öldürülməsi İranı məcbur etdi ki, hərəkətə keçsin. Haniyənin Tehranda öldürülməsi İranı hərəkətə keçirməmişdi. Keçirə də bilməzdi. İran yalnız öz ölkəsində öldürüldüyü üçün bu məsələyə acıqlı olduğunu göstərirdi. HƏMAS və "Hizbullah" arasında məzhəb fərqi var. Bunu gözardı etmək olmaz.**

**İran prezidenti hətta Qərb və ABŞ xəttini də götürsə, İran asanlıqla proksilərindən əl çəkməyəcəkdi. İran bu günə qədər proksilərinə milyardlarla dollar vəsait xərcləyib, bir anlıq bundan əl çəkməsi mümkün deyil.**

**Hətta iddialar var ki, İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) raket zərbələrini endirəndən sonra Pezeşkiani xəbərdar edib. Ümumiyyətlə, İran müdafiə nazirliyinin tabeliyindəki qoşunlarla SEPAH-ın qoşunlarını müqayisə etdikdə ikincilərin daha güclü olduğunu görə bilirik. Yəni, SEPAH-ın fikrini, razılığını almadan siyasi xəttin dəyişəcəyini gözləmək olmaz.**

**İranla İsrail arasında ilk birbaşa hərbi toqquşma bu ilin aprel ayının 13-dən 14-ə keçən gecə baş verdi. İranın o hücumu ilə dünən gecəki hücumu arasında bir neçə fərq var idi.**

**Birinci fərq xəbərdarlığın edilməməsi idi.**

**İkinci fərq isə birinci hücumda daha çox dronlardan, az sayda isə raketlərdən zərbələrin endirilməsi idi. Ona görə də, İranın hücumu saatlar çəkmişdi. Dronları zərərsizləşdirmək isə asan olmuşdu. Ancaq İsrail birinci hücumu təkbaşına yox, ABŞ və İordaniyanın köməkliyi ilə dəf edə bilmişdi. Fiziki baxımdan ciddi zərər almasa da, maddi baxımdan bu hücumun qarşısını almaq İsrail və müttəfiqlərinə baha başa gəlmişdi. Yeri gəlmişkən, birinci hücumda İranın ballistik raketləri İsrail aviabazalarına düşə bilmişdi. Bu, İsrail və müttəfiqlərinə bir mesaj olmalı idi.**

**İranın dünən həyata keçridiyi hücum isə daha güclü və dəqiq idi. Düzdür, ilk başda İsrailin təkbaşına bu hücumu dəf etməyə çalışdığı deyilsə də, sonradan məlum olur ki, ABŞ-nin ərazidəki hərbi təyyarələri də raketləri vurmağa çalışıb. Yeri gəlmişkən SEPAh bu hücumda ilk dəfə hipersonik raketlərdən də istifadə edib.**

**İsrail və İran raket zərbələri ilə bir-birinə daban-dabana zidd açıqlamalar verir. İsrail raketlərin 80 faizinin vurulduğunu deyir, İran isə raketlərin 80 faizinin hədəflərə çatdığını. Bu söz güləşməsini bir kənara qoyub, videogörüntlərə nəzərə salsaq, raketlərin ən azı yarısından çoxunun hədəflərə düşüdüyünü deyə bilərik. Məsələ ondadır ki, hipersonik və ballistik raketlər olsalar da dağıdıcı güclərinin az olması diqqətdən qaçmır. Hər zaman dediyim sözə gəlirəm, kütləvilik hava hücumundan müdafiə sistemlərinin bir nömrəli düşmənidir.**

**İsrail tərəfi mülki əhali arasında itkinin olmamasını qabardır. Bununla da İranın raket zərbələrini cılızlaşdırmaq xətti tutur. Məsələ ondadır ki, raket zərbələrinin düşdüyü istiqamətlərə xəritələr üzərində baxdıqda bu daha çox aviabazalar, hava limanları və MOSSAD-ın qərargahının hədəfə alındığını göstərir.**

**İsrail tərəfi İrana ağır cavab verəcəyinin mesajlarını verir. Ancaq bunu edib-etməyəcəyi sual altındadır. Əgər edəcəksə, necə edəcəyi maraq doğurur. Çünki İran konkret olaraq hərbi hədəfləri hədəf almışdı. İstər ABŞ, istərsə də İsrail İranın asan yem olmadığını gördü. Yeri gəlmişkən, İranın yüzlərlə raketi yenidən hazırladığı barədə iddialar var. Yəni, İsrailin endirəcəyi zərbələrə cavab zərbələri olacaq.**

**İrana raket zərbələri müharibənin miqyasını da dəyişəcək. Yəni, İranın təkcə raketlərlə cavab verəcəyini gözləməməliyik. İrana bağlı təşkilatlar səfirlikləri, böyük şirkətləri hədəf ala bilər.**

**Yəni, bu hücumlar dünyanın hər yerində böyük bir terror dalğasını başlada bilər.**

**Türkiyə prezidenti açıq şəkildə bəyan etdi ki, İsrailin növbəti hədəfi Türkiyə olacaq. Türkiyə liderinin bu cür açıqlama verməsi gözlənilən idi. Çünki Yaxın Şərq uğrunda savaşda ABŞ və müttəfirinin qarşısında birinci dərəcəli problem İrandırsa, ikinci sıradakı Türkiyədir. Hesab edirəm ki, bundan sonrakı mərhələdə Türkiyə açıq savaşa qoşulmasa da, proseslərə daha yaxından, yəni, təkcə sözlü şəkildə yox, sahədə də qoşulacaq.**

**Əlavə olaraq, qeyd etmək lazımdır ki, bomba-sığınacaq mərkəzlərinin müasir dövrün müharibələrində necə əhəmiyyətli olduğunu görmək lazımdır. Bu da bizə bir mesaj olsun.**



Rüstəm Hacıyev

# İran müharibəyə qoşulur?

*İran dünən axşamdan başlayaraq İsraili kütləvi raket atəşinə tutub. Bu barədə məlumat verən İsrailin müdafiə ordusu bildirib ki, İran ərazilərindən İsrail tərəfə çoxsaylı raket hücumları həyata keçirilib.*

*İranın İSNA agentliyi İsrail ərazilərinə atılan raketlərin video görüntülərini yayımlayıb. Atılan raketlərin dəqiq sayı bilinməsədə, bir çox KİV-lərin gümanlarına görə, İsrail istiqamətinə 500-ə yaxın raket atılıb ”Yerusalem Post” qəzetinin bildirdiyinə görə, əsas hədəf Yerusəlim şəhəri olub.*

*İran tərəfi bəyan edib ki, kütləvi raket hücumları İsrailin HƏMAS, ”Hizbullah” hərəkatının liderlərinin və İslam İnqilabı Keşikçiləri Korpusunun Livandakı komandanı Nilfruşanın qətlə yetirilməsinə cavab olaraq həyata keçirilib.*

*İslam İnqilabı Keşikçiləri Korpusu bəyan edib ki, İsrail tərəfi bu hücumlara cavab versələr, daha ağır zərbələrlə qarşılaşacaqlar.*

*İran tərəfi yaxşı bilir ki, İsrail bu hücumları cavabsız buraxmayacaq və belə olan halda iki dövlət arasında açıq müharibə başlayacağı təhlükəsi hər an gözlənilən təxminlərdən bitidir.*

*Bəli gözlənildiyi kimi, İsrailin baş qərərgah rəisi Hersi Xalevi bəyan edib ki, ”Tel -Əviv İranın hücumlarına qarşı görünməmiş hücum imkanlarını nümayiş etdirəcək”.*

*Təbii ki, İranın bu hücumu Yaxın Şərqdə vəziyyəti ciddi şəkildə gərginləşdirə bilər. ”İşlərbaşı” ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan, Associated Pres agentliyinin birbaşa yayımladığı mətbuat konfransında bildirib ki, Birləşmiş Ştatlar hazırda atılacaq gələcək addımları qiymətləndirir.*

*ABŞ əslində nəyi qiymətləndirmək istəyir? Hazırda Yaxın Şərqdə gərginliyin son həddə gəlib çıxması Bayden administrasiyasının bu regionda apardığı ”siyasətin” iflasa uğramasının göstəricididir. Ağ Evin boş-boşuna verdiyi bəyənatlar bir daha administrasiyanın tam köməksiz vəziyyətə düşdüyünü sübut edir.*

*Nəticədə isə, ABŞ prezidenti Co Bayden və dövlət katibi Entoni Blinkenin Ukrayna münaqişəsində olduğu kimi, yürütdükləri uğursuz siyasət on minlərlə insanın həyatını itirməsinə və vəziyyətin daha da çətin duruma düşməsinə səbəb olub...*

# Qarabağ Hollandiyanı da havalandırdı: "Tarixin qəsdən silinməsi", "erməni irsi" sayıqlaması

**Hollandiyanın ictimai televiziyası NOS -un saytında işğaldan azad olunmuş Qarabağla bağlı qərəzli məqalə yazılıb.**

Adalet.az xəbər verir ki, ”Tarixin qəsdən silinməsi” başlıqlı məqalədə Qarabağın Azərbaycan tərəfindən işğal olunduğu və buradakı erməni mədəni irsinin dağıdılması məqalənin əsas süjet xəttində verilib.

Məqalədə deyilir: ”On minlərlə erməni etnik təmizləmədən qorxaraq Qarabağ anklavını tərk etdikdən bir il sonra onların keçmiş mövcudluğunun sübutları getdikcə daha az görünməyə başlayır”.

Erməni mediası isə ”NOS”a züy tutaraq bildirir ki, NOS-un təsdiq etdiyi peyk fotoşəkillərinə görə, bir çox abidələr, binalar, qəbiristanlıqlar və hətta bütün kəndlər tamamilə dağıdılıb.

Utrext Universitetinin irs professoru Gerjan Pletz qeyd edib ki, müharibədən sonra azərbaycanlılar Dağlıq Qarabağa köçüb və binalar bir-birinin ardınca sökülür:” Bu proses daha əvvəl, 2020-ci ildə, Azərbaycan altı həftəlik müharibədən sonra ərazinin bir hissəsini ələ keçirəndən sonra başlayıb.

Bu proses daha əvvəl, 2020-ci ildə, Azərbaycan altı həftəlik müharibədən sonra ərazinin bir hissəsini ələ keçirəndən sonra başlayıb. AC-LED (Silahlı Münaqişələrin Nəticələrinin Qiymətləndirilməsi Layihəsi) görə , 2021-ci ildən bəri etnik ermənilərin tarixi, dini, siyasi strukturlarının və yaşayış yerlərinin səksənə yaxın dağıdılması faktı qeydə alınıb. 2023-cü ilin sentyabrından bu göstərici yalnız artıb. Mədəni irsin bu şəkildə məhv edilməsi erməni mədəniyyətinin bu bölgədən yavaş-yavaş yoxa çıxması deməkdir.Mədəni irsin məhv edilməsi düşmənin tarixini qəsdən silmək üsuludur” dedi Pletz vurğulayıb.





**P.S.** Təəccübləndikmi? Əsla! Qarabağı könüllü tərk edmiş ermənilərin 1 illik ayrılığı ilə bağlı çıxış edən Hollandiya bizi təəccübləndirə bilməz. Çünki 21 dekabr 2004, fevral 2018-ci illərdə saxta erməni soyqırımını rəsmən tanıyıb.

Çünki, 2021-ci ildə Hollandiya parlamenti böyük səs çoxluğu ilə qətnamə qəbul edərək, Azərbaycana hərbi əsirlərin və mülki şəxslərin sərbəst buraxılması üçün təzyiq göstərilməsini tələb etdi.

Qətnamə müəllifləri açıq şəkildə bildirdilər ki, ”Hərbi əsirlər ilə rəftar haqqında” Cenevrə Konvensiyası Ermənistan və Azərbaycanı hərbi əməliyyatlar bitdikdən dərhal sonra onları azad etməyə məcbur edir, lakin Azərbaycan inadla öz öhdəliklərini yerinə yetirməkdən imtina edir.

Bu ilin 13 sentyabrında Niderland hökumətinin saytında dərc edilmiş xarici siyasət proqramında Qarabağ ələ keçirilmiş region kimi təqdim edilib və ”Dağlıq Qarabağ” kimi qeyd edilib.

Amma işğalçı, müstəmləkəçi olduğunu unudan Hollandiya boneyralılar haqqında danışmağı da sevmir , danışanları da. Bu ilin avqustunda Bakıda Hollandiyanın müstəmləkəçiliyi altında olan Boneyra adasına həsr olunmuş beynəlxalq konfrans keçirildi. Tədbir Bakı Təşəbbüs Qrupu (BTQ), həmçinin Boneyra İnsan Hüquqları və Dəyişiklik naminə Hərəkatının birgə təşkilatçılığı ilə baş tutdu. Niderlandlılar isə buranı 1633-cü ildə İspaniyanın Müqəddəs Martini adasını ələ keçirməsinə cavab olaraq işğal ediblər.

Konkret.az-ın məlumatında deyilir ki, Boneyra Niderlandın müstəmləkəçiliyində olan ərazi vahididir:” Karib dənizində, Venesuela sahilindən 90 km şimalda yerləşən adanın ərazisi 288 km?-dir. 2023-cü ilin statistikasına görə, əhali sayı təxminən 24 min nəfər olan adanın rəsmi dili Niderland və Papiamentodur. Zəngin mədəniyyətə malik olan adada yaşayan insanların sayı getdikcə azalır. Buna səbəb Niderland hökumətinin yerli əhaliyə qarşı təzyiqləridir. Adanın bilinən ilk sakinləri eramızdan əvvəl 10-cu əsrdə məskunlaşan Caquetios hinduları olub. Avropalılar sözügedən əraziyə XV əsrin sonlarında ayaq açıblar. Təxminən yüz ildir ki, burada yalnız Cənubi Amerika ölkələrindən sürgün edilmiş mühacirlər yaşayıb. Niderlandlılar isə buranı 1633-cü ildə İspaniyanın Müqəddəs Martini adasını ələ keçirməsinə cavab olaraq işğal ediblər.

Hazırda ada öz müstəqilliyini tələb edir. Hazırda boneyralıların heç bir haqları tanınmır. Ada rəsmiləri eynicinsli nigahların qanuniləşdirilməsinə qarşıdır. Həmçinin yerli əhalidən alınan vergilər Niderlandın dövlət büdcəsinə köçürülür ki, bundan da Boneyra şakinlər narazıdır. Həmçinin onların daha bir şikayəti ana dillərində təhsil ala bilməmələri illə bağlıdır. Ölkə əhalisinin universitetləri belə yoxdur. Onlar müxtəlif ölkələrdə keçirilən konfranslarla dünya ictimaiyyətinin diqqətini öz üzərlərinə cəlb etməyə, bununla da Nidarlandın təzyiqinin azalacağına ümid edirlər”.

**Hollandiyanın bir güzgüsü olsaydı, orada arabir özünə baxardı, kim olduğunu bilərdi.**

**Əntiqə Rəşid**

## Erməni müxalifətinin təklifi rədd edildi: Parlament “artsax” mövzusundan imtina etdi

**Uzun müddətdir ki, Ermənistan müxalifəti parlamentdə özünü buraxmış qondarma ”artsax”la bağlı ”İstintaq - təhqiqat Komissiyası” nın yaradılması ilə bağlı təkliflər səsləndirirlər.**

Adalet.az xəbər verir ki, Qarabağı könüllü tərk edən ermənilərin həyat şəraitinin öyrənilməsi üçün parlamentdə təhqiqat komissiyasının yaradılmasını təklifi birmənalı qarşılanmayıb . Beləki, parlament müxalifətinin təklif etdiyi məsələnin müzakirəsi zamanı ”Mülki müqavilə” fraksiyasının deputatı Hayk Konjoryan çıxış edərək layihənin əleyhinə səs verəcəklərini açıqlayıb. Konjoryanın sözlərinə görə, parlament funksiyaları çərçivəsində müxalifət həmkarlarının sual vermək və onları maraqlandıran bütün məlumatları tapmağa çalışmaq üçün bütün imkanları var.

Qeyd edək ki, müzakirələr zamanı məsələyə 28 deputat isti baxıb, qalan 56 deputat isə əleyhinə çıxıb.

# Ekspert: «...yol qəzalarının sayı azalmaq əvəzinə artacaq»

**Son zamanlar toylarda baş verən avtoqəzaların sayı artmaqda davam edir.**

Maraqlıdır, bunun əsas səbəbi nədir? Doğrudanmı kiminsə xoş günündə belə ”meydangirlik” etmək vacibdir? Qəzaların əsas səbəbi nədir və niyə belə hallar teztez baş verir?

Mövzu ilə bağlı Adalet.az-a açıqlama verən nəqliyyat eksperti Aslan Əsədov bildirib ki, bu kimi yol qəzalarının baş verməsinin bir neçə əsas səbəbi var:



”Ən birinci əsas səbəb toy sahiblərinin toy karvanı təşkil etməsidir. Bu onların istəyi ilə həyata keçirilir. Bu zaman baş verən qəzaların qarşısını almaq üçün toy sahibləri, daha doğru böyüklər, həmin maşınları idarə edən sürücülərə xəbərdarlıq etməlidir, nəsihət verməlidir.

Bunu da qeyd edim ki, toy karvanında əsasən gənclər iştirak edirlər. Onlar qohumlarının və dostlarının xoş gününə sevindiyini yüksək sürətlə maşın sürməklə göstərmək istəyirlər.

Belə olan halda çoxlu sayda qayda pozuntuları qeydə alınır. Ən pis halda isə yol qəzaları baş verir.

Təəssüf hissi ilə qeyd edirəm ki, toy karvanında qəzaya düşən şəxslər arasında ağır yaralananlar, hətta ölənlər olur.

Ümumiyyətlə, nəinki toy karvanını bütün nəqliyyat vasitələrini idarə edən şəxslər bu işin məsuliyyətini anlamalıdırlar.

Əks halda yol qəzalarının sayı azalmaq əvəzinə artacaq”.

**Əntiqə Kərimzadə**

## Luis Almaqro Amerikada oturub erməniləri Qarabağa qaytarmağın xiffətini edir

**Amerika Dövlətləri Təşkilatının baş katibi Luis Almaqro növbəti dəfə ermənisevər olduğunu sərgiləyib.**

Adalet.az xəbər verir ki, Luis Almaqro Qarabağ könüllü tərk etmiş ermənilərin hüquqlarının müdafiəsi komitəsinin üzvü Mario Nalbandyanı qəbul edib. Bu barədə Luis Almaqro özünün X mikrobloqunda məlumat verib:”Mən, Mario Nalbandyanla Dağlıq Qarabağa köçkün düşmüş ermənilərin qaytarılmasının təmin edilməsi, erməni hərbi və siyasi məhbusların azad edilməsi, Azərbaycan tərəfindən Artsaxda erməni mədəni irsinin məhv edilməsinin dayandırılması zərurətini müzakirə etdik”.

Qeyd edək ki, erməni lobbisinin təsiri altında olan Luis Almaqro hələ 44 günlük müharibə zamanı ”canfəşanlığı” ilə seçilib.

**Əntiqə Rəşid**

# Fransalı səfirin "təziyə" paylaşımındakı "incik" çalarlar: Paşinyandan inciyib?

**Fransanın Ermənistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri , azərbaycanofob Olivier Dekotini deyəsən, Türkiyə lideri və Ermənistan baş nazirinin görüşündən bir o qədər məmnun qalmayıb.**

Adalet.az xəbər verir ki, fransalı səfir X- sosial şəbəkə səhifəsində 44 günlük müharibənin 4-cü ildönümü ilə paylaşım edib:

”Dörd il əvvəl, 2020-ci ildə 27 sentyabrda 44 günlük müharibə başladı. Həlak olan əsgərlər, onların ailələri və dostlarının yanındayıq”. Əslində o ”erməni xalqı və Ermənistan dövləti ilə” kəlməsini işlətməli olduğu halda niyə məhz döyüşdə ”ölən əsgərlərin və onların valideynlərinin” adını çəkdiyi bəlli deyil.

Sosial şəbəkə istifadəçiləri isə düşünür ki, Paşinyan ”düşmən”lə (Ərdoğan nəzərdə tutulur- red-ƏR.)dialoqa girdiyi üçün, Fransa Ermənistan hakimiyyətindən inciyib.

**Qeyd edək ki, Oliver Dekotini 2024-cü il mayın 8-də ”Azadlıq” radiosunun erməni xidmətinə verdiyi müsahibəsində də Azərbaycanın guya Ermənistan ərazilərini işğal atlında saxladığını və hücum niyyətində olduğunu iddia etməklə səfir bölgədə planlaşdırdıqları təxribatların anonsunu vermişdi. Dekotininin Azərbaycanın Qarabağ bölgəsindən köçüb getmiş ermənilərin qayıdışı ilə bağlı beynəlxalq instansiyaların guya dəstəyinin olması ilə bağlı sərsəmləməsi isə bizdə qəzəb hissi yaratmışdı. Halbuki hamımıza ağahdır ki, Dekotini Ermənistanın mövqeyini ifadə edir.**

**Əntiqə Aslan**

# İranın İsrail qarşısındakı acizliyi: "Yəhudilərin cin ordusu var..."

**İslamın ən böyük məramı insanları cahillikdən qurtarmaqdır. Müqəddəs Qurani Kərimin də ilk kəlməsi OXU olub.**

Bir çox möminlər də Məhəmməd Peyğəmbərə vəhy olunan ilk ayəni Allah tərəfindən "elm öyrənməyə çağırış" anlamında yozur. Və təəssüf ki, Quran nazil olandan - 610-cu ildən bu günə qədər müsəlman adı daşıyan insanlar, müqəddəs kitabında "oxu" öyüdü olmayan insanlardan fərli olaraq oxumadı, müqəddəs kitabının tələbini yerinə yetirmədi.

Deməli, müsəlman dindarlar, ümumilikdə, müsəlman dininin daşıyıcısı olan ölkə vətəndaşları və yaxud alimləri heç bir inqilabi elmi tərəqqidə imzası olmayıb.

Dünyadakı elmi-texniki yeniliyin ixtiraçıların 70 faizinin müəllifi yəhudilər olub. Məsələn Yohan Qutenberq dünyanın ilk çap maşınını 1440-cü ildə icad edir...Qeyd etdiyim kimi dünyada elmi kəşf və icadların böyük əksəriyyətinin müəllifləri..

Amma yəhidilərin bir neçəsinin bəşəriyyət üçün etdiklərini yazmasaq olmaz. Tarixdə müasir nəzəri fizikanın yaradıcı Albert Eynşteyn, Atom bombasının yaradıcısı Robert Oppenheymer və s.daha minlərlə yəhudi...

1947-ci ildə yaradılan İsrail dövlətinin qüdrəti də hər kəsə məlumdur. 300 illik fars dövləti olan İran 77 yaşlı İsrail qədər güclü deyil. Ötən il İsrail PUA-larının İranın sərhədlərini maneəsiz keçərək böyük çəhərlərdə iri hərbi zavodları partlatması da dediklərimizə misaldır. 83,75 milyon əhalisi olan İran, əhali sayı 9 milyon olan İsrailin qarşısında çıxılmaz vəziyyətə düşüb. Təsəvvür edin, Dəməşqdə iranlı generalların öldürülməsinə cavab olaraq Tehran 365 raket və dronla İsraili vurdu. Amma demək olar ki, bu zərbələrin heç biri hədəfə dəymədi, buna cavab olaraq isə

İsrail İranın Suriyadakı obyektlərini, o cümlədən raket istehsalı bazasını bombaladı, həmdə heç bir raket hədəfdən yayınmadı.

İran dünyada yerlə sürünən imicini müdafiə etmək üçün nəsə deməlidir axı... Nə desə yaxşıdır?

İran özünün müdafiə xəttini ilk öncə dindarlara tapşırdı. Din xadimi, höccətül-islam Müstafa Kərəmi müdafiə nitqi əvəzinə elə



cümlələr işlətdi ki, bu əslində İranı müdafiə etmək yox, yerdən yerə çırpmaq oldu:" İsrail İran və Hizbullaha qarşı casusluq etmək üçün cin ordusundan istifadə edir. Sionistlərin cinləri əsarət altına alma tarixini nəzərə alsaq, cinlər onların gizli ordusudur və bir çox missiyalarını yerinə yetirirlər".

***P.S.* Türklər demiş, Allah sizi kahr etsin, içinizdən bir ağıllı çıxıb deyə bilməzdi ki, "Quran"ımızın tövsiyyə etdiyi kimi oxumadıq, hər "dini saxtakarlığa" imza atdıq, bir dənə elmi texniki tərəqi kəşfinə imza ata bilmədik. Ona görə də, ərəb dünyasının içərisinə yerləşmiş bir ovuc yəhudi ərəblərin də, farsların da anasını ağlatmaqla məşğuldur... Cin ordusu... Kül sizin cahil başınıza...**

**Əntiqə Aslan**

# MDB ölkələri rusdilli məktəblərdən imtina edir, Azərbaycan isə sayını artırır: Bu bizə lazımdır?

**Hələ bir neçə gün əvvəl Rusiya mediası təşvişlə yazdı ki, Özbəkistanda müəllimin rus dilində dərs keçməyi xahiş edən şagirdi döyüb. Millətinə və dilinə vurğun olan müəllimə isə məhkəmə vasitəsilə cəzalandırılıb. Güman ki, cərimələnib , eyni zamanda təhsil sahəsindən vidalaşıb.**

Rusiya onun "qüruru"- dili ilə "zarafat" edənləri bağışlayarmı? Əsla ! Təcili olaraq Rusiya Xarici İşlər Nazirliyi məsələ ilə bağlı Özbəkistanın Moskvadakı diplomatik nümayəndəsinə təqdimatla müraciət edib.Bunu anladıq amma Rusiya XİN. Özbəkistanı uşaq istismarına hüquqi qiymət verməyə çağırmasını hələ də anlaya bilmirik. Bu çağırış əslində, başqa bir ölkənin daxili işlərinə qarışmaqdır.

Ötən həftənin son günü isə Özbəkistanda növbəti "rus dili" qalmaqalı baş verdi. Rusiyadan Özbəkistana köçmüş şagir özbək dilində danışa bilmədiyi üçün döyülüb. Dəqiqləşdirmək mümkün olmasa da, artıq bu hadisələr xalq arasında rusa və rus dilinə başlayan antipatiyadan xəbər verir.

Araşdırmalarımız göstərir ki, 33-34 il əvvəl müstəqillik qazanıb Rusiyadan ayrılan respublikalarda bu hal adi hal olmaqda davam edir. Məsələn hələ 2008-ci ildə Rusiya- Gürcüstan arasındakı Avqust müharibəsindən sonra Gürcüstanda rus dili ilə bağlı geniş hərəkat başladı. Hətta ölkədə vəziyyət o həddə idi ki, turistlər yerli sakinlərdə rus dilində bir söz soruşanda onu cavablamırdılar. Məlumatlarda deyilir ki, ingilis dili bu ölkənin tədris proqramında rus dilini əvəz edir.




Statistik məlumatlarda göstərilir ki, 1988-ci ildə ölkədə bütün fənlərin rusca tədris edildiyi 257 məktəb olub. Gürcüstan rəsmilərinin ötəl il verdiyi məlumatda deyilir ki, hazırda rus dilində təhsilin mümkün olduğu 54 məktəb var. Bu məktəblərdən 11-i tam rus dilindədir. Yerdə qalan 43 məktəbdə gürcü dilli bölmə ilə yanaşı, rusdilli bölmə - rus sektoru fəaliyyət göstərir. Bunlardan 36-sı dövlət, 7-si özəl məktəbdir.

Ermənistanda da sovet dönəmində 170-ə qədər rus məktəbi olduğu deyilirdi. Ermənistan müstəqilliyini qazandıqdan sonra "Ermənistanın dili haqqında" qanununa əsasən, ölkədə yeganə dil erməni dili hesab olundu və rus məktəbləri tədricən azalmağa başladı. İrəvan və regionlarda dərsləri rus dilində aparılan 45 məktəb var.

Yenə də Ermənistan təhsil nazirliyinin məlumatında göstərilir ki, 2020-ci ilə qədər sayı 36 olan rus məktəblərinin 45-ə çatmasına son illər Rusiyadan, Belorusiyadan və Ukraynadan ölkəyə axın edənlər səbəb olub. Məsələn Gümrüdəki rus məktəbi orada yerləşən 102-ci bazanın hərbçilərinin uşaqlarına xidmət edir. bildirilir ki, hazırda rus dili siniflərində 6 min 740-dan çox uşaq təhsil alır, halbuki 2022-ci ilin aprel ayında bu rəqəm 3 min 380 idi.

Yəqin ki, rəqəmlərin belə yüksəlişi erməni təhsil sistemində xoşagələn haq kimi qiymətləndirilməyib. Çünki Ermənistan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin bu ilin sentyabrında verdiyi məlumatda rus dilinin tədricən Respublika məktəblərinin təhsil proqramından çıxarıldığı bildirilir.

Materialda deyilir ki, yeni tədris ilindən etibarən "Rus dili" fənni yalnız dörd il - 4, 9, 10 və 11-ci siniflərdə tədris ediləcək. Qalan şagirdlər üçün belə bir fənn olmayacaq, yalnız "xarici dil 1" və "xarici dil 2" olacaq.

Ermənistan siyasəti gürcü qonşuların "təcrübəsini" təkrarlamaq və Avropaya inteqrasiya yoluna qədəm qoymaq qərarına gəlib. Ölkə KTMT-yə üzvlüyünü dondurub, Paşinyan isə bildirib ki, guya təşkilat milli təhlükəsizliyə təhdid daşıyır.

Və nəhayət yeni bir dost olmayan jest - "fənnin adını dəyişdirmək" bəhanəsi ilə rus dilinin proqramdan tədricən çıxarılması prosesinə artıq start verilib. Güman ki, tezliklə rus məktəblərinin və erməni məktəblərindəki rus sektorlarının sayı minimum endiriləcək.

İndi isə Azərbaycanda rus dilinin "fəaliyyəti"nə baxaq. Hələ ötən il Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov mediaya bildirmişdi ki, MDB məkanında ən çox rusdilli məktəbləri olan ölkələrdən biri Azərbaycandı: Azərbaycanda rus dilində tədris aparılan məktəblərdə təhsil alanların sayı 159 031 nəfərdir. 5 il əvvəl bu rəqəm 90 min idi. Universitetlərin rus bölmələrində 16 min tələbə təhsil alır. 324 orta məktəbdə təhsil rus dilindədir.

Məlumdur ki, Gürcüstan və Ermənistanla müqayisədə Azərbaycanda dövlət büdcəsi hesabına rus dilində tədrisin daha kütəvi olması icmaiyyətdə vaxtaşırı narazılıqlar yaradır. Təhsil ekspertlərinin bir çoxu hansısa mağazada və ya digər xidmət sektorunda işləmək üçün "11 il rus dilində oxumağa" ehtiyac olmadığını vurğulayır. Dövlətin rus dilli təhsil üçünn büdcədən vəsait xərcləməsini mənasız bilirlər. Hətta Azərbaycanda rus dilində tədrisin digər xarici dillərlə müqayisədə daha çox yayılmasını "dövlətçilik üçün təhlükə" görənlər də var.

Beləliklə, Azərbaycan ÜDM və iqtisadi artımda Ermənistan və Gürcüstandan geri qalsa da, bu sahədə, nəinki, bu ölkələri həmçinin MDB ölkələrinin bir çoxunu da geridə qoyub.

Ötən illərdə Qazaxıstanın təhsil naziri Asxat Aymaqambetov məlumat verdi ki, Qazaxıstan yeni tədris ilindən birinci sinif şagirdlərinə rus və ingilis dillərinin tədrisini ləğv edib:"Xüsusi araşdırmaların nəticələri göstərib ki, birinci sinif şagirdləri üçün eyni vaxtda üç dili öyrənmək çətindir. Ona görə də dövlət dilində təhsil alan məktəblərdə dərslərin yalnız qazax dilində aparılması, rusdilli məktəblərdə isə qazax və rus dillərinin tədrisi qərara alınıb.

Bildiyiniz kimi, rus dili Qırğızıstanda rəsmi dil olaraq qalır və əhali arasında demək olar ki, hamı rus dilində danışır. Odur ki, bu ilin fevralında respublika parlamentinin spikeri Nurlanbek Şakiyev bildirib ki, Qırğızıstan məktəblərdə də şagirdlərə ibtidai sinifdən başlayaraq rus dilində deyil, dövlət dilində dərs verilməlidir".

Ötən il Qırğızıstanın parlamenti "Qırğızıstan Respublikasının dövlət dili haqqında" konstitusiya qanununu birinci oxunuşda qəbul etdi və rus dilinin qırğızların dilindən sıxışdırıb çıxarmaq üçün məktəblərdən başlanılmasına qərar verildi. Oxucularımız üçün bildirək ki, Rus dili beynəlxalq dildir. Dünyanın ən vacib dili olaraq qalır. UNESCO beynəlxalq təşkilatının rəsmi məlumatlarına görə, dünyada 2796 dil var və müxtəlif mənbələrə görə 2500-dən 7000-ə qədər rus dili danışanların sayına görə sıxkizinci yerdədir. 258 milyondan çox insan bu dildə danışır.

***P.S.* Bir neçə xarici dil bilmək intellektual insan üçün ən yüksək keyfiyyətlərdən biridir . Məsələn, 300 illik tariximizin Rusiyanın yazdığını bilirik və rus dilindəki materiallar bu dili bilənlər üçün əlçatan olur. Üstəlik rus dili ilə səyahət zamanı insanlarla rahat ünsiyyət qurmaq da mümkündür. Amma rus dilinə aludə olub, Azərbaycan dilini unutmaq, öz doğma dilində danışmağa utanmaq , yeri gəldi, gəlmədi bu dildən istifadə etməyi də düzgün hesab etmirik. Rus dilində mükəmməl bilənlər gələcək karyerasını Rusiyadamı davam etdirəcək? Bəs onda bu can-fəşanlıq nə üçündür? Olmaz ki, ölkəmizdə də rus dili məsələn, ingilis, alman, ərəb, fransız dili kimi xarici dil olaraq öyrənilsin?**

**Əntiqə Rəşid**

# Azərbaycan 2 minə qədər meyit qalığını Ermənistana qaytarıb

**"30 ildən artıqdır ki, itkin düşmüş şəxslər problemi ilə qarşılaşan ölkə kimi Azərbaycan dayanıqlı sülh gətirə biləcək məsələlərin əhəmiyyətini yaxşı bilir".**

Adalet.az xəbər verir ki, bunu xarici işlər nazirinin müavini Fariz Rzayev deyib.

O bildirib ki, beynəlxalq qətnamələr sülh və sülh quruculuğu prosesinin bir hissəsi kimi itkin düşmüş şəxslər probleminin həllini vurğulayır: "Humanitar elementlərin sülh danışıqlarına daxil edilməsi vacibdir. Azərbaycan tərəfindən azad edilmiş ərazilərdə Vətən müharibəsindən sonra qısa müddətdə 18 kütləvi məzarlıq aşkar edilib, azad edilmiş ərazilərdə basdırılan meyit qalıqları qeyri-insani şəraitdə basdırılıb. Bunlar sübutlardır.

Son illərdə itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün Azərbaycan hökuməti lazımi addımları atır. İtkin düşmüş şəxslərin naməlum taleyi barışıq və davamlı sülh üçün maneə ola bilər. Bizim regionda sülhə münasibətimiz heç vaxt qisas üzərində qurulmayıb. Azərbaycan mina partlayışı riski yüksək olmasına baxmayaraq, 2000-ə qədər meyit qalığını Ermənistana qaytarıb".

**Nazir müavini, Ermənistanın bütün mövcud dəfn yerləri barədə məlumatları bölüşməsi üçün çağırış edib.**

# Elman Cəfərli: "Dilin yayğınlaşmasında tv-nin rolu misilsizdir"

**Jurnalist Elman Cəfərli türkdilli xalqların dilini öyrənmək üçün daha uyğun vasitələrin olduğunu söyləyib.**



Adalet.az bildirir ki, o, bu məsələdə daha çox telekanalların rolunu ön plana çəkib:

"Özbək, qazax, qırğız, türkmən dillərinin daha yaxşı başa düşülməsi üçün bu dillərdə filmlər, seriallar Azərbaycan televiziyalarında yayımlanmalıdır. Özbək, qazax, qırğız, türkmən TV-ləri də rus, türk kanalları kimi kabel televiziyalarının menyusuna daxil edilməlidir. Dilin yayğınlaşmasında tv-nin rolu misilsizdir. 90-larda Türkiyənin "Star " kanalı yayımlananda çox sözləri başa düşmürdük. Bu gün Azərbaycanda türkcə danışıq dilini bilməyən yoxdur".

**Əntiqə**

# Çin NATO-ya xəbərdarlıq etdi

Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) Çin haqqında yanlış təsəvvürünü düzəltməli və Asiya-Sakit Okean regionunun işlərinə qarışmamalıdır. Adalet.az xəbər verir ki, bunu Çinin Aİ-dəki diplomatik missiyası NATO-nun baş katibi Mark Ruttenin alyansın Hind-Sakit okean regionunda tərəfdaşları ilə əlaqələrin gücləndirilməsinin zəruriliyi barədə sözlərini şərh edərkən bildirib. "Çin NATO-nu Soyuq Müharibə təfəkküründən əl çəkməyə, Çin haqqında yanlış fikirləri düzəltməyə, Asiya-Sakit Okean regionunun işlərinə qarışmağı dayandırmağa və əksinə deyil, dünya sülhü və sabitliyinə töhfə verən daha çox işlər görməyə çağırır".




Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az


# Bir çiçəyi də çox görürlər...

**Dünyada müəllim adından müqəddəs və şərəfli ad tanımıram. Varsa, deyin, bilək! Əlbəttə, yoxdur. Oktyabrın 5-i Azərbaycan Müəllimlərinin Peşə Bayramıdır.**

**Öncədən bütün müəllimləri təbrik edirəm. Mənə orta məktəbdə dərs demiş ibtidai sinif müəlliməm Həqiqət xanım Rzayevanı və BDU-nun jurnalistika fakültəsinin professoru Cahangir Məmmədlini bu əziz gündə bağrıma basıb öpürəm. Çünki onlar bizim müəllimimiz olmaqla yanaşı, həm də ata-ana münasibəti bəsləyiblər. Və ona görə də yadımızdan çıxmırlar.**

**Yadımızdan çıxmayan həm də dünyasını dəyişmiş müəllimlərimizdir. O müəllimlər ki, bizə adam olmağı öyrətdilər. Yoxsa, biz də başqaları kimi at oynadardıq! Amma son vaxtlar müəllimlərə qarşı cəmiyyətdə bir ədalətsizlik, haqsızlıq var və onun da qarşısı zaman-zaman alınır. Millət vəkili, dostumuz və qardaşımız Aqil Abbasın söylədiyi bir fikir yadıma düşür: "Azərbaycan müəllimləri Milli Qəhrəmandırlar. Çünki onlar az maaşla balalarımıza elm və tərbiyə verir, uşaqlarımızın hər bir dəcəlliyinə dözürlər".**

**Bax Azərbaycan müəllimi belə bir ürək sahibidir. Bu böyük ürək sahiblərinə müəllim günündə bir dəstə gül, çiçək verməyi də çox görürlər. Başqa sənət, peşə sahiblərinə hər cür hədiyyə, nə bilim, hansısa bahalı hədiyyə vermək olar, amma müəllimə olmaz?! Bir müəllimə şagird gül dəstəsi verəndə bütün ölkə bundan danışır. Ancaq bir milyon rüşvət alanın adını çəkən yoxdur. Heç olmayacaq da! Çünki onlar müəllim deyil! Siz Allah, göy üzü kimi təmiz, bulaq suyu kimi duru olan müəllimləri rahat buraxın və onlara kiminsə hədiyyəsi də lazım deyil.**

**Müəllimin hədiyyəsini Allah verib və Ulu Yaradan həmişə müəllimləri qoruyub. Nə isə... Elə bil ki, çox nala-mıxa vurdum! Bu əziz gündə 50 ilə yaxın müəllim işləmiş, onun 30 ilini məktəb direktoru olmuş, Prezident Təqaüdçüsü, "Cümhuriyyətin 100 illiyi" medalına layiq görülmüş dostum və qardaşım Səməndər Məmmədovu və qızım Telli İsmayılovanı da təbrik edirəm! Ən sonda üzümü insanlara tutub deyirəm: Azərbaycan müəllimlərini sevək və qoruyaq! Çünki onlar bizim övladlarımızın, nəvələrimizin yolunda işıq yandırırlar.**

**O uşaqlarsa, bu işığın ardınca gedirlər. Yolumuzu işıqlandıran Azərbaycan müəllimləri, yolunuz işıqlı olsun!!!**

# Bu halda pensiyalar sürətlə arta bilər



**Qeyri-dövlət (özəl) pensiya fondlarının yaradılması ilə bağlı 20-dən çox normativ hüquqi akt layihəsi hazırlanır. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıqlama yayıb. Bəs, özəl pensiya fondlarının yaradılması vətəndaşlara nə vəd edir?**

Adalet.az-ın məlumatına görə, deputat Vüqar Bayramov bununla bağlı bildirib ki, əksər inkişaf etmiş dövlətlərdə vətəndaşlar özəl pensiya fondlarından çox sıx şəkildə istifadə edirlər.

Onun sözlərinə görə, özəl pensiya fondu imkan verir ki, vətəndaşlar pensiya yaşına çatdıqda yalnız dövlətdən deyil, özəl fonddan da pensiya ala bilsin: "Bu da təbii ki, pensiya məbləğinin artmasına gətirib çıxarır. Oxşar praktikanın Azərbaycanda tətbiq edilməsi məqsədəuyğundur. Özəl pensiya fondu yaradılarsa, vətəndaş pensiyaya çıxan zaman əgər onun pensiya məbləği 500 manatdırsa, özəl pensiya fonduna ödədiyi ödənişlər nəticəsində əlavə olaraq məsələn, 300 manat almaq imkanı qazanacaq.

Təbii ki, özəl fonddan ödənilən pensiya məbləği birbaşa yığımlardan asılı olacaq. Bu zaman daha çox yığım daha çox pensiya məbləği demək olacaq.

Bununla yanaşı, özəl pensiya fondunun etibarlılığı çox önəmlidir. Çünki belə pensiya fondları yaranarsa, vəsaitlər manatla yığılacaq və onun idarə edilməsi həyata keçiriləcək. Ona görə burada ilkin kapitalın formalaşdırılması, etibarlılığın artırılması önəm daşıyır.

Bu baxımdan, özəl pensiya fondları yaradıldıqdan sonra orada yığılan vəsaitlərin indeksasiyasının həyata keçirilməsi və valyuta risklərinin sığortalanması məqsədəuyğun olardı. Ona görə də mexanizmin daha təkmil şəkildə hazırlanıb təqdim edilməsi vacibdir".



**Qeyd edək ki, pensiya təminatının özəl fondlar vasitəsilə həyata keçirilməsi dünyada geniş yayılan bir praktikadır. Hazırda Almaniya, Böyük Britaniya, İrlandiya, Türkiyə və s. ölkələrdə belə fondlar fəaliyyət göstərir.**

**Nicat NOVRUZOĞLU**

## Bakı şəhər İcra Hakimiyyətinin qərarı...



**Dünyanın bütün böyük şəhərlərində küçə ticarəti mövcuddur.**

Çox uzağa getməyək, qardaş Türkiyənin İstanbul şəhərində bu gün də küçə ticarəti var. Və burda heç bir qəbahət yoxdur. Gündüz səhər saatlarından gecəyə qədər İstanbulun bütün küçələrində şıdırğı alış- veriş gedir.Gecə saatlarında satış başa çatandan sonra Şəhər Bələdiyyəsinin təmizlik işlərinə baxan əməkdaşları bürün prospekt və küçələrdəki tullantıları, zibilləri təmizləyir, həmin yerləri dezinfeksiya edirlər. Artıq şəhər səhər saatlarında gül kimi olur. Bax, bu təcrübə Bakı da geniş yayılmalıdır.

Amma 30 il bundan əvvəl Bakı Şəhər İcra Hakimiyyətinin qərarı ilə küçə ticarəti qadağan edilib. Və bundan sonra paytaxtda icra orqanları bu qərarı yerinə yetirir, küçə ticarətinə imkan vermir. Bu gün ölkəmizdə işsizlərin də sayı az deyil və adamlar dolanışıq üçün küçədə alver edirlər.Həmin qərarı əldə rəhbər tutan vəzifə sahibləri ya onlardan pul alır, pul verməyəndə isə beləlırini qovurlar. Ona görə də Bakı Şəhər İcra Hakimiyyətinin küçə ticarətinin ləğv etməklə bağlı qərarı ləğv edilməli, bütün yerlərdə həmin insanlara şərait yaradılmalıdır.

Tullantılar və zibillər isə Mənzil Təsərrüfatı Birliyinin əməkdaşları tərəfindən daşınmalıdır. Bu pulları isə ticarətlə məşğul olan şəxslər ödəməlidir. Ümumiyyətlə, qeyd etdiyimiz sahədə hansı bürokratik əngəllər varsa, hamısı aradan qaldırılmalıdır!

## Metro düzəlmir ki, düzəlmir...



**Hər gün düşünür ki, metronun stansiyalarında sıxlıq tezliklə aradan qaldırılacaq.**

Amma günlər , aylar, illər ötür metroda vəziyyəti yaxşılaşmır, əksinə durum bir qədər də çətinləşir. Səhər , günorta və axşam saatlarında bir qayda olaraq metro qatarlarında sıxlıq yaşanır.

Sentyabrın 30- da günorta saat 13: 30- da sərnişin sıxlığından metronun " Elmlər akademiyası" stansiyasına düşmək mümkün deyildi. Ona görə də əksər sərnişinlər giriş qapısında qalmış və stansiyaya düşə bilmirdi.Metropolitenin sözçüsü isə deyir ki, biz sıxlığı aradan qaldırmaq üçün bütün tədbirləri görürük. Əsl vəziyyətdə, göz qabağındadır.

Nə vaxta qədər ki, yeni xətlər salınmayıb və yeni stansiyalar inşa edilməyib vəziyyət elə belə də çətin durumda qalacaq.Gərən 20 il bundan əvvəl bu barədə düşünmək lazım idi. İndi isə, ancaq özümüzü aldadırıq!

## Sükan arxasında əyləşmiş hər adam...



**Elə bir gün yoxdur ki, ölkəmizdə yol-nəqliyyat hadisəsi baş verməsin və bu zaman ölən və xəsarət alan olmasın.**

Bu , o deməkdir ki, hələ də çoxlu sayda yol hərəkəti qaydalarına əməl etməyən sürücülər var. Bəs bu sürücülər niyə qanunlara əməl etmir və məsuliyyətsiz hərəkət edirlər? Görünür, hələ də aramızda bu cür sürücülər az deyil. Və bir də sükan arxasında olan hər adama sürücü demək olmaz.Düzdür, onların sürücülük vəsiqəsi də var, amma belələrinin sadəcə olaraq məsuliyyətləri yoxdur.

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru Elvin Hacıyev deyir ki, hər bir sürücü sükan arxasına əyləşən kimi, məsuliyyəti hiss etməli, birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etməlidir. Əgər sürücülər də, daxil olmaqla bütün hərəkət iştirakçıları qanunlara riayət etsələr, çoxlu sayda yol-nəqliyyat hadisələri baş verməz, ölüm və xəsarət halları artmaz!

## Meymun çiçəyi...



**Az qala biz hər gün yeni bir xəstəliyin adın eşidirik.**

Burda qəribə heç nə yoxdu. Qəribəsi odur ki, mənşəyi bilinməyən və müalicəsi olmayan xəstəliklə təbiət bizi sınağa çəkir. Əlbəttə, belə virusların yayılması insanları daha məsuliyyətli olmağa və sanitar- gigiyenik qaydalara əməl etməyə sövq edir.

Koronavirusun öhdəsindən gəlməyi bacardıq. İndisə meymun çiçəyindən söhbət açılır. Və nə yaxşı ki, hələ ölkəmizdə bu xəstəliyə yoluxan yoxdur. Bunun əsas səbəblərindən biri də quru sərhədlərimizin bağlı olmasıdır. Üstəlik də TƏBİB- dən bildirilir ki, Hava Limanında ölkəmiz gələn hər bir insan diqqət mərkəzində olur. Xəstəliyi olan insanlar ciddi yoxlanılır. Ona görə də bu günə kimi ölkəmizdə meymun çiçəyinə yoluxmuş hər hansı xarici və ölkə vətəndaşları aşkar edilməyib. Və xəstəliyə qarşı bütün qabaqlayıcı tədbirlər görülür!

## Qışa hazırlıq



**Qış gəlməmişdən öncə bütün xidmət sahələri bəyan edir ki, biz qışa tam hazırıq.**

Elə soyuqlar düşür, qar yağır və möhkəm şaxta düşür, bax onda görürsən ki, qaz zəif gəlir, işıqlar tez- tez sönür, istilikdə evi qızdırmır. Əhaliyə yağlı vəd deyil, soyuq havalarda yüksək xidmət lazımdır. Bu xidmət də Bakıda qış aylarında yetərincə olmur.Ona görə də hələ qışa xeyli vaxt var. Oktyabr, noyabr aylarında adını çəkdiyimiz xidmət sahələri təmir işlərini başa çatdırmalıdır.

Yoxsa, qış qapını alanda əl- ayağa düşməyə ehtiyac qalmaz. Bir də görürsən ki, " Azəristiliktəchizat" soyuq qış günlərində sıradan çıxmış istilik xəttini təmir edir. Həmin günlər isə yaşayış binasına istilik verilmir, camaat soyuqdan əziyyət çəkir.

Bax belə halların olmaması üçün ona görə də bütün təmir işləri vaxtında həyata keçirilməlidir. Bir sözlə, " Azərişıq", " Azəriqaz" və eləcə də " Azəristiliktəchizat" üzərinə düşən vəzifəni vaxtında yerinə yetirməlidir!

## İş adamlarını çox incidirlər...



**Bu gün bir çox sahibkarlar dövlət orqanlarının, xidmət sahələrinin ədalətsiz fəaliyyətindən narazılıq edirlər.**

Çünki sahibkarlar dövlətə olan vergini, sosial fonda ödənişləri vaxtında ödəsələr də müəyyən qurumlar onlardan əl çəkmir, nəsə umur və bunu etməyəndə o iş adamlarını çək- çevirə salırlar. Bu, isə həmin insanların narazılığına səbəb olur.

Əgər bir sahibkar dövlətin vergisini vaxtında ödəyirsə, sosial fonda davamlı olaraq ödəmələr edirsə, bəs aidiyyatı qurumlar niyə onları incidir. Dünyanın hər yerində dediyimiz ödəmələr veriləndən sonra iş adamlarına heç kəs " gözün üstə qaşın var"- deyə bilməz.

Amma bizdə bu işə aidiyyatı olmayan çoxlu sayda qurumlar, sahibkarlıq fəaliyyətinə müdaxilə edir, onları incidir və dövlətdən narazı salır.Bax bunların qarşısı alınsa, sahibkarlar da rahat nəfəs alar, əl- qolları açılar!

**EMİL FAİQOĞLU**



# Azərbaycan heykəltaraşları: Ermənilər əxlaqsızları "ilahi"ləşdirir, bizimkilər tarixi şəxsiyyətləri cılızlaşdırır

**Nə yaxşı ki, sosial şəbəkələr yaranıb, nə yxşı ki, buradan istifadə edərək özümüzün özümüzə vurduğumuz zərbələri müqayisə etmək imkanına malikik.**

Son günlər sosial şəbəkələrdə ermənilərin səhifəsi çox aktivləşib. Xüsusən, özlərindən icad etdikləri "qədim erməni tarixi və şəxsiyyətləri" ilə bağlı məlumatlar paylaşılan səhifələr artıb. Əvvəllər bu toplumun paylaşımlarına gülüb keçirdim. Çünki bir jurnalist, tarixi kifayət qədər bilən biri kimi anlayırdım ki, hamısı yalandır.

Bir gün canımı dişimə tutub, bunların "qədim tarix"ləri və "qəhrəmanlar"ı ilə bağlı paylaşımını araşdırmağa başladım. İlk qarşıma çıxan Hayk adlı "qəhrəman" a 1970-ci ildə İrəvanda qoyulan heykəl oldu. Tarixdə izi- tozu olmayan, yalnız ermənilərin xəyal məhsulundan ibarət olan Hayk o qədər "güclü və qüdrətli" olub ki, guya hansısa kralın ordusunu məhv edib və xalqını yadellilərdən xilas edib. Guya yer üzünə yayılan elə bu Haykın nəvələri olan haylardır.

Hətta dünyanı öz yalanlarına inandırmaq üçün bu nağılın müəllifi kimi mövcudluğu şübhəli olan erməni tarixçi Movses Xorenatsi adı altında dünyaya çatdırırlar.

Əgər soruşsanız ki, o vaxt (1965-80-ci illər) bizimkilər Bakıda hansı heykəlləri ucaldırdılar, sıra ilə deyək: 26 Bakı komissarının (1968), Nəriman Nərimanovun (1972), Stepan Şahumyanın (1975) Məşədi Əzizbəyovun (1976), Karl Marksın (1980) Prokofi Caparidzenin (1980) heykəlləri Bakını bəzəməyə başladı.

Halbuki, hələ b.e.ə.V əsrdə yaşamış qədim yunan tarixçi və coğrafiyaçı alimi Herodotun (b.e.ə.484-425) "Tarix" əsərində indiki Azərbaycan ərazisində Araks(Araz) çayının ətrafında yaşayan xalqları "Massagetlər" adlandırırdı.

Herodot onları oxla, qılıncla, nizə ilə silahlanmış döyüşkən xalq kimi təsvir etmişdi.

Massagetlərin qadın sərkərdəsi Tomris Xatunun Əhəminilər hökmdarı II Kiri məğlub etməsi və onu öldürməsini öz "Tarix" kitabında geniş təsvir edib.

Təəssüflə qeyd edim ki, bu günə qədər bəşəriyyətdə ilk qüdrətli sərkərdə qadın kimi tarixə yazılan Tomrisin Bakıda bir heykəli olmadı, nə də onun haqqında bir məlumatlandırıcı film istehsal edilmədi. Elə ondan sonra döyüş tariximizə adını yazdıran Azərbaycanlı qadınların da Bakıda bir heykəlinə rast gəlmədik. Azərbaycan qadını deyiləndə bu 3 məzlum qadınmı xatırlanmalıdır?

Yəqin ki, bilirsiniz:XIII əsrin əvvəllərində Xarəzmşah Cəlaləddinin Azərbaycana təcavüzü zamanı Atabəylər dövlətinin sonuncu hökmdarı Müzəffərəddin Özbək Əlincə qalasına qaçıb. Onun Təbrizdə qalan arvadı Mehrican xatun 1225-ci ildə təbrizli Şəmsəddinlə birlikdə Təbriz, Xoy, Naxçıvanın işğaldan azad olunmasında igidliklə vuruşub, böyük hünər göstərib.

Atabəy Şəmsəddin Eldəgizin xanımı, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anası Möminə xatun ərinin və oğlanlarının hakimiyyətləri dövründə böyük siyasi nüfuza malik olub və vəfatından sonra onun şərəfinə türbə ucaldılıb. Hanı, Azərbaycanın və Şərqin dövlətçilik tarixində ilk xanım diplomatı Sara Xatunun heykəli?

Daha sonra, 1776-cı ildə Dərbənd şəhərini idarə etmək Quba xanı Fətəli xanın arvadı Tuti Bikəyə tapşırılıb. O, ərinin döyüşdə öldürülməsi barədə şayiələrə inanmayaraq şəhəri sonadək müdafiə edib, 9 ay düşməni Dərbəndə yaxın buraxmayıb. Qaçaq Nəbinin ömür-gün yoldaşı Həcər əlində silah 25 ildən artıq at belində zalımlara qarşı döyüşüb.

Bəs, hanı Böyük Vətən Müharibəsində şüçaətləri ilə SSRİ-ni mat qoyan ilk qadın təyyarəçi, aviasiya mayoru Leyla Məmmədbəyovanın, müharibəyə döyüş təyyarəsi ilə qatılan ilk qadın pilotumuz Züleyxa Seyidməmmədovanın, ilk qadın snayperimiz Ziba Qəniyevanın və başqa igid xanımlarımızın heykəlləri?



Amma Ermənistanın paytaxtı İrəvanda SSRİ-nin Böyük Vətən Müharibəsində qazandığı qələbənin xatirəsinə 1967-ci ildə, 22 metr hündürlükdə "Anam Ermənistan" memorial abidəsi ucaldılıb. Baxmayaraq ki, antik yazar Strabon ermənilərin mənəvi anası fahişəliyin ilk ilahəsi adlandırdığı Anahid olsa da bu heykəllə dünyadakı bir çox insanların beyninə "qüdrətli erməni qadını" imici ilə girməyi bacarıblar.

Doqquzuncu əsrdə ərəb Xilafətinə qarşı 20 il döyüşmüş Babək Xürrəmdin heykəlinə rast gəlməmişik. Prezident İlham Əliyev 2011-ci ildə Bakıda görkəmli Azərbaycan sərkərdəsi Babəkin abidəsinin ucaldılması haqqında sərəncam imzalasa da heykəldən düz 13 ildir ki, səs-soraq yoxdur.

Amma "Sasunlu David" adlı orta əsr erməni dastanı var, onun əsas personajı olan Davidə İrəvanın mərkəzində elə bir heykəl ucaldılıb ki, sanki doğrudan da ermənilərdə belə "qəhrəman" olub. Onu da deyim ki, nağılbaz ermənilər bu dastanı ilk dəfə 1873-cü ildə "üzə çıxarıb. Amma, guya ki, Sasunlu Davit hələ eramızdan əvvəl var imiş.

Gerçəkliklə heç bir əlaqəsi olmayan dastan da, ərəb işğalçılarını Ermənistandan "qovduğu" deyilən bu personaj "qəhrəmanı" da xalq ədəbiyyatı tədqiqatçısı Qaregin Srvandztyants tərəfindən Arnist kəndində yaşayan Krpo adlı bir kəndlindən qeydə alındığı deyilir. Amma gəl, bu uydurma personajın 1959-cu ildə İrəvanın əsas meydanında qoyulan heykəlinə bax! 2012-ci ildə Azərbaycan xalq qəhrəmanı Koroğluya qoyulan heykəldən daha əzəmətli!

Bəs, Qafqaz Albaniyasının hökmdarlarından biri, həmçinin Mehranilər sülaləsinin ən məşhur nümayəndəsi olmuş , Bərdəni özünə paytaxt etmiş Cavanşirin hazırkı paytaxtda bir heykəli varmı? Təəssüf ki, yoxdur.

Paytaxtda bir heykəl var ki, hər dəfə onun həndəverindən keçəndə utandığımdan başımı qaldırıb heykələ baxmıram. Azərbaycan Səfəvilər dövlətinin banisi, Azərbaycan torpaqlarını birləşdirmiş, mərkəzləşdirilmiş Azərbaycan dövlətini yaratmış şəxsiyyət, böyük sərkərdə Şah İsmayıl Xətainin Bakıda 1993-cü ildə heykəli ucaldılıb.

Azərbaycan türkcəsini Hindistandan Bağdada qədər yayan, qurduğu dövlət dilini türk dili elan edən vətənpərvər bir təəssübkeşin heykəl yeri də Yusif Səfərov küçəsində Leyla Şıxlinskayanın klinikası ilə Mərkəzi Neftçilər Xəstəxanasının arasındakı ərazidədir.

Bakının görkəmli bir yerində yox, məhz 2 xəstəxananın arasında. Bunu keçdik. Bilmirəm, 14 yaşından hökmdar olan 14 ildə atın üstündə, əlində qılınc döyüş meydanlarında qələbə çalan bir cahangirin heykəli niyə at üstündə deyil, kürsüdə ucaldılıb?Qılıncı da dizinin üstündə.Özü isə bitmiş- tükənmiş bir vəziyyətdə! Yəni, ömrünü bolşeviklərin güclənməsinə sərf etmiş Nəriman Nərimanov qədər dəyərli olmadımı bu böyük şəxsiyyət?

Muğamlarımızı "erməni milli musiqisi" kimi tanıdan bəstəkar Aram Xaçaturyanın İrəvanın mərkəzində, 1999-cu ildə qoyulmuş heykəli bizim Şah İsmayıl Xətaiyə qoyduğumuz heykəldən, turistlərin gözü ilə baxsaq, daha mükəmməldir və izzətə layiqdir.

Hələlik, oxucularımız üçün bu qədər araşdırma apara bildik. Çünki, araşdırmamız zamanı o qədər təzadlı məqamlara rast gəldik ki, bunun üçündən bu məqalənin davamı mütləq olmalıdır.

***P.S. Bütün bunlara rəğmən, təsəllimiz var: Xalq qəhrəmanı Koroğlunun, Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin və əfsanəvi sərkərdə Cavanşirin at üstündə heykəlləri Xaçmaz şəhərinin ən diqqətçəkən ərazilərində ucaldılıb. Kaş ki, belə abidələr paytaxtda da ucaldılaydı.***

**Əntiqə Rəşid**

---

*Əntiqə KƏRİMZADƏ*



# "Sözün ürəyindən öpən adam"

***Bahar qaranquşundan, uca dağlar qarından, şairlər işə şeirindən bəlli olar. Məncə, söz adamlarının cismi heç vaxt torpaq üzərində dayanmır. Sadəcə onlar cazibə nəticəsində " torpağa birləşirlər". "Aldatmaq" şair üçün axı nədir ki?***

***- Düşünürəm ki, bir ovuc su içmək qədər "asandır". Məsələn, haqqında danışacağım müsair poeziyamızın dəyərli qələm sahiblərinən biri Vasif Qurbanzadə qəlbi şeir dadmaq istəyən oxucuya deyir ki, "səni sevmək, yaşamaqdır" Əslində bu sözlər gözləri yolda qalan və daim söz axtaran oxucu üçün tapıntı olur. Nə xoş həmin oxucunun halına ki sözə belə "aldanır". Bəlkə də aldanmır, kəşf edir ya tapır ya da itirir. Tapdığı əsl poeziya, itirdiyi isə "bir salam"dan asılı olduğu qələm dostları olur. Düşünürəm ki, oxucu şeiri sevəndə poeziya şairi gözəlləşdirir. Amma oxucu həm şeiri, həm də şairi sevəndə poeziya həmin şairi möhtəşəmləşdirir.***

***titrəyib,***
***bürünərsən çiynindəki şala,***
***sinəmə sığınmaq gəlməz ağlına***

***İnsan hislərinin şəklin çəkmək şairin qələminin mükəmməlliyindən xəbər verir. Amma o xəbəri özünə çatmağa icazə verməyən şairlər həmişə yüksəkdə olduqlarının fərqinə varmırlar. Çünki onlar üçün poeziya bəşəriləşir. Həmin yaradılmışlar dünyanın faniliyini dərk etməyi yüksəklərlə qürrələnməkdən üstün tuturlar. Vasif Qurbanzadə də musair ədəbi nəslin belə nümayəndələrindən biridir.***

***Deyin, necə olsun tabım,***
***Özümə çatmır xitabım,***
***Mənim də ömür kitabım.***
***O evdə bükülü qalıb.***

***Şairlərin aruzları gözlərində yox, şeirlərində qalır. Vasif Qurbanzadənin öz təbi ilə desək, o evdə bükülü qalan ömür kitabını isə param-parça olmuş vətənindən boylanan xatirələri küləklər şəhəri vərəqləyir . Ancaq onun bu qəmgin notda yazılmış şeirləri düşünürəm ki, şairin "arxiv ədəbiyyatı" olacaq. Çünki qəlbi doğulduğu torpağa bağlı olan bir söz adamı üçün azad olunmuş ata yurdunda rahat gəzməyi İlahi mükfatdır.***

***Arxamca baxma dünya,***
***Səni buraxıb gedirəm.***
***Hər kəs səndən bir şey aldı,***
***Mən sənə baxıb gedirəm***

***Elə gedişlər var ki, salamsız gələn min gəlişdən möhtəşəmdir. Hansı ki yaddaşlarda qalan gedişdir, o gediş. Məncə dəyərlilərin "əlvidası" belə möhtəşəm olur. Bəlkə də bir ömür insanın gözünü yollarda qoyur bu gediş, amma möhtəşəm olur. Çünki unudulmur. Unudula bilmir. Şeirdə deyildiyi kimi;- "mən sənə baxıb gedirəm". Ən böyük pay isə bu dünyaya baxıb getməkdi.***

***İldırım dirijor,***
***Buludlar yağışı ifa edir.***
***...sən də mənim ifamda səslənirsən!***

***Burda bir addim "geri çəkilmək" mütləqdi. Sükut... Duymaq... Birdə sonu və başlanğıcı olmayan yaşamaq... Ən böyük sevgilərin son ünvanı buludlardır.***

***Soyuq sifətində əlim,***
***Etdik yolumuzu yarı.***
***Mənim əlim isinmirsə,***
***İsinər dünyanın bağrı?***

***Əslində hər bir insan içindəki kədərin varlığını özü dərk edə bilmir. Heç kədər də deməzdim. Sadəcə insan bəzən nə arzularından xəbərsiz olur.***

***Dünyadakı ən böyük varımda sən,***
***Həyatdakı ən böyük əksiyimdə sən...***
***Sən... Sən... Sən...***
***Heç nəyim tam olmur sən tam olmadan...***
***AZƏRBAYCAN!!!***

***Bəli, heç vaxt itirməyəcəyimiz azalmayan nemət, tükənməyən sərvət məhz vətəndir.Vücuduna sığmayan vətən sevgisini bircə "SƏN"də cəm etmək sözü böyüklərin "əl işidir".***

***SÖZünüz qəlblərə ərməğandır, sözün ürəyindən öpən adam!***



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Qapısını açıq saxla ümidin...

Bütün hallarda insanı yönəldən, onun məramını, məqsədini diri tutan, ayaqda saxlayan daxili inamdı, yəni Ümiddi. Bu mənada səninlə üz-üzə dayanan, səni bərkə-boşa çəkən, bəzən haqlı, bəzən haqsız qınayan hər kəsin içində həmin o Ümid onun öz istəyinə, öz daxili aurasına görə formalaşır. Yəni kim necədirsə, əxlaqı, dünyagörüşü, mənəviyyatı hansı nüanslarla cilalanıbsa elə Ümidi də ona bab gəlir, onun oxşarı, lap bir az da kobud desəm tayı olur.

Çox təəssüf ki, bəzən bu ölçülər bir-birinə elə sarmaşıq kimi sarılır ki, dayanıb təəccüb etməkdən, təəssüf etməkdən başqa əlindən heç nə gəlmir. Deməli, Allahın yaratdığı bəndə özünün içində yaratdığı ilə bir harmoniya təşkil edir və sonda da əlini dizinə çırpıb gileylənməyə üzü də qalmır. Nə isə

Gerçək olan budur ki, normal, müsbət auralı Allah bəndəsi hər yerdə və hər zaman işıq kimi, nur kimi görünür, duyulur, hiss edilir.

Ona görə də həmin adamların alnı qırışanda, gözlərinə bulud gələndə çevrədəkilər dərhal duyurlar, hiss edirlər. Ona təsəlli verməyə can atırlar. Hətta yol göstərib məsləhətlərini də əsirgəmirlər.

Burda da bir səbəb var. O da həmin insanın haqq etdiyi və Allahın da ona mükafat olaraq alın yazısında işarələdiyi işıq olmaq qismətidi. Məhz həmin o qismət onun Ümidə doğru gedən yoluna da işıq salır. Nəticədə tarazlıq yaranır. ,.

Mən bu fikirləri bilgisayara bir az qarmaqarışıq, xaotik şəkildə diktə elədim. Çünki yazımı başqa aurada yazmağa köklənmişdim özümü.

Lakin bir an içimdə elə bilgisayar yazarının özünün də əhvalında qanqaraçılıq yarandı. Necə deyərlər, bir milçək bir könül bulandırdı. Nəticədə fikir haçalandı. Sözlər pərən-pərən düşdü. Elə o zaman kəsiyində dilimin ucundan "nə isə" fikiri uçub getdi. Demək səbrimi cilovlamaq, sözümün əvvəlinə qayıtmaq üçün bir pauza etmək istəyi özünü büruzə verdi.

Mən də həmin istəkdən sonra yenidən qayıtdım fikirlərimin başlanğıcına

Bu, bir həqiqətdir ki, insan ümidlə yaşayır. Ona görə də min illərin bir deyimi hər zaman təkrarlanır. O fikiri kimin ifadə etdiyini, kimin ilk dəfə dediyini bilmirəm.

Amma bu gün bildiyim odur ki, "Sonuncu ölən ümiddi!". Bax, elə mənim də istəyim, məramım, lap açığı can atdığım həmin o pir bildiym, and yeri bildiyim Ümid yeridi, Ümid evidi, Ümid ocağıdı. Bütün varlığımla o yerə, o evə, o ocağa pərvanəyəm. Bilirəm ki, qanadları güclü, qaməti şax olan sevginin Ümidi də dəyanətlidi, güclüdü və o, insanın ruhunu da, ürəyini də özü ilə çəkib aparır, götürüb gedir öz evinə, öz yerinə, öz ocağına. Bax, bu məqamda özün də hiss etmədən bütün yaşantılarını gözünün önündən keçirirsən.

Ağrıları da, intihar cəhdini da, sevindiyin məqamı da, hətta gördüyün yuxunu da təkrar çözürsən.

Düşünürsən ki, bütün bunlar sənin Ümidlə arandakı məsafəni qısaldacaq. Sənin dözümün, inadın, Ümidin əlini sənə tərəf bir az da uzadacaq. Nəhayətdə sən rolunu tamaşaçısız oynayan aktyor kimi çətin duruma düşməyəcəksən. Sənin tamaşaçın Ümid olacaq səni səsləyən Ümid. Elə bu məqamın da içindəkilər sözə çevriləcək, şeir olacaq:

*Qəflətən bir udum su -*
*kəsdi nəfəs yolunu...*
*Ölüm səhnəsidi bu -*
*O, oynayır rolunu -*
*Alqışsız...*

*Tamaşa bir pərdəli...*
*Mövzu isə intihar...*
*Baş qəhrəman bir dəli -*
*coşar, özün unudar -*
*Alqışsız...*

*Həsrətin dırnaqları*
*qartal caynağından sərt...*
*Çək köhnə qarmaqları -*
*Ürəyi bir yolluq çərt -*
*Alqışsız!..*

*Əlində quru ləçək*
*Yaşı on il əvvəl on!..*
*Səhnəyə atdın əlcək -*
*Pərdə enir...bu da SON!..*
*Alqışlar...*

Bəli, heç bir alqışa ehtiyac duymasam da, gerçəklik özü səni o alqışlara bükəcək, kipriklərini yaşa bükdüyü kimi, yanaqlarını təbəssümə bükdüyü kimi. Bir də görəcəksən ki, sənin dünyan öz rəngarəngliyi ilə, öz istisi ilə nə qədər doğmadı və sənin dünyanda sənin qonağın da, sığındığın da, oxşadığın, baxışlarınla öpdüyün o varlıq həm də sənin Ümidindi.

Sən onun külək dağıdan saçını küləyin əlindən almaq üçün az qala təbiətə, yəni küləyə üsyan etməyə də hazır olursan. İstəmirsən ki, sənin baxışından, sənin nəfəsindən başqa ona toxunan, onu seyr edən, onu oxşayan başqa bir nəfəs, başqa bir nəsə olsun.

Bu, nə qısqanclıqdı, nə xudbəsənlik, nə də özündən razılıq. Bu heç bədgümanlıq da deyil. Yəni Ümidə güvənin, inamın yerdən göyə qədərdir. Onun barəsində yalnız yaxşı, gözəl nə varsa onları düşünüb və onları Ümidə aid edirsən. Ancaq nə edəsən ki, bir aşiq dəliliyi də var. Bax, küləklə vuruşmaq istəyən də, gözləri ilə saçını sığallayan da, baxışları ilə üz-gözündən öpən də həmin o dəli aşiqdi. Deməli, bu dəliliyi də hər gün alovlandıran, onu hər gün yenidən dünyaya gətirən, mənim inancıma və məntiqimə görə təbii ki, Ümiddi. Deyə bilərsiniz ki, Ümid elə belə yaranmır. Onu kimsə nə iləsə, necəsə ortaya qoyur, ona stimul verir. Müəyyən mənada sizinlə razıyam.

Çünki hətta qarşılıqsız sevgi də ümid yaradır. Çünki sevdiyin var. Onun yerişi, duruşu, varlığı, lap deyək dönüb sənə ötəri baxmağı da Ümiddi. Elə bu qarşılıqlı və qarşılıqsız məqamların bəhrəsi olan Ümid də özü-özlüyündə yeni xəyalların, yeni düşüncələrin, yeni pıçıltıların rüşeyminə çevrilərək həmin o dəli aşiqi yerlə, göylə, dörd divarla, ağacla, güllə, bir sözlə, hamı ilə və hər kəs ilə elə özünü özünlə də həmsöhbət edir.

O məqama, o ana qədər ki, sən Ümid qığılcımı görürsən və onda:

*Bir ocaq közərir, bir tüstü qalxır*
*Köklənib diqqətim baş verənlərə...*
*Ürəyim susaraq kənardan baxır -*
*Qəmin divarına, daş verənlərə!..*

*Titrədir ruhumu həzin bir avaz,*
*Gözümün kökündə sular lillənir...*
*Kədərim dərindi, ümidim dayaz -*
*Dilim tərpənməmiş ağrı dillənir...*

*Baxıb, vərəq- vərəq yaddaş dəftərin,*
*Kiprik ucu ilə sığallayıram...*
*Üzümə oxunan ömrün səhflərin-*
*Qəbul eləmirəm - cığallayıram...*

*Nədənsə bənzətdim dar ağacına -*
*Közərən ocağın tüstü dirəyin....*
*Səni and verirəm, gülüm, saçına -*
*Ovut, səni sevən şair ürəyin!*

İnsanın iç dünyasının bir istəyi də olub həmişə. Bu istək isə umacaq deyil, tələb deyil Sadəcə bir ülfət, bir səmimiyyət, bir diqqət, lap elə bir iynə ucu boyda təbəssümdü. Bunu ona görə xüsusi vurğulayıram ki, dünyada elə adam yoxdur ki, onun ovunmağa, onun təsəlliyə ehtiyacı olmasın.

Şəxsən mən az qala bütün gecə və gündüzü həmin o məni ovudacaq anı gözləyirəm, arzulayıram. Ona ehtiyacımı gizlədə bilmirəm.

Çünki ovunanda hiss edirəm ki, yaşamaq həvəsim, yaşamaq istəyim Ümidə çevrilir, olan Ümidimi artırır.

Deməli, məni ovudacaq həmin o nəsnə, yəni söz, hərəkət, kimlər üçünsə mənasız, gərəksiz ola bilər. Heç ağıllarının ucundan da gəlib keçməz.

Mən səsini eşidəndə, addımlarının yaratdığı səsi duyanda, baxışını görəndə, lap elə şəkilinlə göz-gözə gələndə ovunuram. Həmin an mənə elə gəlir ki, o səsi də sən özün göndərdin, o şəkildə də mənimlə birbaşa danışdın. Özünəməxsus addım səsinlə özün içimdən, ürəyimdən, olduğun məkandan gəlib getdin. Və bütün bunları ona görə etdin ki, ayaqda qalım, yıxılmayım. Məncə bu, xoşbəxtlik dərmanıdı. Məncə bu xilaskarlıq missiyasıdı. Məncə bu həmin o yazı boyu vurğuladığım Ümidin diktəsidi. Cəm halında götürəndə bu Allahımın Sənə, qəlbinə, ruhuna mələklər vasitəsilə çatdırdığı mesajdı. O sənin xilaskar mələk olduğunu sənə xatırladır.

O sənin Ümid olduğunu yadına salır. Ona görə də sən mənim gözlədiyim, axtardığım, aradığım, səsinlə, özünlə, bütövlükdə mənim ürəyimi bir anlıq da olsa ovudursan. Mənim ruhumu bir anlıq da olsa Ümid qapısından içəri keçirirsən.

Kimsə bu hisləri, bu duyğuları müxtəlif yerə yoza bilər. Kimsə bunu ötəri bir yazı kimi, gündəmin içində olmaq istəyi kimi də dəyərləndirə bilər.

Amma bütün bu dediklərimə və verilən qiymətlərə baxmayaraq, mən hər kəsin bildiyi kimi, yalnız Allahdan və Səndən yazıram. Və yalnız Allahın və Sənin mənim həyatımda Ümid olmanızı təkrar-təkrar vurğuladığımı bilənlər bilir, bilməyənlərin də nə zamansa biləcəyinə şübhəm yoxdur.

Ən azından ona görə ki, istəyimin adı Ümidli Sevgidi. Həmin sevgi ovutmağa da, yaşatmağa da qadirdi. Yəqin ki, bununla bağlı kimsə mübahisə etməyəcək.

Çünki hər kəsin qəlbində öz sevgisi, öz ümidi var və mən də hər kəsə öz sevgisi, öz Ümidi ilə baş-başa qalmağı, əl-ələ tutub könülləri rahat olan, ruhları sevinən Ümid evinə doğru yol getməyi arzu edirəm.

Və nəhayət:

*Gecikdim bu axşam, deyəsən bir az*
*Bəlkə də yubandım, ya da ləngidim...*
*Amma düşünməki edib sənə naz -*
*Dalğalı dəniz tək indi səngidim!..*

*Fikrim də, ruhum da həmişəki tək,*
*Qoşa izimizlə gəzib bu gün də!..*
*Yaddaşında canlat - xəlvət şəklin çək -*
*Məni o şəkildə göstər bu gündə!*

*Bir az da yorulmuş, bir az da küsgün -*
*Üzünə təbəssüm mehi dəyməyən...*
*Sənin dediyin tək, şükürsüz, üzgün -*
*Elə həmənkiyəm - özün təkləyən!..*

*Tanrı sərhəddin də aşıbdı sevgim-*
*Çünki inadım da ölçüsüz olub.!*
*Düşünmə, mən dünən səni az sevdim -*
*Bu gün Yer kürəsi sevgimlə dolub!*

Hə, mən yazımın sonuna gəlib çıxana qədər yəqin ki, sizlərə nə demək istədiyimi çatdıra bildim. Və çatdıra bilmədiklərimin də fərqinə vardım. Amma gəlin birlikdə etiraf edək ki, mən Sevgidən və Ümiddən yazdım. İstədim ki, gözümün önündə olan və ürəyimdə yaşayan, ruhumda mənimlə hər yeri dolaşan O mənə ÜMİD olduğunu bilsin!..

## Azərbaycan erməni uşaqların dincəldiyi düşərgələri maliyyələşdirir?

**Erməni mediasının bir yalanının üstünü elə erməni mediası açıb.**

Adalet.az xəbər verir ki, son günlər sosial şəbəkələrin erməni seqmenti və mediası guya "azərbaycanpərəst" Macarıstanda təhlükəli məqamlar aşkar ediblər. Belə ki, Qarabağdan könüllü köçən ermənilərin 120 uşağının bu yaxınlard Macarıstanın məşhur "Erzsbet Düşərgələri"ndə dincəldiyi yay düşərgəsinin Azərbaycan tərəfindən maliyyələşdirildiyi ilə bağlı xeyli səs-küy yaranıb.

Erməni mediası məsələ ilə bağlı məqalədə yazır: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2024-cü il avqustun 21-də Dağlıq Qarabağdan məcburi köçkün düşmüş 120-yə yaxın uşağın yay düşərgəsində iştirak etmək üçün Macarıstana getdiyini açıqlamışdı. Macarıstanın xarici işlər naziri Qarabağdan olan 1000-ə yaxın uşağın Macarıstan yay düşərgələrində iştirak edəcəyini təsdiqləmişdi.

Bəzi KİV-lərdə düşərgələrdə olan həmin uşaqlar hədəfə alındığını, uşaqların "Azərbaycan və Türkiyənin təsiri altında agentlərə" çevriləcəyini və ya uşaqların "sındırılmasına" və "beyinlərinin yuyulmasına" cəhd ediləcəyini iddia edirdilər .

Sözügedən proqramı həyata keçirən vəsaitlərdə Azərbaycanın da müəyyən maliyyə iştirakının olması barədə məlumatların yayılması narahatlığı artırır. Maraqlıdır ki, Macarıstan fondlarının Azərbaycan tərəfindən maliyyələşdirilməsinə dair heç bir sübut təqdim edilməyib. "Erzebet düşərgələri" proqramı əsasən Macarıstanın dövlət büdcəsindən "Uşaqlar üçün Erzebet Karpat hövzəsi" fondu vasitəsilə maliyyələşdirilir.

Bundan əlavə, proqram Avropa Sosial Fondundan (EFOP) maliyyə dəstəyi,(erməni lobbisinin təsir dairəsi olan fondlar) vətəndaşlardan və özəl şirkətlərdən ianə alır .

Erzhebet Karpat Hövzəsi Uşaqları Fondunun 2022 və 2023-cü illər üzrə illik hesabatlarını araşdırdı və Azərbaycan Hökumətindən və ya Azərbaycan fondlarından heç bir maliyyə daxilolma və ianə tapmadı" .

***P.S.** Xəbəri yayan məlunlar anlamır ki, onlar hələ Azərbaycana təzminat ödəyəcəklər... Yeri gəlmişkən, qarabağlı ermənilərin uşaqlarının Avropanın göbəyindəki keflərini görürəm, düşünürəm ki, görəsən, 30 il köçkün həyatı yaşamış azərbaycanlı uşaqlar niyə "ədalətli və demokratik" Avropanın diqqətini cəlb etməyib?*

**Əntiqə Rəşid**

# Manqurtlaşan dünyanın sevgisizliyi



**Çox qədim bir deyim var. Hərdən ona inanmağım gəlir, yəni o deyimə. Yəqin onu siz də bilirsiz. Elə bildiyiniz üçün də təkrar edirəm. Axı təkrar biliyin anasıdı**

Hə, müdriklər deyib ki, "İnsan yer üzünün əşrəfidi". İndi siz də fikirləşin, elə mən də fikirləşirəm. Doğurdan da insan yer üzünün əşrəfidi? Əgər Allah bu yer üzünü yaradıb onu da insanın ixtiyarına veribsə, onda insan niyə naşükürdü? Niyə dağıdır yer üzünü? Niyə məhv edir? Deyə bilərsiniz ki, insan həm də qurur, yaradır. Doğrudur məntiqiniz. Lakin bir gerçəklik də var. Biz bir abidə yaradanda ən azı 10 abidəni dağıdırıq, məhv edirik. Bir kənd salanda bir şəhəri yerlə-yeksan edirik. Budurmu yaratmaq? Budurmu qurmaq?

Bax, bu reallıq bir kino lentidir. Özünüz də baxın və düşünün. Görün, yer üzünün əşrəfi olan insan təkcə yer üzünü yox, artıq göy üzünü də dağıtmaqla məşğuldur. Atılan silahların və digər sınaq aparatlarının göy üzünə vurduğu zərbələr, ozan təbəqəsinin deşilməsi və sairə və ilaxır. Göyü öyrənmək üçün elə göyün özünü də obrazlı desəm, dəlmə-deşik edirik, söküb-tökürük. Bilirsiz, bütün bunlar niyə baş verir? Yəqin hərənin öz bildiyi var. Amma mənim bildiyim çox sadə və hər kəsin də düşünə biləcəyi gerçəklikdi. Yəni mənə görə, mənim inancıma və inamıma görə bütün bunlar insanların manqutlaşmasının, sevginin azaldılmasının nəticəsidir. Manqurtlaşan insanlar idarə olunurlar. Duyğusuz, hissiz robot kimi. Deməli o insanların timsalında dünyada sevgi də azalır. Azalan sevgilər həmişə laqeydliyə, biganəliyə, hətta görməməzliyə aparıb çıxarır. Deməli, bizim azalan sevgilərimiz bizə qənim kəsilir

Mən bütün yazılarımda, bütün düşüncələrimdə, həmişə və hər yerdə qabartdığım ən ali hiss SEVGİDİR. O Sevgi ki, məni həyata bağlayıb. O Sevgi ki, məni düşündürür, məni aramağa-axtarmağa, kədərə-qəmə, həsrətə dözməyə kökləyir. Və bir də o Sevgi ki, o mənim bir insan olaraq yorulmadan, dayanmaq bilmədən dalımca qaçmağa, görüşünə tələsməyə, yanımda olmağa hazır tutur. Ona görə də mən dünyanın da, insanlığın da ayaqda qalması üçün vacib, necə deyərlər, ən birinci tələbat kimi, zərurət kimi Sevgini görürəm. Bir daha təkrarlayıram ki, məni mən edən, səni məndə saxlayan, səni mənim ürəyimə çevirən məhz Sevgidi. O Sevgi də mənə bu şeiri yazdırır:

***Göz yaşımda suya çəkib didəmi,***
***Köklənim mən "do"da, yoxsa "si"dəmi?***
***Haqlı sayıb bu edilən sitəmi-***
***Yaşayıram, sevə-sevə sevgimi!***

***Əlim gəlmir ah dalınca daş atam,***
***Ah özü də daş biçimli, daş adam!***
***Sevgim mənə güc verir ki, yaşadam -***
***Yaşayıram, sevə-sevə sevgimi!***

***Gözüm, könlüm bir şəkilə çərçivə***
***O şəkili öpürəm mən ərk ilə!***
***Ümidlənib, havalanıb hər cürə -***
***Yaşayıram, sevə-sevə sevgimi!***

Bizim iç dünyamızın mənzərəsi və o dünyadakı həyat bir Allaha, bir də özümüzə bəllidi. Yəni biz içimizlə çölümüzün, daxilimizlə batilimizin arasındakı o məsafəni zaman-zaman pərdə arxasında saxlayırıq. O pərdənin arxasını görmək üçün o dünyaya, o varlığa, o ürəyə sahiblənmək lazımdı. Onun sakini, onun bir parçası olmaq lazımdı. Deməli, biz yadlığımızla, uzaqlığımızla heç vaxt bir-birimizi, iç dünyamızı görə bilmərik. Düzdü, etdiyimiz hərəkətlər, davranışlar, söylədiyimiz fikirlər müəyyən təəssürat yaradır. Təəssürat isə bütövlük, gerçəklik deyil. O, müəyyən ştrixlərdi. Ona görə də özün necəsənsə, qarşındakını da o cür görmək istəyirsənsə, göründüyün kimi yox, içindəki kimi ol. Məhz belə olan anda sən çevrənə, yaxın və uzaqlarına reallıq kimi görünəcəksən və səni də o reallığın özü kimi qəbul edəcəklər. Təəssüf ki

Bəli, çox təəssüf ki, bu dünya rəngarəng olduğu kimi, çevrəmizdəkilər də bizimlə yol-yoldaşı olanlar da hətta müəyyən vaxtlarda güvəndiklərimiz də bərkə-boşa düşəndə dərhal gerçək kimliklərini büruzə verirlər. Bax, onda kimin kim olduğu üzə çıxır. Bu ağrıdan, bu sarsıntıdan qorunmaq, onunla qarşılaşmamaq üçün öncə atdığın addımı, dediyin sözü düşünməli, fərqinə varmalısan. Bilməlisən ki, nə edirsən, kimin üçün edirsən və sənin bu etdiklərinin kimlərəsə zərəri nə qədər olacaq. Bax, onda düzgün qərar vermək məqamı gerçək səni sual qarşısında qoyacaq. Bu addımı atım yoxsa yox, bu sözü deyim yoxsa yox.

Həqiqətən Allah hər bir kəsi fərd yaradıb. Bax, bu həqiqətə söykənib düşünmək lazımdı. Onda düyünlər çözüləcək, fikirlərə aydınlıq gələcək. Biləcəyik ki, biz də təkik, fərdik. Ona görə də ikili oyun oynamaq, ikili həyat yaşamaq, ümumiyyətlə, özünü hansısa bir əsərin səhnə obrazını ifa edən aktyor kimi görmək lazım deyil. Axı təksən, fərdsən. Bu məqamda da əvvəldə söylədiyim, bizi yaşadan, bizi həyata bağlayan sevgi yada düşür, sevgi gəlir köməyimizə. Yəni Sevgi bir fərdin başqa bir fərdə, bir təkin başqa bir təkə uzanan əli, açılan qolları, bəxş etdiyi iç dünyasıdır. Mən də o uzanan əlin, açılan qolun, bağışlanan iç dünyanın təşnəsiyəm. Onun üçün sino gedən, ona ağılın ucundan da uzağa qoymayan bir təkəm və ona görə də öz-özümə pıçıldayıram ki:

***Yaşıl işıq yanmasa da yolumda***
***Mən duamı etdim hər an bəndətək***
***Bir həsrətin qandalı var qolumda -***
***Düşən gündən bilmədiyim fəndə, tək!***

***Xatirədi dilimdəki ah, aman***
***Göz çıxarır bu yoldakı toz-duman***
***Üzə durur gah ağrılar, gah zaman -***
***Dərd qoşundu bu meydanda, mən də tək!***

***Ağ vərəqdə əlim hər an gül əkdi,***
***Nəfəsim də tel oxşayan küləkdi***
***Gül içindən bəyəndiyim gül təkdi -***
***Allah təkdi, Sevgim təkdi, Sən də tək!***

Hərdən təbiətlə baş-başa qalanda müəyyən hadisələrin, hətta macəraların şahidinə də çevrilirsən. Ona görə macəra deyirəm ki, o gördüyün, o izlədiyin heç vaxt ağlından gəlib keçmir və bu barədə də düşünmürsən. Lakin qarşılaşanda həm heyrətlənirsən, həm də bunun bir gerçəklik olduğuna inanırsan. Çünki gözünlə görürsən, tamaşaçısına, şahidinə çevrilirsən. Fikrimi çox da uzatmadan özümün şahidi olduğum və bəlkə də sizlərin gördüyü bir-iki məqamı xatırladım.

Birincisi, yəqin ki, göyərçinlərin necə dimdik-dimdiyə dayandığını, necə bir-birini oxşadığını görmüsünüz. Və yaxud ikinci, bir-birinə sarılan ilanı da düşünürəm ki, görənləriniz var. Üçüncü, bir-birini oxşayan maralı, ceyranı, ən azından təbiət vərilişlərindən izləmisiniz

Mən bu məqamları davam etdirə bilərəm. Məqsədim o silsiləni genişləndirmək deyil. İçimdə, ağlımda olan ən gerçək niyyət o səhnələrlə sevgini bir daha qabartmaqdı. Özü də bütün sevgiləri. Vətənə də, övlada da, istənilən bir varlığa da və nəhayət, həyatının, ömrünün yarısı olana da!

Bu sevgilər müxtəlif canlıların timsalında eyni mahiyyət daşıyır. Hərə öz həyatına aid olduğu sinifin sevgisinin davamçısı, yaşadanıdı. Deməli, burda bir fərq var. O da ağıl və hiss sevgisidir. Təbii ki, onun ikisi birlikdə insana aiddi. Ona görə də bir baxışdan vurulmaq, bir kğnüldən min könülə bənd olmaq kimi maraqlı, düşündürücü ifadələr dilimizə daxil olubdu. Leksionumuzda yer alıbdır. İnsanın ağıl və hiss sevgisi onun varlığına hakim olanda onu bu yoldan çəkindirmək çox çətin olur, bəzən də heç olmur. Həmin sevgini yaşayanlar bilirlər ki, onda dünya da, yer də, göy də yalnız sevgisini yaşadığından ibarət olur. Çünki o varlığın sahibidi. Bir az da pafoslu səslənsə də deyim ki, ürəyin də, ağlın da sevdiyinin az qala itaətində olması, qulluğunda dayanması adi və normaldır. Gerçəklik olur.

Mən yazı-pozu camiyəsində özümün ağıl və hiss sevgimi heç vaxtı gizləməmişəm. Necə deyərlər, ürəyimin və ağlımın necə pıçıldadıqlarını hər zaman olduğu kimi kağıza köçürmüşəm. Bilmişəm ki, ahlarım göyə körpü olsa da, yazdıqlarım yanan məktuba çevrilsə də, bir qadın məni unutsa da, ancaq o yenə mənimlədi, daha doğrusu məndədi. Onun sığındığı yer ürəyimdi. Var olduğu ünvan ağlımdı, hissimdi. Bu tamlıqda ürəyin nazı ilə oynamaq, mənim həm müqəddəs, həm də əzəli vəzifəmdi. Ona görə də böyük yazıçımız Seyran Səxavətin dediyi bir fikri həmişə mən də öz-özümə təkrarlayıram:

***Sıxma ürəyimi , ürək cəhənnəm,***
***Axı sən ordasan, sən sıxılarsan!..***

Bax, bu birmənalı və hər kəsin də bildiyi həqiqəti mən də öz ürəyimdəkinə - Sənə hər zaman ünvanlamışam və hər zaman da bilmişəm ki, elə ürək sənin özünsən. Ona görə də ürəyimə üz tutanda bilmişəm ki, sənə üz tuturam:

***Həyat qəribədi, özün bilmədən***
***Sönən lampa kimi qaralır ürək***
***Hətta ailədə də bir an içində -***
***Yerin açıq-aşkar daralır, ürək!***

***Özünə sığmayan səsi, sədanı,***
***Dünənki nazını, hətta ədanı***
***Sənin günahını, sənin qadanı -***
***Soruşmur, səssizcə yar alır, ürək!***

***Döyür pəncərəni gün-gündən acı,***
***Ağardır kirpiyi, ağardır saçı***
***Məhəbbət dediyin ömrünün tacı -***
***Dağdı, zirvəsini qar alır, ürək!***

***Tükənir nəfəsi, titrəyir səsi***
***Bəlkə yaşadığı bəsidi, bəsi!***
***Bir Allah bilir ki, heç vaxt heç kəsi -***
***Üzməyən Əbülfət saralır, ürək!***

Hə, dünyanın əşrəfi olan insan dünyanı manqurtlaşmanın, laqeydliyin, biganəliyin ağuşuna atır. Ona görə də sıxır məni bu dünya. O sıxıntıdan hələ ki, məni ayaqda qalmağa kömək edən, ümid verən Sənsən! - Sənin Sevgindi!

**Əbülfət Mədətoğlu**

## Qarabağda bir neçə kütləvi məzarlıq məqsədyönlü şəkildə məhv edilib



**Cari il ərzində Dövlət Komissiyası tərəfindən mütəxəssislərin iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə aparılmış qazıntıların və monitorinqlərin nəticəsində məlum olmuşdur ki, üçtərəfli Bəyanatın imzalanmasından 2023-cü il sentyabr ayında həyata keçirilmiş antiterror əməliyyatına qədər olan müddətdə separatçı rejim tərəfindən Dövlət Komissiyasına və BQXK-ya məlum olan bir neçə kütləvi məzarlıq məqsədyönlü şəkildə məhv edilib.**

Adalet.az xəbər verir ki, bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi" mövzusunda beynəlxalq konfransda çıxışında deyib. O bildirib ki, buna misal kimi Xocavənd rayonu, Qaradağlı kəndi, Xocalı rayonu, Dəhraz kəndi və Ağdərə rayonunun Sırxavənd kəndində Dövlət Komissiyasına məlum olan məzar yerlərini göstərmək olar: "Məlumdur ki, bu və digər kütləvi məzarlıqlar ermənilər tərəfindən törətdikləri müharibə cinayətlərinin izlərinin itirilməsi üçün məqsədyönlü şəkildə məhv edilmişdir. Bu faktlar beynəlxalq hüquqa, həmçinin uzun illərdir yaxınlarını gözləyən itkin ailələrinə və insanlığa qarşı hörmətsizliyin bariz nümunəsidir".

## *Bakı metrosundakı ən köhnə qatarlar 2042-ci ilədək istifadə olunacaq*

**"Bakı Metropoliteni" QSC-də intervalın azaldılması qatarların sayının artırılmasından asılı deyil.**

Adalet.az xəbər verir ki, bunu Azərtac-a açıqlamasında "Bakı Metropoliteni" QSC-nin depolar üzrə iş departamentinin rəisi Faiq Əhmədov bildirib.

Departament rəisi qeyd edib ki, köhnə nəsil qatarlarının ən sonuncusunun istismardan çıxarılma müddəti 2042-ci ildir.

"O müddətdə qədər bu qatarlardan istifadə olunacaq. Köhnə qatarlar tədricən istismardan çıxarılır. Bu il bir qatar istismardan çıxarılacaq.

Ümumi götürdükdə metro qatarlarının 50 faizi yenilənib", - deyə F.Əhmədov bildirib.

## *Dünya Bankı Orta Dəhlizin "yaşıllaşdırılması"nın şərtlərini açıqlayıb*

**Orta Dəhlizi artıq "yaşıl" bir dəhliz hesab etmək olar və onun böyük potensialı var.**

Adalet.az xəbər verir ki, bunu Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Stefanie Stallmeister "Bakı İqlim Həftəsi"nin 2-ci günündə "Sıfır emissiyalı dəniz, yük logistikası və nəqliyyat" növzusunda dəyirmi masada deyib.

"Bu dəhlizi daha da "yaşıllaşdırmaq" olar. Lakin buna nail olmaq həm də operatorlardan, həm də hökumətlərdən böyük öhdəliklər tələb edəcək.

Məsələn, aşağı və ya sıfır emissiyalı yanacaqların inkişafı və istehsalına investisiyalar qoyula bilər.

Bundan əlavə, elektrik batareyalarına və ya hidrogen yanacaq elementlərinə investisiyalar da böyük əhəmiyyət kəsb edir.

Bu yanacaqların saxlanması üçün lazım olan infrastrukturun yaradılması da investisiya tələb edəcək, çünki bu infrastruktur hələ mövcud deyil", - St. Stallmeister biıdirib.

Dünya Bankının rəsmisi qeyd edib ki, aşağı karbonlu yanacaqların rəqabətədavamlı olmasını təmin etmək üçün lazımi qaydalar hazırlanmalıdır: "Əks halda, özəl sektoru bu sahələrə investisiya qoymağa təşviq etmək çətin olacaq.

Həmçinin hökumətlər bu layihələrin əhəmiyyətini sübut etmək üçün özəl sektora pilot layihələri maliyyələşdirməyə icazə verməyi nəzərdən keçirməlidir.

Bölgəyə gətirilən bu yeni layihələrin tətbiqi və yayılması da çox önəmlidir".



*Kərim Novruzov,*
*Ağdam rayon 95 nömrəli tam orta məktəbin direktoru*

# Həyat, Xoşbəxtlik, Ölüm sosial-fəlsəfi anlamda...

**Yunan filosofu Epikur deyirdi ki, ölümdən qorxmaq lazım deyil. Çünki biz onunla heç zaman görüşmürük - biz olanda ölüm olmur, ölüm olanda biz... Amma o, haqlıdırmı?! Axı, biz həyatımız boyu ölümlə, demək olar ki, mütəmadi olaraq görüşürük.**

Yaşından və fəlsəfi anlayışından asılı olmayaraq, insanlar hamısı ölüm haqqında fikirləşir. Sadəcə olaraq, bunlar artdıqca, fikirlər də artır, bir qayda olaraq, daha müdrik, daha dərin olur. Dahi filosofların, böyük zəka sahiblərinin ölüm haqqında fikirləri, təbii ki, daha maraqlıdır. Ölümü fəlsəfənin əsas ilhamvericisi hesab edən Sokrat onu nəvazişlə "qayğıkeş ölüm" adlandırmışdı. Onun fikrinə görə, ölüm olmasaydı, fəlsəfə də olmazdı. Qəribə və maraqlıdır ki, ölüm qorxusu qətiyyən şüurdan asılı deyil, ölümün nə olduğunu bilməyən heyvanlar, hətta həşəratlar ölümdən qorxur, var gücü ilə ondan qaçmağa çalışır.

Filosofların çoxu ölümü həyatdan şirin hesab edir, hətta bizim "Ölülər"in kefli İskəndəri kimi deyirlər ki, qəbirstanlığa gedib tabutların qapağını döyəsən, "dirilmək istəyirsənmi" sualı versən, hamısından yox cavabı eşidərsən. Əslində Sokratın "qayğıkeş ölüm"ü buna işarə idi, hətta fransız Volter, həyat aşiqi Volter boynuna alırdı və deyirdi: "Doğrudur, biz həyatı sevirik, çünki həyat çox şirindir, amma ölüm ondan da şirindir".

Şüura gəlincə, yuxarıda deyildiyi kimi, bu ali keyfiyyət nəinki həyat eşqinin mənbəyi deyil - şüursuz heyvanlar ölümdən bizdən az qorxmurlar. Sanki insanın beynində bütün şüurlu həyatı boyu şüurla ölüm qorxusu arasında mübarizə gedir, şüur qalib gələndə insan gözünü qırpmadan öz idealları uğrunda ölümə gedə bilir və hamının gözündə qəhrəmana çevrilir.

Həyat eşqi - ölüm qorxusu insanın və ümumiyyətlə, bütün canlıların əsas mahiyyətini təşkil edir.

Ölümdən daim qorxmaq, bütün həyatını səksəkəli yaşamaq mənəviyyatı natamam, intellekti zəif olanlara xas olan bir xüsusiyyətdir. Güclü insanlar isə həyata və ölümə fəlsəfi baxırlar. Həyat eşqinin ölüm qorxusunun astar üzü olduğunu anlayırlar.

Azadlıq dünyasının günəşi böyük Babək də ölümdən qorxmadığını məşhur "Mənim ölümüm, mənim son silahımdır" fikri ilə bəyan etmişdir ki, bu gün də onun mübarizə yolu bir örnəkdir və belə də davam edəcəkdir.

Dünya ədəbiyyatında ölməzlik problemi antik dövrdən başlayıb, bu günə qədər həmişə böyük mütəfəkkirləri, filosofları və yazıçıları narahat edən ən vacib məsələlərdən biri olub. Çünki ölüm, həyat anlayışları bəşər tarixinin bütün mərhələlərində bir-birinə zidd, antaqonist anlayışlar kimi insan fikrini, bəşər təfəkkürünü daima məşğul edib. Bu məsələ demək olar ki, elmin və sənətin bütün sferalarında birinci sırada dayanan ən ağır sual kimi cavab axtarıb. Təbabət aləmində İbn Sinalar, fəlsəfə aləmində Şərqin və Avropanın ən işıqlı təfəkkür sahibləri, bədii ədəbiyyatda isə dahi sənətkarlarımız bu problemin həlli üçün ömürlərinin ən qiymətli hissəsini itirməkdən çəkinməyiblər.

İnsanın özü də təbiətin həyatın bir parçası, zərrəsi kimi öləndən sonra da itmir, torpağa qarışır, torpağa şərik olur, torpaqda başqa bir həyat elementi kimi təzədən dünyaya gəlir, yaxud canlı orqanizmdən canlı əmələ çevrilir. Yaradan insan öz yaratdıqlarında əbədi təcəssüm olunur və deməli, o əbədi yaşayır. Bu sirli-soraqlı dünyada ölməzliyin əsas əlaməti və sirri bundadır. Ölüm haqqdır. Həyatda kim nə qədər çalışsa belə ölümdən yaxasını qurtara bilməz. Bir gün bu dünyaya gələn insan, bir gündə bu dünyanı tərk edəcək. Əsas məsələyə keçmək üçün, bu mövzunu dahi Nizaminin misraları ilə tamamlamaq istəyirəm:

***Ölüm ki, səndədir nə qüssə, nə qəm ,***
***Qoy ölüm, ölümdən mən dad çəkmərəm.***
***Hərçəndi dünyaya ölüm gerçəkdir,***
***Ölüm, ölmək deyil, yer dəyişməkdir.***

İnsan probleminin vacib tərəflərindən biri həyatın və ölümün mənasıdır. Yalnız insan öz ölümünü, yaşamağını dərk edib qiymətləndirə bilir. Fəlsəfə tarixindən məlumdur ki, insanın özünüdərkinin çox vacib mərhələlərindən biri - onun öz taleyinə olan münasibətidir. Bu münasibətə uyğun olaraq onda müəyyən dəyərlər sistemi formalaşır; xeyir və şər, borc və hüquq, bərabərlik və ədalətlilik, ağıl və vəhy, əzabkeşlik və həzzalma. Həmin təsəvvürlərə uyğun olaraq insan öz həyatını qiymətləndirməyə başlayır.

İnsan iki qütb arasında seçməyə məcburdur, burada əsas meyar - həqiqətdir (o da nisbidir), bu meyar yaxşı ilə pis olanı fərqləndirməyə kömək edir. İnsan hər şeyin meyarıdır (Protaqor). Sokrat insanları daim mənəvi və intellektual təkmilləşməyə dəvət edirdi. Onun fikrincə, şər biliksizlik üzündən əmələ gəlir, əxlaq - biliyin nəticəsi və məhsuludur. Dünya dərkolunmazdır, dərk olunan insanın qəlbi və əməlləridir.

Xeyirxahlıq insanlara verilmir, təbiət bizə yalnız onu qazanmaq imkanını yaradır. Xeyirxahlığa nail olmaq yollarını siyasət öyrədir. Xoşbəxtliyin şərtləri - mərdlik, səbr, haqq və ağılfərasət qabiliyyətləridir. Məqsəd böyükdür, insanın təbii imkanlarına sığmır, ona görə də alçatmazdır. Azad olmaq əxlaqi borcu şüurlu şəkildə yerinə yetirmək deməkdir. Hegelin təsəvvüründə ümumdünya tarixinin, hər bir insanın başlıca məqsədi - azadlığın gerçəkləşməsi idi, insanın əsas xoşbəxtliyi - fəaliyyətdə olmaq, daim nəyə isə nail olmaqdır. Qabiliyyətləri, bacarıqları istifadəsiz qalan insan həyatından bezir, insanın yeganə hüququ - öz vəzifələrini yerinə yetirməsidir. Başqa hüquqlar həm mənasız, həm də mənəviyyatsızdır: insan cəmiyyətdən aldığını ömründə qaytara bilməz!

İnsanın təbiəti və mahiyyətinə uyğun olan yeganə keyfiyyəti - azadlıqdır. Azadlıq insanın mahiyyətidir, dünyanın inkişaf qanunları - azadlıq qanunlarıdır, onlar dünyanın bütövlüyünü təmin edir. İnsanın azadlığı ondan ibarətdir ki, o, dünyaya təsir etmək qabiliyyətinə malikdir. İnsanın ali məqsədi - ali formaya, təşkilə qayıtmaq, onun daxilində əriməkdir. İnsan dünyanın tərkib hissəsi olaraq, sonuncunun məqsədlərinin həyata keçirilməsinə kömək edə bilər, özü də yalnız bəşəriyyət, kollektiv formasında. Yalnız bu zaman insan nəsli dünyaya təsir edərək onu formalaşdırıb tamamlaya bilər.

Freyd qeyd edir ki, insanlar yaşamağın məqsədini xoşbəxtliyə nail olmaqda görürlər, bunun konkret mənası "güclü həzzalma hissi keçirməkdir". Sözün geniş mənasında bura ağrının və narazılığın olmaması da əlavə olunur. Lakin həzzalma prinsipinin proqramı bütün aləmə (həm makrokosm, həm də mikrokosma) qarşı çıxış edir; o ümumiyyətlə mümkün deyil, kainatın quruluşu ona qarşı çıxır. Xoşbəxtlik - əslində gözlənilməz həzzalma, tələbatın gərginliyinin yüksək səviyyəsinin aradan qaldırılmasıdır. Belə hallar tez-tez təkrarlanarsa, insanda biganəlik, etinasızlıq hissi yaranar. İnsan üç qrup əziyyətlər çəkir (özündən, xarici aləmdən və digər insanlar tərəfindən). Freydə görə əzablardan qurtarmaq üçün bir neçə yol tapıblar: narkotiklər, yoqa, yaradıcılıq fəaliyyəti, dünya haqqındakı təsəvvürləri dəyişdirmək (məsələn, din vasitəsilə, ya da inqilab yolu ilə). Freydin özü isə bu vəziyyətdən çıxış yolunu sevmək və sevilməkdə görürdü. Viktor Emil Frankl göstərir ki, insanın həyatını heykəltaraşın fəaliyyəti ilə müqayisə etmək olar. Təsəvvür edin ki, ona öz əsərini tamamlamaq üçün müəyyən vaxt verilir. Lakin onun nə həmin vaxtın sonu, nə də işin nə vaxt qurtaracağı haqqında məlumatı yoxdur. Buna görə də öz işini nə vaxt dayandıracağını bilmir. O, sadəcə olaraq ona ayrılmış vaxtdan maksimum istifadə edir ki, əsər yarımçıq qalmasın. Lakin əgər verilmiş vaxt iş başa çatana qədər qurtarsa belə, görülən işin qiymətini aşağı salmır. Həyatın fraqmentar xarakteri onun mənasını azaltmır. Ömrün uzunmüddətli olmasından biz heç vaxt onun nə dərəcədə mənalı olduğu ölçüsünü əldə edə bilmərik. Normal insan nə vaxtsa öləcəyindən qorxaraq özünü itirmir, ümidsizliyə qapılmır. Əksinə, ona verilən ömrü mənalı yaşamağa, özündən sonra müsbət iz qoymağa çalışır. Hər bir fərdin həyatının məqsədi və amalı onun mənimsəmiş olduğu sosial ideyalarla, yaşadığı dövrün şəraiti ilə sıx bağlı olur. Məhz onlara arxalanaraq insan öz həyatını xeyir və ya şər, doğruçuluq və ya yalançılıq, ədalət və ya ədalətsizlik kimi mənəvi-əxlaqi anlayışlar üzərində qurur.

Deyilənlərdən aydın olur ki, insanın həyatının mənası, ölməzliyi onun özü tərəfindən qazanılır.

Bu məsələyə dini baxımdan yanaşaq və daha doğrusu dində bu necə qarşılanır?!

Din insanın həyatını müqəddəs dini ehkamlara əməl etməkdə, dini ayin və mərasimləri yerinə yetirməkdə, etiqad vasitəsilə Allaha, axirət dünyaya inam bəsləməkdə görür. Fəlsəfə isə buməsələni həll edərkən ona fərdi, şəxsi və ümumbəşəri göstəricilərin vəhdəti baxımından yanaşır.İnsan həyatı fiziki cəhətdən keçici olmasına baxmayaraq mənəvi baxımdan ölməzlik qazana bilir. İnsanın ölməzliyi onun qoyub getdiyi mənəvi irs, yaradıcılıq və xeyirxah əməllərdir. Təsadüfi deyildir ki, görkəmli elm, mədəniyyət xadimləri, gözəl sənətkarlar, xalqın vətənpərvər oğulları cismən ölüb getsələr də mənən əbədiyyətə qovuşur, əsrlər boyu yaşayırlar. Deməli, insanın ölməzliyi onun zəkasının qüdrətində və humanizmində təcəssüm edir. Burada böyük Nizaminin aşağıdakı misralarını yada salmaq yerinə düşərdi:

***Nə şöhrət, nə yuxu, nə də ki, yemək,***
***Həyatın mənası olmasın gərək.***
***Çalış öz xalqının işinə yara***
***Dünya əməlinlə geysin zər, xara.***

Bütün digər canlılardan fərqli olaraq insan yeganə mövcudatdır ki, həyatı boyu daim özündən narazı olur, müəyyən narahatlıq keçirir, öz məqsədinə çatmağa çalışır. Bu onun inkişafının stimulu rolunu rolunu oynayır. O öz qabiliyyətlərini hərtərəfli inkişaf etdirməyə, cəmiyyətin tərəqqisinə, ümumi işin xeyrinə öz töhfəsini verməyə səy göstərir. İnsanın sosial mahiyyət daşıması, cəmiyyətdə yaşaması onu buna sövq edir.

Nə qədər ki, insan özü dünyanın bir hissəsidir, dünya haqqında əsl həqiqət insana bəlli ola bilməz. Binanın içində oturub onun ümumi mənzərəsini seyr etmək mümkün deyil, bunun üçün binadan kənara çıxmaq lazımdır.

Həyatın nə olduğunu dərk etmək üçün də ona kənardan nəzər salmaq, həyatla ölümün sərhədində dayanmaq lazımdır.

Ölüm haqqında düşünməyən, ölümünü gözü önünə gətirməyən, onu qəlbən yaşamayan adam həyatı qiymətləndirə bilməz, onun ali mənasını dərk edə bilməz. Həyatın mənası ölümün hissi yaşantısı məqamında üzə çıxır.

Maddi dünyadan beşəlli yapışanlar, dünya malını həyatın mənasına, ali məqsədinə çevirənlər maddi dünya ilə əkslik təşkil edə bilməzlər, çünki onun içində əriyirlər; ona kənardan baxa bilməzlər və deməli, fəlsəfi təfəkkür səviyyəsinə yüksələ bilməzlər.

Maddi dünyanın tələblərinə, "sifarişlərinə" həddindən artıq aludə olanda insan öz ali mənasını unudur.

Ölümün mütləqləşdirilməsi və ancaq fizioloji hadisə kimi başa düşülməsi, həm də tədrici yaxınlaşma kimi deyil, çoxpilləli bir proses kimi deyil, ancaq son məqam kimi anlaşılması - bəsit və sadəlövh yanaşmadır.

Əslində bir ömür ərzində nə qədər ölümlərlə rastlaşırıq. İnsan həyatı çoxşaxəli, çoxistiqamətlidir.

Hər gün, hər saat neçə-neçə hüceyrələr ölür, yeniləri yaranır.

Məqsədlərin yox olması, amalların qırılması, əqidənin dəyişməsi, məhəbbətin ümidsiz sonluqla bitməsi və s. neçə-neçə ölümlər.

Eyni zamanda sadalananların əksi olan hadisələr olur ki, bu da insanı həyata bağlayır, yaşam eşqini coşdurur.

Həyat proqnozlaşdırılmış və tədricən həyata keçən müntəzəm, kəsilməz bir prosesdir. Başqa planda yanaşdıqda, həyat ölümə aparan bir yoldur və ömür ölümün realizasiya müddətidir.

Həyat bu sonsuz və tükənməz dünyada iki qaranlıq arasında bir işartıdır. Qığılcım alovlanır, yanır və nəhayət sönür. Həmişə yanması sadəcə mümkün deyil.

Hər şeydən əvvəl heç bir insan xoşbəxt deyil, insanlar ölənədək xəyali bir xoşbəxtlik arxasınca qaçır, onu nadir hallarda ələ keçirir, ələ keçirsə də, geridə yanılmaqdan, məyusluqdan başqa heç nə qalmayacaq. Sonda bütün ümidləri suya düşəcək, limana dağılmış halda girəcək. Buna görə də hər an dəyişən, indidən ibarət olan, indi başa çatan bir həyatda xoşbəxtlik və bədbəxtliyin fərqi yoxdur.

Həyat verdiyi vədi yerinə yetirmir. **Yetirsə belə, bunu özlədiyimiz şeyin özlənilməyə dəyər olmadığını göstərmək üçün edir. Bizi bəzən ümid, bəzən də ümid etdiyimiz şey aldadır. Bir əli ilə verdiyini digər əli ilə alır. Uzaqlığın cazibəsi bizə hər şeyi Cənnət kimi təqdim edir. Amma bu təsirə düşər-düşməz cazibə yox olub gedir. Demək, xoşbəxtlik günəşli tarlanın üzərində dolaşan kiçik buluda bənzəyir, önü-arxası parıltılı bu buludun tarlaya yalnız kölgəsi düşür...**

## *Xameneyi ölümündən əvvəl Nəsrullaha nə deyib?*

**İranın ali dini lideri Ayətullah Əli Xamneyi Livanın Hizbullah hərəkatının baş katibi Həsən Nəsrullaha İsrailin onu öldürməyi planlaşdırdığı barədə xəbərdarlıq edib.**

Adalet.az xəbər verir ki, bu barədə "Reuters" agentliyi mənbələrə istinadən yazıb.

Məlumata görə, Xamneyi Nəsrullaha İrana getməyi tövsiyə edib. Qeyd olunur ki, sentyabrın ortalarında Livanda Hizbullah hərəkatının üzvlərinə məxsus peycerlərin partladılmasından sonra Xamneyi Həsən Nəsrullahın yanına elçi göndərib.

Ayətullah İsrailin Hizbullaha sızdığını və baş katibi öldürmək üçün planlar hazırladığı barədə kəşfiyyat məlumatları olduğunu bildirib.

Mənbələr qeyd edir ki, nümayəndə sentyabrın sonlarında İsrailin hücumu zamanı Nəsrullahla birlikdə ölən Qüds Qüvvələrinin komandiri Abbas Nilforuşan olub. Agentliyin həmsöhbətlərindən biri iddia edir ki, baş katib öz təhlükəsizliyinə arxayın olub və ən yaxın adamlarına tam etibar edib.

Qeyd edək ki, sentyabrın 28-də İsrail Müdafiə Qüvvələri Hizbullahın baş katibi Həsən Nəsrullahı öldürüb.

## *"İçərişəhərə avtomobillərin girişinin qadağan olunması doğru qərardır"*

**"İçərişəhərə sakinlərdən başqa digər şəxslərin avtomobillə girişinin qadağan olunması doğru qərardır, çoxdan atılmalı addımdır, dəstəkləyirəm".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı ekspert Natiq Cəfərli deyib. O bildirib ki, tarixi abidələrə əlavə yük düşməsin deyə İçərişəhərə kənar avtomobillərin girişinə qoyulan qadağa doğru qərardır:

"Amma burada bir məsələni öncədən həll etmək lazımdır. İndidən İçərişəhərdə fəaliyyət göstərən kiçik-orta sahibkarlıq obyektlərinə, mağaza, kafe və otellərə ziyan dəyməsin deyə onların təchizatını həyata keçirən avtomobillərə giriş icazəsi verilməlidir.

Amma təchizatçı şirkətlər də İçərişəhərin özəlliyini nəzərə alıb o bölgədə çalışmaq üçün daha kiçikhəcmli yük maşınlarından istifadə etməlidirlər. İçərişəhərin turizm obyektlərinin təchizatı probleme çevrilsə, həm ziyana düşəcəklər, həm də çoxsaylı turistləri qonaqlamaq işi axsayacaq".

## *İlham Qəhrəmanın "Laçın lətifələri"*

**Bəlli olduğu kimi, dünyanın gülüş ünvanı olan, daha doğrusu, həmişə yumoru ilə seçilən ölkələri, xalqları var. Onları hər kəs tanıyır və zaman-zaman da həmin lətifələrdən, yumorlardan bu və ya digər formada istifadə olunur. Bunu ona görə xatırladıram ki, bir xalq olaraq, bir məmləkət olaraq bizim də bu sahədə özünəməxsus özəlliklərimiz var.**

Hər kəs yaxşı bilir ki, Azərbaycanın təbəssüm, yumor bölgəsi sayılan Şəki bu məqamda öndədi. Ona görə də Şəki lətifələri hər kəsin diqqətini özünə çəkir və təbii ki, bu da həmin lətifələrin yayılmasına, əbədiyaşarlıq qazanmasına stimul veribdir. Bu gerçək həqiqətin içində bir "əmma" da var. Bu da ondan ibarətdir ki, Şəki lətifələri nə qədər öndə olsa da, təbii ki, o, digər bölgələrin lətifə payına heç də kölgə salmır, əksinə onların da bu sahədəki yaradıcılıq və yayım imkanlarını genişləndirir.




Bugünlərdə şair dostum İlham Qəhrəmanın toplayıb çapa hazırladığı bir kitab diqqətimi çəkdi. Mən kitabla tanış olandan sonra bir daha Azərbaycan xalqının həm böyük ürəyinə, həm müdrikliyinə, həm də yaradıcılıq çeşməsinin gurluğuna əmin oldum. Şair İlham Qəhrəmanın "Qanun" nəşriyyatında AMEA-nın Folklor İnstitutu, Elmi Şurasının Qərarı ilə çap olunan "Laçın lətifələri" kitabı söylədiyim fikrin bir növü bünövrəsi oldu. Çünki təkcə İlham Qəhrəmanın təqdim etdiyi "Laçın folkloru", "Gül dəftəri", "Nə qaldı" kitablarından sonra yenidən çap olunan "Laçın lətifələri" özü bir daha sübut etdi ki, bu bölgənin əhalisi qaçqın, köçkün həyatında da öz söz yaradıcılığını, düşüncə dərinliyini daha da önə çıxarmış, ona sanki yeni qol-qanad vermişdi. Əgər bu lətifələrlə tanış olmaq imkanınız yaransa, mənim fikirlərimlə yəqin ki, razılaşacaqsınız. Ona görə də birmənalı olaraq vurğulayıram ki, bu lətifələri oxuyub ondan yararlanmaq, onun təbəssümü içərisində əhvalınızı kökləyə bilərsiniz. Məsələn, lətifələrin birində vurğulanır:

Molla Seyid Ağa yas mərasimində olarkən bir nəfər soruşur:

- Əzrail ekrəkdi, ya dişi?

Molla cavab verir:

- Məleykələr erkək, dişi olmur.

Sual verən yenə dirənəndə molla deyir:

- Əzrail gəlib boğazına salanda əlini altdan salarsan, onda bilərsən erkəkdi, ya dişi.

Və yaxud:

Qara Məmməd Ağdamın Üçoğlan kəndində dostunun evinə qonaq düşür. Məmmədi qarşılayan ev yiyəsi deyir:

- Vaxtsız olduq, sənə yemək hazırlaya bilmədik.

Məmməd kişi cibindən saatını çıxarıb deyir:

- Saat 10-du. Saat ikiyə qədər sizi gözləyirəm!

Bəli, iki nümunəsini sizlərə təqdim etdiyim İlham Qəhrəmanın "Laçın lətifələri" onun özünün də qeyd etdiyi kimi el kitabıdı. Yəni bir elin, bir obanın, dadını-duzunu bir araya gətirən, oxucuya çatdıran kitabdır. Bəli, həmin kitabı əldə edib siz də tamından, duzundan dadın, peşiman olmayacaqsınız.

## *75 yaşın kitabı*




**Bu günlərdə tanınmış və sevilən şairimiz Musa Ələkbərlinin "Sözün qiyaməti qopan yerdəyəm" adlı şeirlər və poemadan ibarət kitabı işıq üzü görüb ("Elm və Təhsil" nəşriyyatı. 776 səhifə).**

Yenises.az bildirir ki, bu kitabda şairin son iyirmi ildə qələmə aldığı şeirlərinin mühüm bir hissəsi toplanmışdır. Yurd sevgisi, vətəndaşlıq yanğısı müxtəlif mövzularda qələmə alınmış bu şeirlərin içindən sarı bir sim kimi keçir. Şair nədən yazırsa-yazsın, sevgiylə yazır. Poetik tapıntılarına ürəyinin odunu-közünü bəxş edir.

Əhatəli və geniş "Önsöz"ü yazıçı İradə Aytelə məxsus olan kitabda Qarabağ dərdi və vətənimizin bütövlüyü uğrunda qəhrəman oğullarımızın milli mücadiləsinə həsr olunmuş şeirlər xüsusi maraq doğurur.

Milli Qəhrəmanımız Mübariz İbrahimovdan bəhs edən "Mübarizlik dərsi" poeması Musa Ələkbərli yaradıcılığının uğurlu nailiyyəti kimi diqqəti cəlb edir.

Müəllifin 75 illik yubileyi münasibətilə çapdan çıxmış bu kitab onun sayca 16-cı şeirlər kitabıdır.

**ƏBÜLFƏT**

Əlisəfa Azayev

# Ağır itki...



**Heç vaxt bu qədər ağrınmamış, təəssüflənməmişdim, Rafiq!.. Sənin vaxtsız dünyanı dəyişməyin inan ki, ürəkdən kövrəltdi, ağlatdı bizi... O bəd xəbəri gecəyarısı eşidəndə qızım... Gəlinin olan Aytən nə hala düşmədi, İlahi! Onu sakitləşdirmək əsla mümkün deyildi. Mən dedim ki, o ağır xəstələnəcək, əsəbləri tamam pozulacaq, havalanacaq. Göz yaşları içində çırpına-çırpına səsi bütün məhəlləni götürmüşdü Kürdəmirdə... Onda bizdə idilər, qonaq gəlmişdilər... Hələ doyunca görüşüb, bağrına basmadığın, uğurlarına bir o qədər sevinmədiyin dərs əlaçısı olan, nəvələrin İsa, Nur balalar... Ah, İlahi, məsləhət sənindir... Ancaq niyə belə oldu?!. O, hələ min bir zəhmətlə tikdirdiyi təzə evinə bu günlərdə köçəcək, nişanlı oğluna toy edəcəkdi axı...**

On iki illik qohumluq müddətində, bəlkə də, ondan acı bir söz eşitsəydi bu qədər təəssüflənməzdi! Hər bayramlarda onu, ailəsini təbrik edərdi. Çox çalışardı ki, həmişə onu qabaqlasın. Ancaq bu heç vaxt mümkün olmazdı.

Oğlu Ramin Kürdəmirdə işlədiyi üçün ailəsi burada qalanda hər il uşaqların ad gününə gələrdi. Hətta bəzən gileyli halda deyərdi: "A qardaş, daha bu qədər yox da... İş adamısan, yollarda qalmısan. Üç yüz kilometr bura, bir o qədər də geri. Gəzib-dolanmaqla yeddi yüz kilometrə çıxır. Elə bunun benzin pulu zarafat gəlirmi sənə?" Gülümsəyib deyərdi: "Hamısı qurbandı onlara..."

Həmin o acı, ağrılı xəbəri eşidəndə kaş onların nə günə düşdüklərini görəydiniz. "Baba!.. Baba!.. - deyə fəryad qopartmaqda idilər.

Ailənin ağsaqqalı, böyük qardaş Ağaşir kişi sayılardı. O da avtoqəzadan aldığı xəsarətdən dünyasını dəyişdi. Çox gözəl, məzəli, dünyagörüşlü bir insan idi. Sonra da həyat yoldaşı Münəvvər xanım dünyasını dəyişdi. Bütün bunlar, əlbəttə, Rafiq üçün də böyük ağrı-acı idi.

Qardaşı Cavanşirin gənc qızının itirməsinin də hey kədərini yaşadı. Üzü tüklü, saqqallı olardı. Dinəndə də deyərdi: "Nə edək, əlimizdən nə gəlir ki?.. Allah səbrlərini versin... Həyatdı da... Gedənlərimizi saxlaya bildik ki?.."

Bir dəfə onunla Ağaşir kişinin qəbri üstə getdilər. Siyəzəndən Çıraq Qalaya gedən yolun sağ tərəfində, yaşıllıqlarla örtülü bu qəbiristanlıq daha çox elə Sağlocan kəndinin ölülərinin məskəni idi. İndi orada özü uyuyur...

Aminlə məzarını ziyarət edəndə istər-istəməz aşağı əyildi, quru torpaq üzərinə çökdü... Baş daşını qucaqladı, öpüb-oxşadı... Onun dəfn olunduğu torpağı sığalladı, ovxaladı, yumşaltdı...

Sanki bütün bunlarla bu ağır müsibəti yüngülləşdirməyə çalışırdı... Ona xitabən deyirdi:

- Həmişə işlədiyin o aqreqatdan söhbət açar, danışardın... İndi sənə niyə beləcə etibarsızlıq elədi... Partladı... Yanğın törətdi... Səni də yandırıb, həlak elədi...

Səs eşitdi... Sürücünün səsi idi:

- Müəllim...

- ...

- Gəl gedək...

- ...

- Ölənlə ölmək olmaz ki...

- ...

- Yaxşısını Allah bilir...

- ...

- Allah rəhmət eləsin...



- ...

- Allah qalanlarını saxlasın.

- ...

- Həqiqi mənada yaxşı oğul idi.

- ...

- Hərdən rastlaşırıq da...

- ...

- Başqaları işdən gələndən sonra istirahət edərdi... O isə maşını ilə hey hərəkətdə olardı...

Bax, adamı ağrıdan da elə bu kimi məsələrdi. Oğlu İntiqam aiıləli, qız nəvəsi olsa da, kiçik oğlu Amil hələ nişanlı idi...

Qardaşı Cavanşir uzun müddət neftçi olmuş, indi təqaüddədi. Özü kimi mərd, təmkinli bir adamdı. Siyəzəndə dövlət notariusu işləyirdi. Uşaqların təhsili ilə alaqədar pul lazım oldu. Ona ağız açası oldu. Dərhal tapıb gətirdi.

Ancaq bir məsələdə onun yanında üzüqara qaldı... Onda Siyəzəndə işdən çıxmış, Kürdəmirdə yaşayırdılar. Əvvəl bura gələn kimi, qayıdanda da havanı dəyişmək ona xoşagəlməz ağrı-acılar yaşatmağa başladı. Revmatizm od qoyurdu ona. Kefsiz, yorğun, qanıqara halda olardı. Bir gün belə günlərin birində Cavanşir ona zəng elədi:

- Əlisəfa müəllim, mənim nəvəm oradakı hərbi hissədə xidmət edir də... Bilirsən... Səhər onu görməyə gələcəyik...

- Gəlin də... Gözümüz üstə yeriniz var.

- Yollar buzlu olmasa yaxşıdı.

Həqiqətən də, qış ayı idi. Havalar çox soyuq keçirdi.

Mən yoldaşım Rahiləyə dedim:

- Gərək, deyəydim ki, elə bu gün gəlin...

Rahilə fikrini bildirdi:

- Gəlsinlər... Ancaq yuxarı otaqlar qızdırılmır axı. Soyuq yerdə onlar necə yatacaqlar?

Bəli, əslində bu belə idi. Cavanşir də tək gəlmirdi. Həyat yoldaşı, qızı, uşaqlar da onlarla olmalı idi.

Hərbi hissədə işləyən, kürəkənimiz Hafizin bacısı oğlu Xəyalı, Cavanşirlə qiyabi də olsa, biz tanış etmişdik... Bu xəbəri barədə onu da məlumatlandırdıq. Evdəkilərə də tapşırıq verdik ki, lazımi hazırlıq görsünlər, səhər qonağımız olacaq.

Bir sözlə, qonaqları biz günortaya gözləyirdik. Andıçmədən sonra gələsi idilər. Ancaq saatlar keçdi, qonaqlar gəlib çıxana oxşamadılar. Stollar "bəzəkli" qaldı... Sonradan məlum oldu ki, Xəyal onları bir kafeyə aparıb. Orada yeyib-içib, geri qayıdıblar.

Bu xəbəri eşidəndə o qədər pis oldu ki. İlk növbədə Rafiq üçün... Axı Cavanşir də onun qardaşı idi. Belə olmamalı idi. Xəyalı görəndə o ki var onu töhmətlədi:

- Yekə kişisən... Adam adamı belə pis vəziyyətdə qoymaz. Bilmirdin ki, onlar bizə qohum adamlardı. Aytənin qayınatasının qardaşıgildi?!.

- Mən nə deyim... Dedilər ki, bizə yeməkxana tap, rahatlığı olsun. Mən də həmin kafeni göstərdim.

- Çox pis... Biabırçılıq oldu...

Bəli, həyatda elə şeylər var ki, onda səhlənkarlıq etmək olmaz. Qohumluqdan əlavə, iyirmi bir il həmin rayonda işləmiş, fəaliyyətdə olmuşdu. O rayonun imkanlısının, imkansızının da xətri onun yanında əzizdi.

Nəinki tanış, qohum, elə neçə yol keçənin telefon zənginə cavab vermiş, qulluğunda durmuşdular. Gücləri çatdığını burada, çatmayanı Kür sahilindəki doğma kəndlərinə aparmışdılar. Rəhmətliklər atası Soltan kişi, anası Durnisə arvad belə məsələlərdə çox həssas, qonaqpərvər idilər. Qapıdan içəri girəni min bir dillə danışdırar, qayğı göstərər, qulluğunda durardılar. Qardaş və bacıları da onlara oxşamışdılar. Qapıları həmişə qonaq-qara ilə dolu olardı.

Keçənə güzəşt, nə etmək... Belə gətirdi də... Təki bundan sonra belə olmasın.

Qardaşlardan Balaşiri də yaxşı tanıyır. Hacı Firudinlə birgə işlədiyi dövrdən. Hacıya qalmayan dünya, bizə də çətin qalar. Hacı Firudin çox səxavətli, xeyriyyəçi adam idi. Kimsəsizlərə, imkansızlara əl tutardı...

Bir dəfə onlarla bağlı bir hekayət eşitmişdi. Nə isə pulla bağlı mübahisə olur. Məktəb yaşlı oğluna müəlliməsi üçün aparmağa pul vermirlər, o da hirslənib pulu yuxarıdan - çoxmərtəbəli evdən aşağı səpələyir... Əsl pul yağışı imiş... Müxtəlif məbləğli dollarlar havada uçuşur, süzürmüş...

İndi onun yanacaqdoldurma məntəqəsi fəaliyyətsizdi... Bəli, gərək pul olanda da qədrini biləsən. Lazımi yerlərə sərmayə qoymağı, xərcləməyi biləsən. Biləsən ki, nəyə sərf edirsən.

Onda dövlət notariusundan əlavə, hakim əvəzi - məhkəməyə sədrlik etmək ona tapşırılmışdı. Bir gün həmin ailənin yaxını (o da hacı idi) - onun yanına gəlib, bir etibarnamə istədi. Sənədlər qaydasınca olmadığı üçün "yox" dedi. Hacı Tofiq dərhal Hacı Firudinə zəng çalıb vəziyyəti dedi. Telefon da açıq, səsdə idi.

O gurladı: "Noldu başqa yerdə verə bildilər, burda yox?!" Məni daha özümü ələ ala bilməyib ciddi halda Hacı Tofiqə dedim:

- Hacı, nəzərə alın ki, Siyəzən rayonunun Xalq hakimi işdən azad olunub. Onu indi mən əvəz edirəm. Rəsmiyyətlə indi bu hərəkətinə görə azı on beş sutka həbs elan etməliyəm ona.

Hacı təsirlənmiş, rəngi avazımış halda:

- Səndən nə desən olar, çıxar... - deyə cəld aradan çıxdı.

Həqiqətən də, bu sahədə az-çox onun qətiyyətinə bələd idilər. Polisin paqonunu qopartmaq istəyənə cinayət işi qaldırıldı. Uzun müddət istintaq getdi.

Yalnız həmin polisin hədsiz xahişlərindən sonra həmin işdə yumşalmalar, güzəşt edildi.

Sonra da bir xuliqanlıq işi. Ərköyünün biri üzüm tənəyi ilə çoxlarını alışdırmış, beləcə yersiz hərəkət, ərköyünlük etmişdi.

Onu da cəzalandırdıq ki, bir də belə hərəkətlərin həvəsinə düşməsin.

**Heyif səndən, Rafiq! Səd heyif! Beləcə dünyanı dəyişməyinə, yoxluğuna elə ağrınram ki... Siyəzənə gələndə sanki bir qardaş yanına, doğmamın evinə gələrdim... İndi budur, yenə də məzarın yanında, ziyarətindəyəm. Nəm torpaq üstə çöküb baş daşını, qəbrin üstündəki narın torpağı sığallayıram... Əlimdən başqa nə gəlir ki?!. Allah qəni-qəni rəhmət eləsin sənə!.. Yerin cənnətlik olsun!..**

**Ağamahmud Səmədov,**
**Geoloq**

# MİNERAL SƏRVƏTLƏRİMİZDƏN MİLLİ MARAQLARIMIZA UYĞUN İSTİFADƏ EDƏK



**Mineral ehtiyatlar sənaye potensialının xammal bazası olmaqla hər bir dövlətin iqtisadi,sosial-siyasi və müdafiə müstəqilliyinin təmin olunmasına xidmət edən vacib bir amildir.**

Elmi texniki tərəqqinin inkişafı və insanların həyat səviyyəsinin yüksəlməsi cəmiyyətin mineral-xammala olan tələbatını artırmaqdadır. Qədim zamanlarda ibtidai insanlar bir neçə metaldan, XVI əsrdə 18 kimyəvi elementdən; XVII əsrdə 25, XVIII əsrdə 29, XIX əsrdə 47 və XX əsrin ortalarında 80 elementdən istifadə edirdi.

Mineral ehtiyatların istehsalı və istehlakı beynəlxalq əmək bölgüsü vasitəsi ilə bütün dünya ölkələrini əhatə edir. Sənayenin inkişafı ilə məhsuldar qüvvələrin artmasında mineral ehtiyatlar daha böyük rola malikdir.

Artıq danılmaz bir həqiqətdir ki, mineral xammal kompleksi bəşər sivilizasiyasının ümumi inkişafında əsas yeri tutmuşdur. Bununla bərabər zəmanəmizdə yeraltı sərvətlərin yüksək templə istismarı bəşəriyyəti çox böyük problemlərlə üzləşdirmişdir. Bu problemlərdən ən başlıcasıQlobal İqlim Dəyişmələridir ki, bunun da əsas səbəbkarı yerin təkindən çıxarılan yanar faydalı qazıntılardan böyük miqdarda istifadə olunmasıdır. Bu yazıda mineral ehtiyatlardan istifadə olunması ilə bağlı olan digər problemlərə toxunulacaqdır.

Dağ-mədən sənayesinin inkişafı nəticəsində son zamanlar bəşəriyyət hər il Yerin dərinliklərindən orta hesabla 890 milyard ton müxtəlif filizlər, yanar faydalı qazıntılar və tikinti materialları çıxarır. Bu elə böyük rəqəmdir ki, onu planetimizdə olan irili-xırdalı bütün çayların il ərzində gətirdiyi qırıntı materiallarının kütləsi ilə müqayisə etmək olar. Təsəvvür edək ki, bunun yalnız 280 milyard tonu faydalı qazıntı, qalan 610 milyard tonu isə boş, tullantı süxurlarıdır. Bu xammalın emalı nəticəsində hər il təxminən 800 milyon ton müxtəlif metal əridilir, əkin sahələrinə 400 milyon tondan çox mineral gübrə və 4 milyon tona qədər müxtəlif pestisidlər verilir.

Təbii ekosistemlərə artan texnoloji təzyiq çox zaman onların sürətlə və dönməz olaraq pozulmasına gətirib çıxarır ki, bu da tədricən qlobal xarakter alır. Üstəlik, vəziyyətin paradoksallığı ondan ibarətdir ki, təbiətin sürətlə gedən deqradasiyası bəşəriyyətin onu qorumaq üçün sürətlə artan xərcləri fonunda baş verir, eyni zamanda, müasir inkişaf səviyyəsində təbiətin qorunması üçün zəruri olan enerji mənbələri yalnız onun təməlinin - Yer planetinin litosferinin texnogen cəhətcə zədələnməsi ilə əldə edilə bilər.

Geotexnologiyaların hazırkı inkişaf səviyyəsində, yerin təkindən çıxarılan bərk mineral xammalın vahidinə 1,1-dən 6,7-ə qədər tullantı süxur vahidi düşür ki, bu da sonda Yer səthində yerləşdirilir. Bu isə, il ərzində ərazisi 5000 km2-dən çox yer səthinin təbii dövriyyədən çıxarılmasına adekvat olan istehsal həcmləri deməkdir!...

...Cəmisi 1-2 əsr öncə İnsan-Yaşamaq uğrunda mübarizə hüququnuəsas götürərək öz təcrübə və biliklərini ətraf təbii mühitlə mübarizəyə(Sovet vaxtı bir çox şairlərin "təbiətin kor qüvvələri ilə mübarizəyə" çağırışını yadımıza salaq!)sərf edirdi. Sonralar İnsan, artıq bununla kifayətlənməyərək rahat yaşamaq uğrunda mübarizəyə başladı.Rahatlığıntəminedilməsiisə çoxlu enerji istehlakını və böyük həcmdə mineral ehtiyatların istifadəsini tələb edirdi.İnsanfəaliyyətininətraf mühitə təsiritəbii geoloji proseslərin Yer kürəsinin komponentlərinə təsiri ilə müqayisəolunacaq bir şəkilə gəldi.Böyük təbiətşünas alim, akademik Vladimir Vernadski İnsan fəaliyyətinin artıq nəhəng bir Geoloji qüvvəyə çevrildiyini yazırdı.Hal-hazırda bəşəriyyətinqarşısında həll olunması zəruri olan iki böyük problemdurur:

1)İnsanın özünün sakini olduğu Yer planetinə texnogen təsiri(nüvəsınaqlarıvəradioaktivçirklənmə, enerji və mineral ehtiyatların sonsuz istehlakıvə s.);

2) Yerin təkamülü zamanıbaş verən vulkanik fəaliyyət, zəlzələ, sunami və s. nəticəsində çox sayda insanın həyatını itirə bilmə təhlükəsi.

Həyatpotensialımızıqorumaqüçün, birincisi, ətraf mühitə təsirimizə rasional bir yanaşma təmin etmək, ikincisi, bütün biliklərimizi və elmi zəkamızı təbiət elementlərinin təsirinin proqnozlaşdırması, qarşısının alınması və qorunmasına yönəltməyimiz vacibdir.

Beləliklə, aydın oldu ki, dağ-mədən istehsalı ətraf mühitə güclü təsir göstərir.Bütün növ bərpa olunmayan mineral resursların-dünyaüzrə istehsalıdavamlı olaraq artmaqdadır. Hesablamalara görə faydalı qazıntıların çıxarılmasının müasir tempi saxlanılarsa, filiz ehtiyatlarının əksəriyyətinin yaxın 50 100 ildə tükənəcəyi gözlənilir.

Yuxarıda qeyd etdiklərimiz biz insanlardan planetimizin uzun tarixi inkişaf dövründə formalaşmış mineral sərvətlərdən qənaətlə, gələcək nəsillərin maraqlarını nəzərə almaqla və ekoloji tarazlığı saxlamaq şərti ilə istifadə etməyi tələb edir.Biz yuxarıda planetimizdə mineral-xammal sərvətlərinin qlobal istifadəsi və onunla bağlı yaranmış böyük problemləri qısaca şərh etdik.

Bəs görək Vətənimiz Azərbaycanda vəziyyət necədir?

Əvvəla onu deyək ki, ölkəmizdə əksər mineral-xammal növlərinin zəngin və etibarlı bazası yaradılmışdır.Dünya dağ-mədən sənayesinin hazırkı inkişaf tendensiyaları fonunda Azərbaycanın malik olduğu zəngin mineral-xammal potensialı ölkədə dağ-mədən sənayesinin inkişafı üçün bö-yük perspektivlər açır. Əminliklə demək olar ki, Respublikamızda iqtisadiyyatın tələbatını tamami-lə ödəyə biləcək mineral-xammal bazası mövcud-dur.

Belə ki, ölkəmizdə istər endogen, istərsə də ekzogen mənşəli faydalı qazıntıların çox geniş spektri məlumdur.

Azərbaycan geoloqlarının uzun illər boyu apardığı geoloji tədqiqatlar nəticəsində respublika iqtisadiyyatının mineral-xammaldan istifadəyə əsaslanan bir sıra sahələrinin stabil inkişafını, mineral-xammala olan tələbatının ödənilməsini, respublikadakı müəssisələrin digər ölkələrdən xammal asılılığının aradan qaldırılmasını təmin edən etibarlı baza yaradılmışdır.

Ölkəmizin ərazisi bir sıra qara, əlvan, nəcib metallar, eləcə də nadir elementlərlə təmsil olunmuş filiz faydalı qazıntılarla zəngindir. Burada dəmir, alüminium, civə, qızıl, mis, qurğuşun, sink, kobalt, molibden, nadir metallar və s. metal yataqları məlumdur.

Respublikasımızda qeyri-filiz faydalı qazıntıların (silikatlar, alümosilikatlar, xloridlər, sulfatlar və s.) daehtiyatları böyükdür. Onlar adətən, kimya xammalı, odadavamlı və inşaat materialları, yarımqiymətli və bəzək daşları və s. sahələr üzrə qruplaşdırılır. Həmin faydalı qazıntıların respublika ərazisində bir sıra yataq və təzahürləri bəllidir. Tikinti materiallarıyataqlarıölkəmizdə böyük ehtiyatlara malikdir. Azərbaycanın xalq təsərrüfatı bir sıra yerli xammal (divar daşları, çınqıl-qum, qum, gillər, gips, sement xammalı, üzlük materialları, perlit və s.) yataqları ilə, demək olar ki, tam təmin olunmuşdur. Balansda olan inşaat materialları yataqlarının ümumi sayı yüzlərlədir. Respublika ərazisində mövcud olan faydalı qazıntıların mühüm növü olan şirin, mineral, termal və sənaye suları geniş yayılmışdır. Hidrogeoloji tədqiqatlar nəticəsində çay dərələrində, dağətəyi şleyflərdə və çayların gətirmə konuslarında, artezian hövzələrində, dağlıq bölgələrdə, məhdud strukturlarda və ya massivlərdə, karst boşluqlarında, tektonik pozulma zonalarında yeraltı su yataqları aşkar edilmişdir.

Hazırda ölkəmizdə bir sıra filiz yataqlarından qızıl və mis metalları istehsal olunur. Yaxın illərdə bir sıra iri miqyaslı qara və əlvan metal filizləri yataqlarının istismara verilməsi nəzərdə tutulur. Azərbaycanda geniş vüsət almış dinc quruculuq işlərinin hamısı yerli mineral-xammalın hesabına görülür.

Ötən əsrin 90-cı illərində Ermənistan silahlı qüvvələtinin öz havadarlarının köməkliyi ilə işğal etdikləri qədim torpaqlarımız Qarabağ və Şərqi Zəngəzur əraziləri artıq müzəffər Azərbaycan Ordusu tərəfindən azad olunmuşdur.Cənnət guşəsi adlandırılan gözəl Qarabağımızda hazırda sürətlə dinc quruculuq işləri aparılır. Bu ərazilərin füsunkar təbiəti, əsrarəngiz fauna və florası olduğu kimi həm də zəngin yeraltı sərvətləri vardır. Azərbaycan vətəndaşları olaraq bizim vəzifəmiz bu sərvətlərdən israfçılığa yol vermədən, regionun, eləcə də Azərbaycanımızın inkişafı naminə və gələcək nəsillərin maraqlarını nəzərə almaqla istifadə etməkdir.

Qarabağ ərazisində Yer qabığının geoloji quruluşunun və geodinamik təkamülünün son dərəcə mürəkkəbliyi burada bir çox faydalı qazıntıların əmələ gəlməsinə səbəb olmuşdur. Onları şərti olaraq filiz (metal), qeyri-filiz (qeyri-metal)və yanar faydalı qazıntılara bölürlər.

Filiz faydalı qazıntılar əsasən əlvan və nəcib metallarla təmsil olunmuşdur. Bunlardan xrom (Göydərə, İpək və s.), qurğuşun-sink (Mehmana), qızıl (Qızılbulaq, Zod, Söyüdlü, Tutğun,), civə (Ağyataq, Şorbulaq, Levçay, Çilgəzçay və s.) filizləri mühüm ehtiyata malik yataqlar əmələ gətirir.

Qeyri-filiz faydalı qazıntılarda Qarabağ ərazisində geniş yayılmışlar. Onlar, adətən, kimya xammalı,odadavamlı və inşaat materialları, yarımqiymətli və bəzək daşları və s. sahələrüzrə qruplaşdırılır və əsasən gil, gəc, tikinti, üzlük və bəzək daşı, soda və sement xammal və s. təmsil edilirlər.

Yanar faydalı qazıntılardanTərtər rayonunun Çardağlı kəndi ərazisində yerləşən daş kömür yatağı qeyd olunur.

İşğaldan azad olunmuş Azərbaycan Respublikası ərazilərində ehtiyatları Faydalı Qazıntı Ehtiyatlarının balansında təsdiq olunmuş 167 sayda müxtəlif növ faydalı qazıntı yatağı, o cümlədən;- 4 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 7 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları (obsidian, mərmərləşmiş oniks, yəşəm və s.), 10 mişar daşı, 21 üzlük daşı, 10 gil, 21 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 11 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 9 pemza-vulkan külü, 16 yeraltı şirin su və 10 mineral su yatağı qeydə alınmışdır.

Ötən 27 il ərzində erməni işğalçıları bu faydalı qazıntıları vəhşicəsinə talan etmişdir. Onların bu əməllərində adlarını çəkmək istəmədiyimiz bir sıra xarici ölkələrdən cəlb edilmiş 30-dək şirkətlərinmüxtəlif dövrlərdə iştirakı isə bütün beynəlxalq hüquq norma və konvensiyalarının kobud şəkildə pozulması deməkdir.

Onu da qeyd etmək lazımdır ki, Qarabağ və Şərqi Zəngəzur əraziləri nəinki Azərbaycanın, Qafqazın, eləcə də planetimizin ən füsunkar ərazilərindəndir. Görünür buna görədir ki, Azərbaycan ərazisində Paleolit dövrünə (qədim daş dövrü) aid ilk insan məskənləri Qarabağda yerləşən Azıx mağarasında müəyyən edilmişdir. Azıx mağarası Füzuli rayonunda, Quruçayın sahilində yerləşir. Burada tapılmış arxeoloji mədəniyyət nümunələri insanların hələ 500 min il əvvəl bu mağarada yaşadığını göstərir. Mağarada tapılmış insanın alt çənə sümüyü 350-400 min il əvvələ aiddir. Çoxsaylı əmək alətlərinin olması sakinlərin ovçuluq və yığıcılıqla məşğul olduğunu sübut edir.

Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonunun ərazisi qədim insan məskənlərindən biri olmuşdur. Burada insanın təşəkkül tapması və formalaşmasının Dördüncü dövrə aid olduğu güman edilir. Həmin dövrdə insanlar ilk əmək alətləri kimi daşdan istifadə etmişlər. Məsələn,Kəlbəcərdə 30 min ildən çox yaşı olan qədim yaşayış məskəni Zar mağarasında aparılmış arxeoloji tədqiqatlar bunu sübut edir. Kəlbəcər rayonunda 6 min il yaşı olan qaya təsvirləri də aşkar edilmişdir.

Qarabağ və Şərqi Zəngəzurda müxtəlif təbiət abidələri, nadir bitki və heyvan növləri yayılmışdır və həm də bura Azərbaycanın iri meşə regionudur.

Yuxarıda Qarabağ və Şərqi Zəngəzurun çeşidli və zəngin mineral xammal növləri və mövcud durumu barədə ümumi məlumat verildi.

Bəlli olduğu kimi, bu ərazilərin ekoloji durumu çox həssasdır.Burada faydalı qazıntı yataqlarıişlədilərkən yerin təkindən istifadəvə mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qanun və digər normativ-hüquqi sənədlərinin müddəalarınaciddi əməl olunmalıdır. Bütün yer təki istifadəçiləri və icarəçiləri mineral ehtiyatlardan səmərəli və qənaətlə istifadə olunmasına və müəyyən edilmiş normalara və standartlara, istehsalat təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin və təbii landşaftın mühafizəsinə əməl etməlidirlər.

Mineral ehtiyatların yer təkindən çıxarılması və emalı zamanı aşağıdakı şərtlərə ciddi əməl olmalıdır:

- bütün faydalı komponentlərin yataqlardan tam şəkildə və kompleks çıxarılması;
- yataqların istismarı başa çatdıqdan sonra pozulmuş torpaqların rekultivasiyası (bərpası) ;
- istehsal zamanı xammalın qənaətli və tullantısız istifadəsi;
- istehsal tullantılarının ayrıca saxlanılması və texnoloji istifadəsi;
- məhsulların işlədilməsi başa çatdıqdan sonra qalan məmulatların təkrar istifadəsi;
- qapalı istehsal dövrlərinin inkişafı və geniş tətbiqi;
- enerjiyə qənaət edən texnologiyaların tətbiqi.

Qarabağdakı bir çox filiz yataqlarında faydalı qazıntıların əksər hallarda çoxkomponentli mineral-xammal olduqları üçün onların istismarı, əvvəllər olduğu kimi tək iqtisadi səmərəlilik baxımından məhdudlaşa bilməz, ölkəmizin müstəqilliyi şəraitində, ətraf mühit və ekologiya sahəsində beynəlxalq normalara və standartlara tam əməl edilməsilə, ən müasir və mütərəqqi texnoloji sxemlərin və ekoloji təhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə əməl edilməsi şərti ilə təmin oluna bilər.

Faydalı qazıntı yataqlarının istismara verilməsi məqsədilə dünya təcrübəsində istifadə olunan mütərəqqi emal texnologiyasının tətbiqi, mineral-xammalın kompleks istifadəsinin təmini, yataqların istismarı və istifadəyə verilməsi müqabilində əldə edilən iqtisadi səmərə ilə ərazinin ekoloji tutumluğu və təbiəti mühafizə tədbirləri nəzərə alımalıdır.

Unutmaq olmaz ki, Qarabağ və Şərqi Zəngəzur unikal təbiət abidələri yerləşən landşaftı - füsunkar dağları, gözoxşayan düzənləri, gözəl təpələri, sıldırım qayaları ilə də məşhurdur. Buranın əsrarəngiz təbiəti ərazini unikal ekoturizm məkanına çevirməyə də imkan verir. Faydalı qazıntı yataqlarının istifadə müddəti isə adətən 30-40 il olur.

Yataqlar istismara verilən zaman bu amili də mütləq nəzərdə saxlamaq lazımdır.

Hesab edirik ki, Qarabağda və Şərqi Zəngəzurda yerləşən faydalı qazıntı yataqlarının ehtiyatlarından istifadə olunmasına çox ciddi yanaşılmalıdır. Faydalı qazıntıların istifadəsi ilə bağlı bütün sənədlər ciddi ekspertizadan keçirilməlidir. Hər bir yataq üçün rekultivasiya layihəsi yüksək ixtisaslı ekoloqlar, geoloqlar və mədənçilər tərəfindən birgə hazırlanmalı, yatağın istismar müddətində ətraf mühitə dəyəcək ziyan qabaqcadan iqtisadi cəhətcə qiymətləndirilməli və onun aradan qaldırılması üçün lazım olan maliyyə vəsaiti istismar işlərinəbaşlanan zamandan yığılaraq saxlanılmalı və istismar başa çatdıqdan sonra ərazinin bərpasına sərf olunmalıdır.İri həcmli rekultivasiya layihələri bir çox ölkələrdə olduğu kimi Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmalıdır.

Yerin təkindən istifadə ilə bağlı olan normativ-hüquqi sənədlərin təkmilləşdirilməsinəciddi ehtiyac olduğunu nəzərə alaraq Bakı Dövlət Universitetinin Geologiya fakültəsində dövlətimiz üçün zəruri olan bu vacib işin daim aparılmasına nəzarəti gücləndirmə məqsədilə hüquqi məsələləri yaxşı bilən geoloq mütəxəssislərin yetişdirilməsi zənnimizcə faydalı olardı. Bu işdə mədənçiliklə məşğul olan Türkiyə və digər ölkələrin təcrübəsindən də istifadə etmək olardı.

Yeraltı sərvətlərdən istifadə sahəsinə aid qanunvericilik aktlarının dövrün tələbləri səviyyəsində işlənib hazırlanması və təkmilləşdirilməsi zamanın tələbidir.

Qarabağın mineral ehtiyatları əlbəttə ki, istifadə olunmalıdır, lakin bu proses elə bir formada aparılmalıdır ki, ərazinin təbii landşaftına, bioloji müxtılifliyinə, təbii biotasına ziyan dəyməsin.

**Şəhidlərimizin qanı bahasına xain düşməndən azad edilmiş Qarabağ torpaqları xalqımızın qeyrət yeridir vəhər bir Azərbaycan vətəndaşı üçün müqəddəsdir. Bu gözəl məkanın təbii sərvətlərindən istifadə olunması ilə ləyaqətli, vicdanlı və vətənpərvər insanlar məşğul olmalıdırlar. Ölkəmiz, Vətənimiz üçün olduqca faydalı olan bu işə şəxsi varlanma məqsədi güdən möhtəkirləri yaxın buraxmaq olmaz.Əgər belələri bəlli olarsa onlar çox ciddi cəzalandırılmalıdır ki, digərlərinə də dərs olsun.**

## *Dırnağınızdakı bu ləkə təhlükəli göstəricidir*

**Ürək həyati orqanlarımızdan biridir və bütün bədənə qan ötürür. Buna görə də ürəklə bağlı hər hansı problem son dərəcə təhlükəli ola bilər. Dırnaqlarınız nadir və potensial ölümcül ürək infeksiyasının siqnalıdır.**

Adalet.az xəbər verir ki, əslində, ürək və qan dövranı xəstəlikləri ölümün ən böyük səbəblərindən biridir və bütün ölümlərin təxminən dörddə birini təşkil edir. Ürək probleminin hər hansı bir əlamətini nə qədər tez görsəniz, lazım olan müalicəni bir o qədər tez ala bilərsiniz. Buna görə də, mümkün qədər çox simptomdan xəbərdar olmaq vacibdir.

Bunlardan bəziləri açıq görünür və sinə ağrısı (angina) kimi simptomlar yaxşı bilinir. Ancaq digərləri daha az açıqdır və ən gözlənilməz yerlərdə görünə bilər. Mütəxəssislərin fikrincə, ürək problemlərinin bir əlaməti dırnaqlarda da olur. Dırnaqların üstündə xırda cizgilərin və dırnaqların altında tünd ləkələrin əmələ gəlməsinə səbəb olan qırıq qanaxmaya diqqət etməlisiniz. Dırnağın yuxarı hissəsində gördüyünüz kiçik cizgilər qırıq qanaxma kimi tanınır.

Bunlar dırnaq yatağında kapilyar adlanan kiçik qan damarlarının zədələnməsi nəticəsində yaranır. Dırnaq yatağına travma, həmçinin Raynaud sindromu kimi sistemli vəziyyətlər də daxil olmaqla, parçalanmış qanaxmaların bir çox müxtəlif səbəbləri var.

Ürəyin daxili astarının nadir infeksiyası olan "endokardit" ürək vəziyyəti, adətən, qanaxmalarla əlaqələndirilə bilər. Endokardit ürəyin daxili qişasının (endokardın) nadir və potensial ölümcül infeksiyasıdır. Bu, daha çox orqanizmdən qana daxil olan və ürəyə gedən bakteriyalardan qaynaqlanır. Britaniya Ürək Fondu (BHF) bildirir ki, endokardit əlamətləri dırnaqlarda görünə bilər. Endokarditin simptomları incə ola bilər və həftələr, bəzən aylar ərzində tədricən inkişaf edə bilər. Lakin bəzi hallarda qəfil də yaranır.

## *ÜST-dən yeni qlobal epidemiya riski barədə xəbərdarlıq*

**Sentyabr ayında Ruandada yayılan Marburq qızdırması Konqo Demokratik Respublikası, Tanzaniya və Uqanda da daxil olmaqla digər qonşu ölkələrə keçə bilər.**

Adalet.az xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) xəbərdarlıq edib. ÜST bu üç ölkənin hakimiyyət orqanlarından Ruanda ilə sərhəddə epidemioloji nəzarət üçün əlavə tədbirlər görməyi tələb edib. Qeyd edək ki, sentyabrın 27-də Ruanda Səhiyyə Nazirliyi ölkədə Ebola qızdırmasını törədən virusla eyni sinfə aid olan Marburq qızdırmasının epidemiyasının başladığını təsdiqləyib. ÜST-ün məlumatına görə, bu günə qədər Ruandada 26 Marburq qızdırması aşkarlanıb, 9 nəfər ölüb. Xəstələrin 70%-i paytaxt Kiqalidəki iki xəstəxananın tibb işçiləridir. Səlahiyyətlilər yoluxmuş şəxslə təmasda ola biləcək 300-ə yaxın adamı müəyyən edib. Onların hamısı nəzarət altındadır.

# Qələm dostumun kitabı barəsində bir neçə söz

**Onun barəsində hər yerdə və özü də heç bir bəzək-düzəksiz danışa bilirəm. Çünki onu tanıyıram. Onun kimliyini də, iç dünyasını da. Təkcə yaddaşımdan yox, həm də zamanın "sınaq ələyi"ndən keçirmişəm. Bu "sınaq ələyi" 30 illik yurd həsrətidi. Həmin o illərdə tanımışam onu. İmzası ilə, sözü ilə. Sonra onu mənə təqdim edən və barəsində çox ürəklə şəhadət barmağını dik tutaraq "belə oğlanda Vahid" - deyən böyük publisist, həm də dəyərli yazıçı, vətən sevdalı Nemət Veysəlli sözünə onu da əlavə etdi ki, "Əbülfət, Vahidin bu vətən həsrəti ilə bağlı yaxşı yazıları da var. Yəqin ki, rastlaşmısan".**

Bax, beləcə tanımışam Vahid Məhərrəmovu. Mən onu tanıyanda artıq Vahid "Azərbaycan ordusu" qəzetinin əməkdaşı idi. Hərbi jurnalist kimi döyüş bölgələrini gəzir və ordumuzun qəhrəman əsgərlərindən, zabitlərindən, problemlərindən silsilə yazılar yazırdı.

Bu fikrimi ona görə keçmiş zamanda sizə çatdırıram ki, Vahid indi ehtiyatda olan zabit kimi başqa ünvanda, ölkənin rəsmi mətbuatı olan "Azərbaycan" qəzetində işləyir. Bir də onu əlavə edim ki, Vahid də ömrünün 30 ilini yurd-yuvasız, qaçqın kimi yaşayıb. Doğulduğu Zəngilanı yuxularında görübdü,,, Vahid Məhərrəmovun ədəbi ictimaiyyətə təqdim etdiyi kitabların bir çoxu məndə var. Onları oxumuşam, fikirlərimi də özü ilə, oxucularla bölüşmüşəm. Nə vaxtdır ki, yazı masamın üstündə olan bir kitabımı "Elimizə qayıdırıq " kitabını arabir götürüb gözdən keçirirəm. Hər dəfə də bu kitabda ötən günlərlə bağlı bir nüans, bir cizgi yaddaşıma hopur. Bəri başdan deyim ki, kitaba ön sözü yazmış dəyərli ədəbiyyatşünas, tənqidçi Nərgiz Cabbarlı çox konkret şəkildə vurğulayıb ki, "Kitabın ilk yazılarından başlayaraq torpaq həsrətinin, qovuşma ümidinin ölmədiyini, canlılığını müşahidə edə biləcəksiniz. Klassik publisistik üslubda qələmə alınsa da, bu yazılarda duyğuların səmimiyyətinin şahidi olacaqsınız".

Mənə elə gəlir ki, dəyərli xanım tənqidçimizin təkcə bu fikirləri artıq Vahidin kitabını oxumağa bir ipucudu. Yəni oxucuya öncədən nə ilə qarşılaşacağını çatdıran bir bilgidi. Təbii ki, yaradıcılığına bələd olduğum qələm dostumun kitabını mən də böyük bir ədəbi uğur kimi qarşılayaraq ona hələ kitabı oxumamışdan xoş arzularımı bildirdim, uğurlar dilədim. Üstəlik, müəllifin avtoqrafı da burada təsirsiz ötüşmədi. Ona görə də mən bu kitabı masamın




üzərində saxlayaraq hər imkanda ona nəzər yetirdim. Bu gün isə kitabdakı bir hekayə məni düşüncələrimi bilgisayara diktə etməyə köklədi.

"Tənbəlin yuxusu" adlanan bu səhifə yarımlıq hekayə ədəbiyyatımıza, ümumiyyətlə, bütövlükdə ədəbiyyatda qarşılaşdığımız bir mövzudur. Yəni biz "ac toyuğun yuxuları"ndan tutmuş Vahidin yazdığı "Tənbəlin yuxusu"na qədər çoxlu sayda novellalar, hekayələr, şeirlər, bir sözlə, satirik ruhlu ədəbi nümunələr oxumuşuq. Vahidin hekayəsində isə bugünün reallığı tənbəlin timsalında daha qabarıq oxucuya çatdırılır. Əslində bu reallığı oxucu da bilir.

Çünki oxucu da bugünümüzün adamıdı. Və deməli hardasa tənbəlin yuxuda gördükləri reallıqda, xəyalda oxucu da öz diapazonuna uyğun bir şəkildə yaşayır, yaşayıb və görüb, eləcə də görür.

Bax, dediyim bu baxış bucağı altında nəhayət ki, iş tapıb, cəmi bir gün işə çıxıb yorğun-arğın qayıdığ bir tikə çörəyini yeyib yatan tənbəl yuxuda o qədər rəngarəng, o qədər maraqlı, hardasa başından pul tökülən, xoşbəxtlik tökülən bir insana çevrilir.

Həmin tənbəl indi gen-bol bazarlıq edən, ailəsinə, övladlarına şərait yaradan, onların arzularını reallaşdıran imkanlı bir ataya çevrilir. Və onun əlindəki imkanına göz dikən cinayətkarlar qarşısını kəsəndə o, qorxudan yuxudan ayılır və gördüklərinin hamısının da yuxu olduğunu anlayaraq nə qədər acınacaqlı duruma düşsə də, bu məqamda qaranlıq otaqda güclə tapdığı yarımçıq şamı yandırana qədər davam edir. Sonra yenə yatağa dönür və başlayır xoruldamağa

Mən bu mənzərəni ona görə xüsusi olaraq qabartdım ki, oxucu tənbəlin yuxusu ilə onun real həyatının təzadlarını, ziddiyyətini görsün. Amma onu da bilsin ki, tənbəl yuxudakı xoşbəxtliyinin acısını, ağrısını itirəndə yaşamır, onu özünə dərd eləmir, yenidən yatır. Deməli, müəllif də bu tənbəlin canına hopmuş tənbəlliyi bədii şəkildə bizə çatdırır. Göstərir ki, bu insan özü hərəkətsizdi. O ancaq hazır olan istəkləri oturub gözləyir, özü nəyəsə cəhd etmir. Bu isə indiki zamanda bu real mühitdə nə başucalığı gətirmir, nə süfrəyə çörək, nə də cibə pul.

Kitabda Vahidin povesti, özü də daha çox real notlara söykənən povesti, eləcə də hekayə, ESSE və publisist yazıları da yer alıb. Mənim üçün sevindirici və bir az da qürurverici məqam həm də odur ki, burda qələm dostum mənim yaradıcılığımla bağlı "Torpağa oğul olmaq gərək " adlı maraqlı bir yazı da yazıb.

Təbii ki, mən bu yazını mətbuatda oxumuşdum. Amma bu kitabda görməyim ikiqat sevincimə səbəb oldu.

**Bir oxucu olaraq düşünürəm ki, Vahid Məhərrəmov öz doğma elinə etdiyi hər səfərdən sonra qələmə aldığı yazılarında olduğu kimi, bundan sonrakı bədii yaradıcılığında da bizləri sevindirəcək, düşündürəcək. Uğurlar olsun Vahid müəllimə.**

**Əbülfət MƏDƏTOĞLU**

# "Kainatın var olma üsulları"

**Bugünlərdə "Ədalət" qəzetinə qonaq gəlmiş söz adamı İbrahim İbrahimli bizə özünün bir kitabını bağışladı. İstedadlı qələm dostumuz kitabını "Kainatın var olma üsulları" adlandırıb. Kitabın girişində müəllifin bizlərə üz tutaraq yazdığı fikirlərlə tanış olarkən hiss etdim ki, o, kitaba daxil etdiyi şeirləri, publisist yazıları, ESSE-ləri və digər nümunələri özünəməxsus ölçülərlə, özünün seçdiyi**




**janr müstəvisində sıralayıb. Ona görə də o, öncədən oxucuya xəbərdarlıq edib ki, bu kitabdakı mətnlər üslubuna, ifadə etdiyi ədəbi janra görə hər gün qarşılaşdığımız kitablardan fərqlənir. Təbii ki, bu təqdimat şəxsən bir oxucu kimi məni özünə çəkdiyi üçün səbirlə və maraqla müəllifin təqdim etdiyi kitabı oxumağa başladım. Və elə ilk publisist düşüncə nümunəsi olan fikir mənim üçün diqqətçəkən oldu. Belə ki, müəllif vurğulayıb:**

- Sevgimizi sonsuzluğa qədər yaşayacayam. (Bu gördüyüm yuxunun reallığıdı). O sonsuz yuxunun sonsuzluğunda. Sevgimizin xatirələrini, mənə yaxınlığını sonsuzluğa qədər və həmçinin sonsuzluğun ömrünü yaşadacaq bizə və həmçinin sevgimizin sonunun olmamağı (xüsusi vurğulayım ki, sözügedən məqam dünən reallaşıb).

Təqdim etdiyim bu fikir müəllifin sevgi sonsuzluğuna fəlsəfi baxışının onun əbədiyaşarlığının, güvənin və inamının ifadəsidir desəm, yəqin ki yanılmaram.

Elə bu üslubda da qaranlığa, yaşanmamış bir günə və digər məqamlara öz baxışını ifadə edən müəllif kitabdakı şeirlərində də həmin özəl baxış bucağını oxucuya təqdim edir və istəyir ki, onunla oxucu arasında təkcə şeirin yazılı forması, misra düzümü yox, həm də ruh təması olsun, fikir bağlılığı yaransın. Məsələn:

*Gedənləri görmədin,*
*Gələnləri gör barı.*
*Ömrümün o dünyasında*
*Ömrümü al barı -*
*Ölüm qabağında.*

*Saxla ömrümü özündə,*
*Uzaq olsun dərddən də.*
*Kimsə ömrümü görməsin*
*Adilik biçimində -*
*Ölüm qabağında.*

*Ömrümə işıq ara,*
*Ömrümə ömür tapım.*
*Ömrünün işığı düşsün ömrümə,*
*Bu dünyanı yaşadım -*
*Ölüm qabağında.*

Zənnimcə, təqdim etdiyim bu şeir özü-özlüyündə müəllifin ömrə də, ölümə də, sevgiyə də hansı mərtəbədən və hansı nəzərlərlə baxdığını göstərmiş olur. Birmənalı olaraq, oxucu olaraq hiss edirsən ki, söhbət ruh dünyasından, ruh aləmindən gedir. Ona görə də onun:

*Sizi and verirəm Allahın Allahlığına,*
*Ölümlə və ölümünlə sevişməkdən,*
*Ölümü və ölümümü ömrümdə gəzdirməkdən*
*Ölümə və ya ölümümə sevinməkdən*
*Qoruyun məni.*

İbrahim İbrahimlini ruh, məntiq və bir az da özünəməxsus fəlsəfi düşüncələr aspektində, hardasa mənə görə yerdən yuxarı, göydən aşağı bir məkanda qərar tutan, gəzib dolaşan ilham pərisinin diktəsi olan bu kitab yəqin ki, artıq diqqəti çəkib. Çünki istedadlı şairin bu kitabında mən yaşamağı da, sevməyi də, yaşatmağı da, sevdirməyi də, hətta ölməyi və ya öldürməyi də yalnız ilahi eşqin, sevginin gücü ilə etməyin mümkünlüyünə aşkar bir çağırışla qarşılaşdım. Mən kitabda məhz vurğuladığım məqamların hakim olduğuna daxili bir yəqinlik hasil etdim. Elə bu yəqinliklə də müəllifə və onun oxucularına uğurlar diləyirəm.

**Əbülfət**

# Azərbaycan-Qırğızıstan ədəbi əlaqələri Dəyirmi Masada





**26 Sentyabr 2024-cü il tarixdə Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Azərbaycan-Qırğızıstan ədəbi əlaqələrinə dair Dəyirmi Masa keçirildi.**

Tədbirdə yazıçı-dramaturq Elçin Hüseynbəylinin " Yanqi Ovoz" Orta Asiya Yazarlar və Tarixçilər Birliyinin sədri Joldoşbek Monoldorovun qırğız dilinə çevirdiyi "Alına yazılanlar, kağıza yazılanlar..." kitabının təqdimatı keçirildi. Giriş sözü ilə tədbiri AYB-nin katibi Səlim Babullaoğlu açaraq, Elçin Hüseynbəyli yaradıcılığa haqqında qısa məlumat verdi. Müəllif və tərcüməçinin çıxışlarından sonra AYB-nin üzvü, Dünya Türklərinin Koordinasiya Mərkəzinin rəhbəri İlqar Türkoğlu və digərləri çıxış edərək Qırğızıstan, eləcə də digər türk respublikaları ilə ədəbi əlaqələrin yüksək səviyyəyə çatdırılmasının vacibliyini önə çəkdilər.

**Əbülfət**

# Azərbaycanın Avroviziyada nümayəndə heyətinə yeni rəhbər təyin olundu



**Avroviziya Mahnı Müsabiqəsində Azərbaycanın nümayəndə heyətinin rəhbəri dəyişib.**

Adalet.az xəbər verir ki, bu barədə İctimai Televiziya və Radio Yayımları Şirkətinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Qeyd edilib ki, nümayəndə heyətimizin yeni rəhbəri vəzifəsinə tanınmış aparıcı, hazırda "Avroviziya"da Azərbaycan nümayəndə heyətinin mətbuat xidmətinin rəhbəri Nurlana Cəfərova təyin olunub.

Məlumat üçün qeyd edək ki, Nurlana Cəfərova 2006-cı ildən televiziya və radio sahəsində fəaliyyət göstərir. Əvvəllər o, 2014-2016-cı illərdə 106 FM radiosunun direktoru, 2017-2020-ci illər ərzində Azərbaycan Televiziyasının Musiqi və Əyləncəli proqramlar redaksiyasının baş redaktoru vəzifələrində, daha sonra İctimai Televizyada aparıcı vəzifəsində çalışıb.

Digər dəyişikliyə görə isə İctimai TV-nin Beynəlxalq Əlaqələr Departamentinin direktoru Maksim Tsurkova yeni səlahiyyət verilib. Belə ki o, həm də Avroviziya layihəsi üzrə Şirkətin Baş Direktorunun müşaviri vəzifəsini icra edəcək.



BAYAT

№ 24 (884)



# Mən səni min il gözlədim, Sevdim keçdim təzə minə



Vaqif Bayatlı Odər

Səni niyə belə sevdim,
belə istədim niyə,
canımdakı min tikana,
bir gülə istədim niyə?!

Eşqdə gizlətdim bu canı
görəmməyən varmı, hanı?!
həm gizlətdim, həm də hamı
bilə istədim niyə?

Min illərçün də Allahdan
Gecə-gündüz, hər an, hər an
səni özümə həm sultan,
həm də, həm də
kölə istədim niyə?!

## Yupyumru eşq ilə

Sevir kimsə kimsəni,
Bir kimsənin üstünə
gəl, mən də sevim səni
yupyumuru,yepyeni bir eşq ilə
yenə sənin üstünə.

Gör, sevgi üstə sevgimi
eşq eşqdən baş alan kimi,
eşq eşqi daşıran kimi,
Allah da aşıran kimi
hər ləçəyi ləçəyin,
gülü gülün üstünə,
göyü göyün, ayı ayın,
günü günün üstünə.

Gör, quş quşa şığıyantək,
gül gülə sığınantək,
son nəğmə oxunantək
ilk nəğmənin üstünə.

Gör, ikiqat sevgidən,
ikiqat eşqdən bu naşı da dəm,
gözünün yaşı da dəm,
ha içər yenə də kəm
qəmi dəmin üstünə,
dəmi qəmin üstünə.

## Səni sevmək istəyirəm

Dünyanın ən güclü adamı
ola da bilmərəm,
olmaq da istəmirəm.
İstəmirəm bir kimsə
mənimlə qorxuda bir kimsəni.

Dünyanın ən varlı adamı
ola da bilmərəm,
olmaq da istəmirəm.
Mənə ən böyük dünya varı
qapı,pəncərəsi açıq
üzü-gözü gülən bir alaçıq!

Mən səni, mən səni
Dünyada hamıdan çox
sevə də bilmərəm,
sevmək də istəmirəm,
çünki ancaq yalandan sevənlər
hamıdan çox sevirlər.

Mən səni sakitcə, yavaşca
sevmək istəyirəm.
Sevmək istəyirəm Tanrıdan yazılantək,
Bir balaca quş
Öz balaca yuvasının
küncünə qısılantək

***

Səni sevən ölüm kimi,
Səni candan ata bilməz.
Səni sevən vətən bilməz,
Ana bilməz, ata bilməz.

Səni sevmək təhlükəli,
Səni sevib, sevib təkcə,
Yaşamaq da mümkün deyil,
Səni sevib ölmədikcə.

Bəlkə bir gün, bəlkə min il,
Sevgiyə azadlıq gərək.
Heç Allah da azad deyil,
Sən azad olduğuntək.

İnsan sevməz min illərcə,
İnsan bu gün, sabah sevər.
Sən istəyən, sən sevəntək,
Bəlkə, ancaq Allah sevər.

***

Qara qız ol, qara torpaq,
ol dəlin olum sənin.
Gir qoynuma, tək məni sev,
Son sevgilin olum sənin.

Gir qoynuma, dol canıma,
Tapmasın heç bir ölkə,
Heç bir ölüm, din səni.
Gecə-gündüz öpə-öpə,
Sən cücərdən güldən gözəl,
Canımdan cücərdim səni,

Bir də tökülmə gözümə,
Tökülmə üstümə bir də,
Qara qız ol, qara torpaq,
Qara qız ol,
Elə sevim ki, səni,
Heç kimi istəmə bir də.

***

Sevdim Allaha bənzədim,
Öldüm, sevgimi bəzədim,
Mən səni min il gözlədim,
Sevdim keçdim təzə minə.

Kim sevmirsə, demək gülmür,
Sevib gül olmayıb hələ,
Bəlkə Allah görmür onu,
Bəlkə doğulmayıb hələ.

Ancaq eşqdən bir dünyayçün
Ölümü də sevib ötdüm,
Ölümüm də döndü gülə,
Hər iki dünya! Mən getdim
Xoşca qalın! Gülə-gülə!

***

Bu dünyada sirr axtarma,
bu dünyanın sirri yoxmuş.
Yaşamağa yer axtarma,
ölməyə də yeri yoxmuş.

Sevişməyə bir dəli yox,
asılmağa bir teli yox,
Yürüməyə irəli yox,
qayıtmağa geri yoxmuş.

Önər belə dərdə dönmüş,
dərd də yoxdu, dərdi dönmüş.
gördüm Allah burda imiş,
döndü üzü bəri, yoxmuş.

***

Xan ceyranın qaçışında,
Ən şahanə uçuşunda,
Ya alnında,ya döşündə,
Bir ox yeri var,yeri var.

Düşməzsən şahlıq atından,
Göyün yeddinci qatından,
Hər bəyaz telin altında,
Bir ah yeri var,yeri var.

Ən kimsəsiz küçə sənin,
Küçə sənin,gecə mənim,
Sən bağlayan pəncərənin ,
Bir dön bəri bax yeri var.

## Unutdular məni, unutdular...

könül bağladığım adamlar,
sirr verib sirrini saxladığım adamlar,
yanlarında ağladığım adamlar,
dünya gələ, gedə
çıxmaz yadımdan.
əlim əllərindən çəkilməmiş,
yıxıq könüllər tikilməmiş
qonur gözlərimə
qara torpaqlar tökülməmiş
unutdular, məni unutdular...
görünmədim gözlərinə,
görünmədim gözlərinə
göz görmədi
könül unutdu...
görünmərəm gözüm dörddü,
bu dünyada yaman dərdi
görünməzsən, unudarlar.
düşünürəm öz dalımca,
gözüm dolur.
hamı səni unudanda
bu yalanlı dünyada
ölümlər gerçək olur...

## Dünya söndükcə Sən görünürsən, İlahi...

Min ildi, milyon ildi
Göylərdə ayaqyalın
Sənə sarı qaçıram,
ayaqlarım sevinir,
yolum sevinir, Allah,
Hər gün sənin göyünə
mismarlanır, dincəlir,
qolum sevinir, Allah.
Sevgin, ancaq sevgin var
bütün kainat boyu
qanrılan, qanı daman
qollarımın gözündə,
bəs nədən əzab gəzir
qolumu dəlib keçən
mismarların üzündə?!
Min ağrıyla, əzabla
Necə qıvrılır onlar,
Heç ağrı yoxdu mənə,
quş kimiyəm, İlahi,
yenə uçuram sənə,
Qolumdakı mismarlar
yalvarırlar ağrıdan,
yalvarırlar əzabdan,
Xilas elə onları,
Xilas elə, İlahi.
Xilas elə əzabdan
Boynumdakı kəndiri,
Altında dayandığım
Bu dar ağacını da,
xilas elə, İlahi.

Hər an bu göyüzünə,
həm də sənə tuşlanan,
yenidən dönə-dönə
məndən keçən gülləni
ağrılardan, əzabdan
xilas elə, İlahi.

Şükür, İlahi, şükür,
Min ildi, milyon ildi
Bağlayıb yollarımı
Bir-birinin ucuna,
Gəlib çatdım axırı
Sənin dar ağacına,
Kəndirin dartıldıqca
boynum dincəlir, Allah,
Boynum dincələn görüb
Tez vururlar boynumu,
Çiynim dincəlir, Allah.

Şükür, şükür, çox şükür,
Sən yenə göyüzündən
yerə enirsən, İlahi.
dünya gözümdə söndükcə
sən görünürsən, İlahi.

## Sevgi sevgiylə Dərd dərdlə unudulur

Unudulacaq bütün sevdalar,
Unudulacaq bütün nəğmələr,
Unudulacaq unudulmaz hər nə var,
Ancaq təkcə mən səni
yenidən sevməkçün hər bahar
yenidən unudacağam.

Ən gözəl xatirə də
ən acı göz yaşıtək udulur,
udulur, unudulur,
yurd yurdla,
sevgi sevgiylə, dərd dərdlə,
insan insanla,
İsa Məhəmmədlə unudulur

Həddən çox şey bilirik bu dünyada.
Boş şeydi! Unudulacaq hamısı!
Unutduqlarımız yenidən, yeni başdan
sudan, torpaqdan, dağdan, daşdan
çıxırmıştək görünəcək bizə hər dönədə,
ən solğun çiçəklər
ən işıqlı ulduzları sevəcək yenə də.

Çiçək gözlüm, nəğmələr oxumaqla bitir,
oynamaqla bitmir elə bil,
gəl, bu nəğmə çatmamış sona
bu sonsuz dünyanın sonunacan
oynayaq bu nəğmənin havasına.

## Mən zalım adamam, kamança

Qardaşım ağaclar, bacım çiçəklər,
bir də söz tutdu sizi,
söz tutdu, sevda qurutdu,
üz tutub yüyürməyin mənə sarı,
bağlanıb gözümün
yaş qapaqları.

Dünyanın bələ qapıları
qala qapıları, daş qapıları,
yetim qapıları, boş qapıları
bağlanıb könlümə, bağlanıb
bağlanıb gözümün yaş qapaqları
Mən söz bəlasıyam,
zalım tifili.

Sürüşüb alnımdan tanrının əli
daha sən də
sən də ağladammazsan məni
mən zalım adamam, kamança.

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

№ 37 (2411) 4 oktyabr 2024-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**... Onlar düz 30 il idi ki, bu Vətəndən, bu eldən, bu torpaqdan ayrı düşmüşdülər. Övlad anasından ayrı düşdüyü kimi bu insanlar da o 30 ildə çox çətin, çox ağır və çox məşəqqətli günlər yaşayıblar. Çünki onlar 1993-cü ilin avqustun 23-də ermənilərin Cəbrayılı işğal etməsi nəticəsində məcburi köçkünlük həyatı yaşamağa başladılar. Varını-dövlətini, evini, eşiyini, hər şeyini qoyub çıxan Cəbrayıl camaatı nicat yolunu başqa elə, başqa obaya sığınmaqda tapdılar.**

çına və bir sözlə, böyük Qarabağa qayıdacaqsınız. İndi bizdən tələb olunan odur ki, bir-birimizi anlayaq, dövlətimizi iqtisadi-hərbi cəhətdən möhkəmləndirək və sonra da işğal altında olan Vətənimizin 20 faiz torpağını azad edək.

Əlbəttə, Azərbaycanın hər yeri bizim vətəndaşlarımız üçün Vətən sayıla bilər. Çünki Azərbaycan bizim doğma yurdumuz, elimiz və obamızdır. Amma buna baxmayaraq, yenə Vətən Vətəndir. Ataların belə bir deyimi var: "El elə sığar, ev evə sığmaz". Bəli, 30 illik qaçqınlıq və məcburi



# CƏBRAYILA İLK DÖNÜŞ SEVİNDİRİCİ OLDU

Düzdür, məcburi köçkünlərə ölkəmizin hər yerində qucaq açıldı, onlara arxa duruldu. Və başqa sözlə demiş olsaq, bu insanların çətin gündə sığındıqları el çörəyi onlarla tən böldülər. Çünki ev-eşik sahibləri, yurd yiyələri yaxşı bilirdilər ki, məcburi köçkünlərin göydə Allahdan, yerdə də onlardan başqa köməyi yoxdur. Və bir də Ulu Öndər Heydər Əliyevin göstərişi ilə bütün rayonlarda bir milyona yaxın məcburi köçkün və qaçqınlara şərait yaradıldı.

Heydər Əliyev də heç vaxt o insanları tək qoymadı. Prezident məcburi köçkün və qaçqınlarla görüşlərində onlara ürək-dirək verdi və dedi ki, vaxt gələcək sizin hamınız qaçqın düşdüyünüz Cəbrayıla, Füzuliyə, Ağdama, Şuşaya, Qubadlıya, Zəngilana, La-

köçkünlük dövründə el elə sığdı, onlar bir-birinə arxa oldu, dayaq durdu, "çətin günün ömrü az olar" deyib böyük ümidlə, inamla yaşadılar. Amma bu çətin günün ömrü az olmadı, düz 30 il çəkdi. Azərbaycan prezidenti İlham Əliyevin orduya verdiyi əmrlə 2020-ci il sentyabrın 27-də




əsgərlərimiz əks hücuma keçdi və 44 günlük İkinci Qarabağ savaşında işğal altında olan torpaqlarımızın əksər hissəsini azad elədi. Yeni Cəbrayıla, Hadruta, Füzuliyə, Qubadlıya, Zəngilana, Şuşaya, Laçına, Ağdama Azərbaycan bayrağı sancıldı. Hələ bu da Azərbaycan dövlətini və ordusunu sakitləşdirmədi. Belə ki, 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusu Qarabağda antiterror əməliyyatı apardı. Xankəndi, Xocavənd, Xocalı, Əsgəran və Qarabağın bütün yaşayış məntəqələri geri qaytarıldı. Başqa sözlə demiş olsaq, Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa edildi.

Artıq 2020-ci ildən sonra Füzulidə, Cəbrayılda, Zəngilanda, Ağdamda, Qubadlıda və Laçında çox böyük yenidənqurma və bərpa işlərinə start verildi. Həmin rayonlarda yeni infrastruktur quruldu, asfalt yollar çəkildi, qaz, işıq və su xətti istismara verildi, eyni zamanda məktəblər, uşaq bağçaları, çoxlu sayda yaşayış binaları inşa edildi. İlk köç Zəngilanın Ağalı kəndinə oldu. Ondan sonra Füzuliyə və Laçına insanlar köçürüldülər.

Bir neçə gün bundan əvvəl isə 40 ailə çox böyük sevinclə Cəbrayıla köçürüldü. Onlar dövlət tərəfindən hər cür şəraitlə təmin olunublar. Yeni evləri-eşikləri və hər cür rahatlığı olan digər sosial obyektlər.

30 il Bakıda məskunlaşan həmin insanlar Yol Polisinin müşayiəti ilə mikroavtobusla Cəbrayıla gətirildilər. Onların sevincini hiss etməmək mümkün deyildi.

70 yaşlı Cəfər Məmmədov deyir ki, mən 40 yaşında buranı tərk etmişəm, indi isə 70 yaşın içindəyəm, övladlarımın hamısını evləndirmişəm, nəvələrim var. Ən böyük arzum Cəbrayıla - doğma Vətənə dönüş etməkdir. Biz Vətənsizliyin nə olduğunu yaxşı bilirik. Çünki 30 il Cəbrayılsız yaşamışıq. Onu hər axşam yuxularımızda görürdük. Və bizə bu sevinci yaşadan prezident İlham Əliyevə, eləcə də Azərbaycan ordusuna, Azərbaycan əsgərinə öz minnətdarlığımızı bildiririk. Çünki bu torpaqlar şəhidlərimizin canı və qanı hesabına geri qaytarılıb. Dünyada Vətəndən şirin heç nə yoxdur. Ömrümdə qaçqınlıq dövründən sonra belə bir rahat axşam yaşamamışdım. Axşamı öz evimizdə, isti ocağımızda yaşadıq, plov bişirdik və sevincimizi birlikdə bölüşdük. Bundan gözəl nə ola bilər?!

Qaçqınlıq dövrü yaşamış Fatimə Məcidova da deyir ki, mən 5 yaşında Cəbrayılı tərk etmişəm.

İndi təsəvvür edin, mən burdan çıxanda uşaq idim, indi 35 yaşım var, ailə qurmuşam, övladlarım var. Özüm də müəllimə işləyirəm. Düşünürəm ki, bizim Vətənə dönməyimiz həm də əcdadlarımızın ruhunun şad olması, sevinməsi deməkdir. Necə ki bizim iç dünyamız Vətənə dönəndən sonra rahatdır, onların da ruhları bir o qədər sakitdir. Gəldim Cəbrayılı gördüm, sevincimdən uşaq kimi ağladım. Çünki qısa bir müddətdə burda çox möhtəşəm işlər görülüb. Evlər tikilib, sosial obyektlər inşa edilib, yollar çəkilib və hər cür infrastruktur yaradılıb. Yeni bizim bu məkanda rahat yaşamağımız və işləməyimiz üçün deməkolar ki, nə varsa hamısı olunub. Buna görə də mən dövlətimizə və ölkəmizin prezidenti Cənab İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Deyirəm ki, Allah prezidentimizi qorusun və cənab Prezident də bizim təhlükəsizliyimizi təmin etsin.

**Cəbrayıla bu dönüş ilk başlanğıcdır. İlk başlanğıc xeyirli və uğurlu olsun. İlin sonuna qədər və gələn ilin əvvəllərində də mərhələ-mərhələ bu elə qayıdış olacaq. İndi çox cəbrayıllı böyük sevinclə, fərəhlə həmin günləri gözləyir. Onları qınamalı deyil, qürbət cənnət olsa da yenə Vətən yaxşıdır. Bir də ki axı, onlar qürbətdə yaşamayıblar, öz doğma Azərbaycanımıza sığınıblar. Deməli, Azərbaycanın hər yeri elə Vətənə bənzəyir. Amma əsl Vətən isə insanın anadan olduğu, böyüyüb boya-başa çatdığı yerdir. O yer ki hara getsək, haranı gəzsək və bir gün ora qayıtmaq istəyirik. Gec qayıdanda darıxırıq, ancaq Vətəndə heç vaxt darıxmaq olmur. Çünki Vətənin hər daşı-qayası, hər gülü-çiçəyi, hər ormanı özü bir dünyadır!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Rejissor: "Aktyor teatrdan böyük qazanc gözləməli deyil"

*Mədəniyyət sahəsinə üz tutmuş insanlar demək olar ki, fərqli düşüncədə olurlar. Onlar üçün həyat fərqli rəngdə görünür. Hadisələrə də, insanlara da tam fərqli yanaşırlar.*

*Həmsöhbətim Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının rejissoru Gülnar Hacıyeva da fərqliliyi ilə seçilənlər sırasındadır.*

**-Müəyyən zaman kəsiyində teatra çox canlanma gətirdiniz və çox şey verdiniz. Bəs teatr sizə nə verdi?**

-Məni bura illərin marağı gətirdi. Bu, mənim 3-cü təhsilimdir.

Qismət belə gətirdi ki, 1998-ci ildə öz uşaqlıq arzuma çatdım və xalq artisiti Cənnət Səlimovanın kursunda bakalavr pilləsini başa vurdum. Bunu də fərxlə deyirəm ki, mən fəxr edirəm ki, Cənnət xanım Səlimovanın tələbəsi olmuşam. Bilirəm ki, o da mənimlə fəxr edir. Onun sevimli tələbələrindən biriyəm.

Ona görə dedim ki, özümü sırf tetara həsr etməmişəm, çünki ali məktəbi bitirəndən sonra Şəhriyar Mədəniyyət

**- Bu qədər "yol" gəlməkdə hesab edirəm ki, səbrli insansınız...**

-Yox, qətiyyən. Həddindən artıq səbrsizəm. Əvvəllər daha çılğın idim. Sonra həyat mənə o qədər dərs keçdi ki, səbrin nə demək olduğunu anladım. Hərdən öz- özümə fikirləşirəm ki, yəni bu mənəm?

Xaraktercə uşaqlıqdan çox ciddiyəm. Mənim hələ 8- 10 yaşlarım olardı ki, onda mən tamaşanı belə görmək istəyirəm.



Birdə onu qeyd edim ki, Azərbaycan teatr tarixində ilk dəfə səhnəyə yağış yağıb.

**-Aktyor seçiminizdə tərəddüd etmisiniz?**

- Mən bir rejissor kimi əsəri oxuyanda artıq onun aktyoru gözümün önündə canlanır.

Bəli, aktyor seçimimizdə biz sərbəstik. Heç kəs bu barədə bizə müdaxilə etmir. Düzgün aktyor seçilmirsə o tamaşa heç vaxt uğur qazana bilməz.

**- Aktyorlarınızdan narazı qalanda onu bildirinizsiniz?**

-Əlbəttə. Ancaq əvvəldən öz tapşırığımı sərt şəkildə deyirəm ki, hər kəs öz payını götürsün və mən istədiyim nəticəni əldə edim *(gülür).*

Mən o qədər hər sahədə dəqiq və dürüstəm ki, onu qarşımdakı insandan görməyəndə bu məni incidir. Azərbaycanda teatr məkanında ən çox truppa olan teatr, bizim teardır. Hər yaş həd-

Mərkəzində rejissor kimi çalışmışam. Səs rejissoru işləmişəm. Sonradan mən bu teatra gəlmişəm. Hamı bilir ki, teatr sahəsində madiyyat çox zəifdir. Teatrda işləyən aktyor teatrdan külli miqdarda qazanc gözləməli deyil. Burda istedad, səbr və həvəs mütləqdir. Belə olan halda çətinliklərə dözüb yaxşı sənətkar olmaq olur.

Biz alqışa işləyən adamlarıq. Bunu hər kəs bilir. Əgər tamaşaçı bizi alqışalyırsa, gördüyümüz işdən zövq alırsa, demək biz nəsə əldə etdik. O alqışlar bizə madiyyatdan qat- qat üstündür.

Burda səhnələşən tamaşalarda bütün yaş hədləri nəzərə alınır. Yəni tamaşa üçün yaş senzi yoxdur. Bizim teatrımız sırf gənc tamaşaçılar teatrı deyil. Çünki burda 3 teatr birləşir- Kamera teatrı, Gənclər teatrı və Gənc tamaşaçılar teatrı.

**- Deyirsiniz ki, bu mənim 3-cü təhsilimdir. Əvvəlki peşələrinizin adını bilmək olar,sirr deyilsə?**

- İlk ali təhsilimi Kooperasiya Universitetində almışam. Yəni müsahiblik. Ancaq bir gün də olsa belə o sahədə çalışmadım. İkinci təhsilimi isə deməsəm daha yaxşı olar. Çünki həmin sahədə az da olsa çalışmışam. Ona görə elə o sir qalsın *(gülür).*

**-Belə ciddi bir sahədən incəsənət keçid etmisiniz..**

-Bəli, doğru buyurdunuz. Ancaq bu istək lap körpə vaxtlarımın istəyidir. Mən qarabağlıyam, bizim ailədə bizimkilərin dili ilə desək, "indiyə kimi nəsildə artist olmayıb".(gülür). Mən əvvəldən öz sevdiyim peşəni evdəkilərin maneəsinə görə seçə bilməmişdim. Evdən mənə məcbur etdilər ki, iqtisadiyyat sahəsinə yön alım.

da mən öz- özümdən nağıl uydururdum. Evdən atamın- anamın paltarların oğurlayırdım.

Bundan əlavə örtük, balış v.s kimi əşyaları evdən götürüb binamızın baş tərəfində bir yer var idi, ora aparırdım. Məhləmizin uşaqlarını da ora yığırdım hərəyə bir rol verirdim ki, tamaşa quraq. Mən nə elədiyimi bilmirdim. Ancaq nə edirdimsə həvəslə edirdim. Mən 1-ci kursda oxuyanda Cənnət xanım bizə etüd-tamaşalar verirmişdi. Mən həmin tamaşanı işləyəndə anladım ki, mən o yaşımda rejissorluq etmişəm.

Sizə onu da deyim ki, bizim nəslimizdə incsənət aləmində ilk və yəqin ki, son nümayəndə mən olacam. Məndən əvvəl heç kəs olmayıb. Heç istəmirəm ki, sonra kimsə davam etsin. Çünki bu peşənin ağırlığını və çətinliyini dərk edirəm.

**- Siz nəslinizdə inqlab etmisiniz ki...**

-Hə, hə mən əsl inqlab etmişəm (gülür). Bilirsiniz, mən bu peşənin ağırlığını elə hiss edirəm ki, istəmirəm doğmalarım da belə bir yükü çəksin. İnanın çox çətindir. Doğrudur, tamaşaçı tamaşadan sonra bizi ayaq üstdə alqışlayanda o qədər xoşbəxt oluram ki, ruhən dincəlirəm.

**- Rejissorlar həmişə yeniliklərin axtarışında olurlar Olubmu son anda aktyorun hərəkətini və ya hər hansı bir dialoqunu dəyişəsiniz?**

- Bəli,olub.

**-Bu,aktyorun istedadını yoxlamaqdır, yoxsa öz baxış fərqliliyinizdir?**

-Bilirsiniz, olub ki tamaşa dəfələrlə səhnəyə qoyulub. Bir dəfə də demişəm ki, filan hissəni dəyişək fərqli edək. Bu dində bizdə aktyor var. Bundan əlavə hələ məktəbli uşaqlar var ki, bizim səhnəmizdə tamaşalarda rol alıblar.

**- Məktəblilərlə işləmək sizə çətin deyilmi?**

- Mən belə bir tamaşaya quruluş verməsəm də Cənnət xanım və Nicat Kazımov belə tamaşaları səhnələşdiriblər. Əksinə, uşaqlarla işləmək daha rahatdır. Çünki onlar daha həvəslə yanaşır teatra.

Bizim teatr heç bir aktyora "yox" demir. Əgər aktyorun bacarığı və istedadı varsa, o, mütləq bizim teatrın səhnəsində rol alacaq.

Əyalət teatrlarının birində mənə çox yaxşı bir vəzifə təklif etdilər. Bu, mənim üçün böyük bir şans idi. Amma bu teatr mənə çox doğma olduğu üçün, insanlarına bağlandığım üçün həmin təklif olunmuş vəzifəni qəbul etmədim.

**- Heç xüsusi tamaşaçınız olubmu?**

- Bəli, olub. Teatrımızın daimi tamaşaçıları var ki, onlar bizim teatrımızı çox sevirlər. Bu da bizə fərəh və qürur hissi verir. Kiyafət adında bir tamaşaçımız var idi. Həmin xanım Vüsal Mehrəliyevin portretini çəkib gətirmişdi.

**-Niyə məhz Gənc Tamaşaçılar Teatrı?**

- Cənnət xanım Səlimova. O burda baş rejissor işləyirdi məni də bura o dəvət etdi və mən çox sevinirəm ki, mən bura gəlmişəm. Bu teatrda məndən çox qışqırıb- bağıran yoxdur, amma məndən də çox sevilən də yoxdur (gülür). Hətta deyim ki, bizdə daxili mikrofon olur. Onunla ancaq aktyorlarla danışırıq biz. O mikrofonla belə mən qışqırıram (gülür)...

**Əntiqə Kərimzadə**

# Kərim Abbasov: "Onunla haqq- hesabım axirətə qalsın"

**Müğənni Kərim Abbasov keçmiş həyat yoldaşı, hazırda məhbus həyatı yaşayan Təranə Səmədova haqqında çox ağır iddiamlarla danışıb.**



Adalet.az xəbər verir ki, müğənni məhbus prodüsseri heç vaxt bağışlamayacağını söyləyib: "Heç vaxt onu bağışlamaram, heç vaxt. O mənə çox pis zərbələr endirib. Mən isə yalnız Allaha sığınıb, onun mənə möhtac olmasını Allahdan istəmişəm.

Onun iki balası var. Allah ikisini də xoşbəxt etsin, övadlarıyla heç bir işim yoxdur. Amma özü ilə haqq-hesabım axirətə qalsın.

Mənim ondan övladım yoxdur. Əgər mənim ondan övladım olsaydı, o uşaq Təranənin yox, mənim yanımda olardı. Özü də indi yox, doğulduğu gündən öz yanımda olardı".

Qeyd edək ki, bir müddət öncə Kərim Abbasov keçmiş həyat yoldaşı Təranə Səmədovanı həbsxanada ziyarət etmişdi. Həmin görüntülər sosial şəbəkələrdə yayımlanmışdır.

**Əntiqə**

## TƏRLAN ƏHMƏDOVU GƏTİRİN, SONRA YENƏ QOVARSIZ



**Hazırda "Neftçi" komandası 8-ci yerdədir. Bu "Neftçi" adına yaraşmayan bir haldır. Yadınıza düşürsə, vaxtilə "Neftçi" yenə belə bir hal yaşayırdı, sonuncu yerdəydi, Tərlan Əhmədovu dəvət elədilər. Gəldi, nəinki klubu vəziyyətdən çıxartdı, hətta adını medalçılar sırasına saldı.**

İndi "Neftçi" yenə həmin gündədi, çıxış yolu axtarırlar. Çıxış yolu belədir, yenə Tərlan Əhmədovu çağırın, Tərlan klubu yenə vəziyyətdən çıxarsın, yenə adını medalçılar sırasına salsın, sonra yenə qovarsız dana.

## Afət Fərmanqızı: "Gözəlliyimlə fəxr edirəm"



**Mahnılarından çox qalmaqalları ilə yadda qalan Afət Fərmanqızı bu dəfə də öz gözəlliyindən söz açıb.**

Adalet.az bildirir ki, müğənni özünü estetik əməliyyatsız gözəl adlandırıb:

"Gözəl anayam, ağıllı övlad böyütmüşəm. Təhsilim var, ali təhsiliyəm. Sənətimlə sevilirəm. Heç bir estetikim yoxdur. Yəni plastik əməliyyatsız gözəl olan yeganə müğənnilərdənəm.

Gözəlliyimlə fununla fəxr edirəm. Bircə sevgidə bəxtim gətirmədi. Bu da Allahın işidir. Allah dedi ki, qoy burda da kəm olsun".

## Aktrisa: "Toy sahibi mənə bir stəkan çay vermədi"



**Aktrisa Sonaxanım Əliyeva el məclislərinin birində başına gələn hadisədən danışıb.**

Adalet.az bildirir ki, ona məclislərin birində toy sahibi tərəfindən hörmətsizlik edilib:

"Bir dəfə toya getmişdim. O zaman mağar toyları çox olurdu. Mağar toyunda oxuyurdum.

Bir saat dayanmadan oxuyuram. Yer də torpaqdır deyə toz qalxıb göy üzünə. Susamışam. Sonra yanımdakı həmkarım oxumağa başlayanda mən dayanıb, dincəldim.

Gözlədim ki, indi mənə bir stəkan çay gətirəcəklər. Həm oxuyuram , həm də burda göyə qalxan tozu uduram axı. Birdən toy sahibi mənə yaxınlaşdı ki, bəs niyə oxumursan? Bura nəyə gəlmisən? Səni oturmağa çağırmışam? Dur, mahnı oxu.

Onun bu sözünə o qədər əsəbləşdim ki, onlardan narazı qaldığımı tək özlərinə yox, həm də məclis əhlinə dedim. Mikrofonu götürüb "Sizin necə qonaqpərvər olduğunuzu yaxşı gördüm. Demək filan rayon(ad çəkmir) belə qonaqsevər imiş. Hörmətiniz üçün çox sağolun ki, qapınıza gələn qonağa bir stəkan çay da vermirsiniz" -dedim.

Düzdür, ondan sonra çay gətirdilər, yemək təklif etdilər. Ancaq bunun heç bir mənası yox idi. Necə deyərlər, daldan atılan daş topuğa dəyər".

**Əntiqə**

Lerik rayonu Meyvə Tərəvəz Konserv Zavodu Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır.

Hüsniyyə Əlizadə Ədalət Vəliyevə, Səxavət Vəliyevə və Mayisə Vəliyevaya

**Hədiyyə xanım Əşrəf qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 199
Çapa imzalanmışdır: 03.10.2024